**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# DEN BRAUNUN BƏDİİ MƏTNLƏRİNDƏ GERÇƏKLİK VƏ ONUN POSTMODERNİST STRUKTURU
## (“Da Vinçi şifrəsi”, “Cəhənnəm”, “Mələklər və şeytanlar” romanları əsasında)

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

Fəlsəfə doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş

**DİSSERTASİYA**


İddiaçı: ____________ **Yeqzar İsfəndiyar oğlu Cəfərli**

Elmi rəhbər: ____________ filologiya elmləri doktoru, professor
**Seyfəddin Gülverdi oğlu Rzayev**


**Bakı – 2024**

## MÜNDƏRİCAT

GİRİŞ.......................................................................................................... 3

I FƏSİL. "MƏLƏKLƏR VƏ ŞEYTANLAR" ROMANINDA SOSİAL GERÇƏKLİK ......................................................................... 15
1.1. "Mələklər və şeytanlar" romanında gerçəkliyin bədii strukturu .... 15
1.2. "Mələklər və şeytanlar" romanında zaman konsepti ..................... 25
1.3. Robert Lənqdonun həqiqət axtarışları ........................................... 36

II FƏSİL. "DA VİNÇİ ŞİFRƏSİ" ROMANINDA ALTERNATİV GERÇƏKLİK ......................................................................... 48
2.1. "Da Vinçi şifrəsi" romanında absurdun transformasiyası .............. 48
2.2. "Da Vinçi şifrəsi" romanında intellektuallıq və əyləncəvilik ......... 59
2.3. Robert Lənqdon alternativ gerçəkliyin individual modeli kimi ..... 70

III FƏSİL. "CƏHƏNNƏM" ROMANINDA POSTMODERN GERÇƏKLİK 81
3.1. "Cəhənnəm" romanında gerçəkliyin imitasiyası ........................... 81
3.2. "Cəhənnəm" romanında gerçəkliyin dekonstruksiyası .................. 92
3.3. Robert Lənqdon və gerçəkliyin modernizasiyası .......................... 103

NƏTİCƏ…………………………………………………………………... 116

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI …………………………..... 120

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Orta əsrlərdə kilsənin hakim mövqedə olması gerçəklik anlayışının əhatə dairəsini məhdudlaşdırmışdı. Sonradan ilk fəlsəfi və ədəbi cərəyan kimi qiymətləndiriləcək humanizm cərəyanı İntibah dövrünün (Renessans) əsas konsepsiyalarını [119] müəyyən etdi. Əsasən, XIV-XVI yüzilliklərdə davam edən bu cərəyan sonradan yerini klassisizmə verdi. Humanizm qavramı həm də gerçəkliyə yeni yanaşma idi. Humanist sənətkar Migel de Servantesin "Don Kixot"undan [103] başlayaraq bu günə qədər təkcə nəsr sahəsində deyil, digər ədəbi sahələrdə də nəzəri və estetik olaraq bir çox dəyişikliklər baş verdi. Klassisizm, romantizm, realizm, sürrealizm, modernizm, postmodernizm və s. sənət cərəyanlarının gerçəkliyə münasibəti bir tərəfdən də bu qavramın fəlsəfi mahiyyətini möhkəmləndirdi. Müharibələr, epidemiya və pandemiyalar, sosial bərabərsizlik sivilizasiyaların sürətli yerdəyişməsinə səbəb oldu. Bu dəyişmələrin timsalında dünyada baş verən sosial-mənəvi böhranların nəticəsi kimi həqiqət nisbiləşdi. Fəlsəfi termin olan gerçəklik bir çox elm sahəsinin ortaq terminidir. Gerçəklik anlayışı reallığın subyektiv dərki kimi həqiqətin nisbiliyinə əsaslanır. Ədəbiyyatşünaslıqda bu termin reallıq, həqiqət sinonimləri ilə ifadə olunaraq realizm, sürrealizm və s. cərəyanların adlarını və nəzəri bazalarını formalaşdırır. Tədqiqat işinin əsas tərkib hissələrindən biri gerçəklik olduğundan onun ədəbi-nəzəri bazası haqqında qısa izaha ehtiyac var. Gerçəklik anlayışının bədii ədəbiyyatdakı ədəbi-nəzəri inikası realizm cərəyanı hesab olunsa da, klassisizmdən sonra gələn romantizm cərəyanı realizm üçün əsaslı zəmin hazırladı. Antik dövrdə fəlsəfi metod olaraq formalaşan realizm ədəbi termin kimi XIX əsrin 50-ci illərində Fransada təşəkkül tapdı. Həyatı olduğu kimi təqdim etməyi əsas götürən realist məktəbin nümayəndələri bu cərəyanın ilkin nəzəri və metodoloji əsaslarını müəyyən etdilər. Daniel Defo, Stendal, Onore de Balzak, Prosper Merime, Nikolay Qoqol, Çarlz Dikkens, Teodor Storm, İvan Turgenev, Corc Eliot, Fyodor Dostoyevski, Qonkur Qardaşları, Tolstoy, Anton Çexov, Maksim Qorki və s. sənətkarların yaratdıqları realist nümunələr cərəyanın əhatə dairəsini bir az daha böyütdü. ABŞ ədəbiyyatında isə Cozef Kirklənd, Mark

Tven, Henri Ceyms, Hamlin Qarlənd, Ernest Heminquey, Con Steynbek və b. yazıçıların əsərlərində realizm aparıcı idi. XIX əsrin II yarısından etibarən bu cərəyan Azərbaycan ədəbiyyatında da görünməyə başladı. M.F.Axundov, A.A.Bakıxanov, N.Vəzirov kimi yazıçıların yaratdıqları bədii əsərlər nümunəsində formalaşan realizm tədricən maarifçilikdən tənqidi, daha sonra sosializm realizminə keçərək C.Məmmədquluzadə, M.Ə.Sabir, C.Cabbarlı, M.Müşfiq, S.Vurğun, Mir Cəlal, O.Sarıvəlli, R.Rza və başqa ədiblərin ədəbi yaradıcılığına nüfuz etdi. *"Əslində "gerçək"; dolayısı ilə "gerçəkçilik" bütün sənət cərəyanlarının əsas problemidir. Cərəyanların bu problemdə bir-birlərindən ayrıldıqları məqam, ilk olaraq "gerçək"in olub-olmadığı məsələsidir. Ona görə də tarix boyunca tək bir "gerçək" tərifi üzərində anlaşmaya varıla bildiyini söyləmək mümkün deyildir"* [119, s.89].

Nəzərə almaq lazımdır ki, əsasən XX yüzillikdə Azərbaycan ədəbiyyatında iki əsas ideoloji xətt mövcud idi: azərbaycançılıq və türkçülük. Azərbaycançılığın əsas bədii mərkəzi realizm, türkçülüyün isə romantizm idi. Cəlil Məmmədquluzadənin "Anamı kitabı" tragikomediyası realist nümunə olmaqla bərabər, həm də Azərbaycançılıq ideologiyasının salnaməsi dəyərindədir. Azərbaycanı özünə vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyasına söykənən bu ideologiyanı dövlətin ideya əsasına çevirən məhz Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev oldu. Azərbaycançılıq ideyasının kökündə millətçiliyin yox, vətəndaşlıq dəyərinin dayanması dünya praktikasında gözəl örnəklərdəndir. Vətəndaşlıq dəyərinin öndə olması çoxmetodlu Azərbaycan ədəbiyyatının aparıcı istiqamətlərindən biri kimi realist metodun da əhatə dairəsini genişləndirir.

Gerçəklik qavramı üzərindən postmodernizmin inşası postdövrün xaotikliyi, qeyri-müəyyənliyi ilə sıx bağlıdır. Postmodern epoxanın pərakəndəliyi gerçəkliyin nisbiləşməsinin əsas faktorudur. Əsasən, İkinci Dünya müharibəsindən sonra bəşər insanının sosial-mənəvi problemləri XX yüzilliyin II yarısından etibarən modernizmin öz yerini postmodernizmə verməsini zəruri etdi. Ədəbiyyat, memarlıq və incəsənətdə yaranan postmodernizm cərəyanı getdikcə daha da təkmilləşdi, nəzəriyyəyə çevrildi. Postmodernizm modernizmin fərdiliyini ümumiyə çevirdi.

J.Liotarın [139], J.Derridanın [124], M.Fukonun və digərlərinin [105] fəlsəfi konsepsiyası əsasında formalaşan postmodernizm metod olaraq trans-tarixi mahiyyətdədir. Klassisizm dövründə yaranan əsərlərin antik dövrdən qaynaqlanması sonuncu fikrə örnək sayıla bilər.

Kapitalizmin inkişafı, sənayenin, iqtisadiyyatın dinamikası bu formalaşma üçün zəmin hazırladı. Ev iqtisadiyyatından cəmiyyət iqtisadiyyatına keçid öz-özlüyündə postdövrün xəbərçisi idi. İstər Avropa, istərsə də amerikan həyat tərzində baş verən sosial-iqtisadi deformasiyalar getdikcə cəmiyyəti yenidən formalaşdırdı. Bu dövrdə şəhər mədəniyyətinin kənd mədəniyyətini üstələmə başlaması ilə modernizm cərəyanı da keçmişə qarışdı. Dünyanı mətn formasında izah edən postmodernizm ədəbiyyatla cəmiyyətin obyektiv vəhdətidir. Qeyd etmək yerinə düşər ki, postmodernizm nəzəriyyəçisi İxab Xassanın modernizmlə postmodernizmin fərqlərini özündə əks etdirən cədvəldə məqsədin oyuna, iyerarxiyanın anarxiyaya, metafizikanın ironiyaya, dizaynın təsadüfə, janrın mətnə çevrilməsini qeyd edərək modernizmlə postmodernizmin fərqlərini müəyyən etmişdir.

1970-80-ci illər dünyada ədəbiyyat, kino, musiqi və s. incəsənət sahələrinin müstəsna inkişaf dövrü kimi yadda qaldı. 90-cı illərdə də bu inkişaf dünyanın bir çox ölkələrində davam etdi. SSRİ-nin süqut etməsi ilə sosializmin də sütunları ciddi mənada sarsıldı. Nəticədə, kapitalizm öz sahəsini genişləndirdi. Bəzi sosial-mənəvi təlatümlərin təsiri ilə bu dövr, əsasən, ölkəmizdə keçid dövrü kimi qəbul olunur. Qarabağın Ermənistan tərəfindən işğalı, başqa sözlə, düşmənin etnik təmizləmə siyasəti nəticəsində yüz minlərlə insan doğma yurd-yuvalarından didərgin düşdü. 2000-ci illərin əvvəllərindən yüksək texnologiyanın sürətli inkişafı nəticəsində postmodernizm xaosun qayda-qanunlarına uyğunlaşdı. İnsanların sayının sürətlə çoxalması, eləcə də yüksək texnologiyaların fasiləsiz inkişafı özgələşmənin xaosun komponenti kimi önə çıxmasına şərait yaratdı. Buna görə də bu gün postmodernizmin sərhədlərini [127] təyin etmək olduqca çətindir.

XX yüzilliyin II yarısında ABŞ-də ortaya çıxan postmodernizm 1960-cı illərdən başlayaraq ABŞ ədəbiyyatında çoxmədəniyyətlilik və qloballaşmaya qarışaraq yeni formaya düşdü. ABŞ-nin çoxmillətli və çoxdinli ölkə olması, eləcə də

böyük dövlət olaraq dünyanın ictimai-siyasi, ədəbi-mədəni həyatında oynadığı rol onu qloballaşmanın əsas ideya mərkəzlərindən birinə çevirmişdir. Hazırda postmodernizmin cərəyan mövcud olub-olmadığı ilə bağlı yekdil rəy olmasa da, dünya əhalisinin sürətlə çoxalması, texnologiyanın dinamikası postmodernizmin hələ də mövcudiyyətini itirmədiyini göstərir. Süni intellekt nəzəriyyəsinin yayğınlaşdığı hazırkı dövrdə postmodernizmin xaosa qarışaraq yeni bir istiqamətə doğru addımlamaqda olduğunu da unutmamaq lazımdır.

ABŞ ədəbiyyatında Kurt Vonnequtun "Pişik beşiyi" [199], Tomas Pinçonun "Yer çəkiminin göy qurşağı" [182], Con Bartın "Nağıl içində nağıl" [150], Emi Tanın "Mətbəx tanrısı" [191], Toni Morrisonun "Sevgili" [180], Sandra Sisnerosun "Karamel" [157], Filip Rotun "Gözəgörünməz yazıçı" [184], eləcə də Den Braunun "Cəhənnəm" [154] kimi əsərlərində postmodernizm cərəyan mövcuddur. Əsas nəzəri konsepsiyası köhnə mətnlərin yenidən yazılması olan postmodernizmin real və trans-tarixi mahiyyəti Azərbaycanda onun struktur olaraq tam formalaşmadığını göstərir. Buna baxmayaraq, bir sıra müasir Azərbaycan romanlarında postmodernizmin metodoloji komponentlərini görmək mümkündür. Anarın "Ağ qoç, qara qoç" [17], "Göz muncuğu" [16], Kamal Abdullanın "Yarımçıq əlyazma" [5], "Sehrbazlar dərəsi" [3], "Unutmağa kimsə yox" [4], Nərmin Kamalın "Aç mənəm" [75], Qan Turalının "Doqquz hekayə" [85], "Fələk qırmancı" [86], Şərif Ağayarın "Kərpickəsən kişinin dastanı" [12], "Haramı" [11], "Arzulardan sonrakı şəhər" [10], İlqar Fəhminin "Akvarium" [58], Məqsəd Nurun "Şəhər meri" [94], Kəramət Böyükçölün "Çöl" [22], Mirmehdi Ağaoğlunun "Küləyi dişləyən" [9] və s. əsərlər bu baxımdan önəm kəsb edir.

Den Braunun tədqiqata cəlb olunan romanlarında postmodernizmin xüsusi yeri var. Nəzərə almaq lazımdır ki, Den Braunun bədii mətnlərində postmodernizm həm də realist metodla birlikdə verilir. Digər cərəyanların bu və ya başqa formada realizmin təzahür forması olması hipotezi Den Braunun nəsrində öz aktuallığını itirmir. Den Braunun detektiv və intellektual bədii mətnlərində postmodernizm yeni ədəbi, estetik məzmun-forma vəhdəti yaradır. Bunun nəticəsində formalaşan gerçəkliyin postmodern strukturu fərqlilik qazanır. Tədqiqata cəlb olunan "Mələklər

və şeytanlar” [27], “Da Vinçi şifrəsi” [25] və “Cəhənnəm” [24] romanları gerçəklik və onun postmodern strukturu baxımından daha bitkindir. Müəllifin digər romanları – “Rəqəmsal qala” [28], “Yalan nöqtəsi” [29], “İtirilmiş simvol” [26] daha çox fantastik və detektiv janr nümunələri kimi diqqəti cəlb edir. “Başlanğıc” romanında isə [46] gerçəklik və onun postmodern strukturu daha çox informativ səviyyədədir. [23]. Müəllifin sonuncu romanı olan “Heyvanlar simfoniyası” isə [194] uşaqlar üçün nəzərdə tutulan, müəllifin öz bəstələrinin də yer aldığı alleqorik bədii mətn kimi diqqəti cəlb edir.

Tədqiqata cəlb olunan hər üçün romanda postmodern elementlər mövcuddur. “Cəhənnəm” romanı [153] postmodernizmin cərəyan və metod özəlliklərini daşıyır. Məsələn, “Cəhənnəm” romanında dekonstruksiya mətn əsaslı olsa da, “Mələklər və şeytanlar” və “Da Vinçi şifrəsi” romanlarında mövzu əsaslıdır. Eləcə də, sonuncu iki romanda intertekstuallığı mətnlər üzərindən deyil, tarixi hadisələr üzərindən müşahidə etmək olur. Bu yanaşmaları nəzərə alaraq “Mələklər və şeytanlar” və “Da Vinçi şifrəsi” romanlarını postmoderncə yazılmış mətnlər kimi qəbul etmək daha doğrudur. Zəruri qeyd kimi bildirmək yerinə düşər ki, “Cəhənnəm” romanının adı mənbə dildə “İnferno” şəklindədir. Bu adlanma məntiqi baxımdan daha düzgündür. “Cəhənnəm” sözünün ingiliscədə qarşılığı “Hell” şəklindədir. Lakin roman Azərbaycan dilinə “Cəhənnəm” adı ilə tərcümə olunduğundan, dissertasiya mövzusunun adında da “Cəhənnəm” şəklində təsdiqləndiyindən, eləcə də Azərbaycan dilində “İnferno” adlı söz mövcud olmadığı üçün [19] tədqiqat işində romanın adı “Cəhənnəm” şəklində saxlanılmışdır.

Ümumilikdə gerçəklik və onun postmodern strukturu Azərbaycan ədəbiyyatşünaslığı üçün yeni mövzudur. Den Braunun yaradıcılığı əsasında detektiv janrın xüsusiyyətlərindən bəhs edən dissertasiyadan [99], eləcə də Den Braunun mistikasından [88] söhbət açan bir neçə material istisna olmaqla, məlum üç romanın təhlili belə yenidir. Gerçəklik və onun postmodern strukturu probleminin bədii şərhi üçün Den Braunun romanlarına müraciət olunması təsadüf deyil. Belə ki, müəllifin qələmə aldığı detektiv və intellektual mətnlərdə gerçəklik və onun postmodern strukturunun qoyuluşu fərqli və konseptualdır. Den Braunun romanlarında elmi və

dini məlumatlar sosial hadisələrin bazasında həqiqətlə əlaqələndirilir. Tədqiqat işində mövcud mexanizmi müəyyən edərək təhlil etmək üçün elmi, dini və sosial xətlərdən ibarət "Den Braun bədii üçbucağı" adlı ədəbi düsturdan istifadə edilmişdir. Tədqiqata cəlb olunan romanlarda gerçəklik və onun postmodern strukturu probleminin həllində ardıcıllığı təmin etmək məqsədilə bədii mətnlər yazıldığı xronologiyaya uyğun təhlil edilmişdir. "Mələklər və şeytanlar" romanında sosial gerçəklik tədqiqat işində gerçəklik və onun postmodern strukturunu müəyyən edən ilk komponent kimi təqdim olunur. Növbəti mərhələ "Da Vinçi şifrəsi" romanında alternativ gerçəkliyin təyinatı və izahı ilə davam edir. Nəticə olaraq, "Cəhənnəm" romanında postmodern gerçəkliyin incələnməsi ilə problem elmi-nəzəri olaraq tamamlanır. Araşdırmaya cəlb olunan bədii mətnlərin bazasında postmodernizmin oyun estetikası və əyləncəvilik xüsusiyyətləri həqiqətin nisbiliyi ilə birləşərək gerçəklik və onun postmodern strukturu üçün rəngarənglik yaradır.

Tədqiqat işi bir neçə xüsusiyyətinə görə aktual hesab edilə bilər:

– Gerçəklik və onun postmodern strukturu problemi müasir reallıqlar baxımından vacibdir. Belə ki, bu mövzunun işlənməsi xaosun, qeyri-müəyyənliyin kökündəki səbəbləri müəyyən etmək baxımından faydalıdır;

– Den Braun bədii mətnləri dünya, eləcə də ABŞ ədəbiyyatını, mədəniyyətini, tarixini öyrənmək üçün əlavə təcrübədir. Bu təcrübənin nəticəsi gerçəklik anlayışının qlobal təsirlərinin müəyyən olunmasına kömək edir;

– Gerçəklik və onun postmodern strukturunun tərkibində sosial, alternativ və postmodern gerçəklik komponentləri və onların istiqamətlərinin önə çıxması zərurətə çevrilir;

– Gerçəklik və onun postmodern strukturu probleminin Den Braunun tədqiqata cəlb olunan bədii mətnləri əsasında şərhi problemin konseptual həlli üçün yeni təkliflər bazası formalaşdırır;

– "Den Braun bədii üçbucağı"nın elmi-bədii təqdimatı ilə bədii mətn təhlilləri üçün yeni bir ədəbi düstur müəyyən olunur.

*Mövzunun öyrənilməsi dərəcəsinə* gəldikdə isə qeyd olunmalıdır ki, həqiqət anlayışı bu və ya başqa şəkildə fəlsəfədə və ədəbiyyatşünaslıqda geniş şəkildə

işlənmişdir. Məsələn, detektiv janr nümayəndələrinin bir çoxu realist metoda söykənirlər. Utopiya, fantastika və başqa istiqamətlərə müraciət edənlər isə daha çox başqa cərəyanların qoyduğu ideya-bədii dəst-xətti izləyirlər. Bir çox tədqiqatlarda Den Braunun yaradıcılığına bilavasitə detektiv aspektdən yanaşılmış, əsərlərindəki şifrlərin, kodların açılması üzərində işlər görülmüşdür. Sırf gerçəklik və onun postmodernist strukturu mövzusu isə dünya ədəbiyyatşünaslığı, xüsusilə ABŞ və Azərbaycan ədəbiyyatşünaslığı üçün yeni hesab edilə bilər. Mövzunun işlənmə dərəcəsinin konkret təsvirini vermək üçün aparılmış bir sıra tədqiqatlar haqqında məlumata ehtiyac var. Nəzərə alınmalıdır ki, bu nümunələr seçilərkən, təbii olaraq, tədqiqatda qoyulan problemlə yaxınlığı əsas götürülmüşdür. ABŞ ədəbiyyatının tarixi, dövləşməsi haqqında Brayn Keysin yazdığı “Amerikan ədəbiyyatı 101” (“American Lit 101”) məlumat xarakterli əsəri [135] xüsusi önəm kəsb edir. Bu kitabda müəllif ABŞ ədəbiyyatına ümumi nəzər salaraq sadə üslubla bir çox məsələləri izah edir.

Sırf Den Braunun bədii mətnlərinin tədqiqi baxımından da nəzərə çarpan bir sıra tədqiqatlar mövcuddur. Məsələn, Con Helfers “Qadağan olunmuş Den Braun bələdçisi” (“The Unauthorized Dan Brown Companion”) adlı kitabında [168] Den Braunun “Mələklər və şeytanlar” romanı əsasında İllüminatinin, eləcə də “Da Vinçi şifrəsi romanında ortaya qoyduğu mülahizələrin həqiqi olub-olmaması üzərində çalışır. “Cəhənnəm” romanında postmodern gerçəkliyin şərhi baxımından Maykl Haaqın “Cəhənnəm”in kodu açıldı” (“Inferno decoded”) adlı əsərini [165] qeyd etmək olar. Əsərdə Robert Lənqdonun postmodern konseptə çevrilən mübarizəsi, əsərdə istifadə olunan simvolların, işarələrin mənası, eləcə də ümumi mənada dini, fəlsəfi məsələlərə münasibəti işıqlandırılmışdır. Digər bir nümunədə − Saymon Coksun “Mələklər və şeytanlar”ı işıqlandırmaq” (“Illuminating Angels and Demons”) adlı əsərində [156] İllüminatının varlığı, fəaliyyəti Den Braunun “Mələklər və şeytanlar” romanı əsasında müəyyən olunmuşdur. Bundan əlavə, ABŞ ədəbiyyatşünaslığında Den Braunla bağlı məqalə, müsahibə və resenziya xarakterli mənbələrə də rast gəlmək mümkündür [194].

Bundan əlavə, tədqiqat işində Jak Derrida [124], Jan Fransua Liotar [139],

Milan Kundera [136], Andrey Bennet, Nikolay Royle [151], Xristofer Butler [155], David Harvey [167], Tomas Eliot [126], İsmail Çeşitli [119], Semih Gümüş [131], Yaşar Çabuklu [118], Akif Hüseynov [72], Tehran Əlişanoğlu [53], Cavanşir Yusifli [98; 112], Nərmin Kamal [76], Ülvi Babayev [20] və başqa müəlliflərə müraciət olunmuş, dissertasiyanın təhlil aparatı təkmilləşdirilmişdir.

Gerçəklik və onun postmodern strukturu problemi Azərbaycan ədəbiyyatşünaslığında üzvi şəkildə araşdırılmamışdır. Bu mövzuya qədər Den Braunun yaradıcılığında detektiv janrın xüsusiyyətləri barədə tədqiqatçı Fəxriyyə Rəhimovanın dissertasiya işi müdafiə olunmuşdur. O bu dissertasiyada Den Braunu detektiv yazıçı kimi təhlil etmiş, onun yaradıcılığının müxtəlif aspektlərini göstərmişdir. Tədqiqatçı ümumi olaraq detektiv janrın yaranmasını, xüsusiyyətlərini araşdırmış, Den Braunun "Da Vinçi şifrəsi" romanı əsasında sinkretik detektiv romanın xüsusiyyətlərini qeyd etmişdir. Den Braunun yaradıcılığına fərqli rakursdan yanaşan Fəxriyyə Rəhimova onun insanın təxəyyülünə, düşünmə qabiliyyətinə təsirini detektiv janrın məzmunu və tələbləri çərçivəsində araşdırmışdır.

Professor Qorxmaz Quliyevin postmodernizmə dair tədqiqatlarını da [80] vurğulamaq yerinə düşər. Müəllifin "Postmodernizm isə mübarizədən imtinadır, böhranla barışıqdır" fikri öz-özlüyündə postmodernizmin mahiyyəti müəyyən edən konseptual şərh dəyərindədir. Professor Qorxmaz Quliyev "XX əsr Amerikan ədəbiyyatşünaslığında aparıcı cərəyanlar" adlı dərs vəsaitində [90] isə ABŞ ədəbiyyatına ümumi nəzər salmış, ədəbi cərəyanlar, onların təşəkkülü, nümayəndələri haqqında geniş məlumat vermişdir.

Digər bir nümunədə – Salidə Şərifovanın "Çağdaş Azərbaycan postmodern romanı"nda [105] Azərbaycan postmodern romanları haqqında yığcam məlumatlar əks olunmuşdur. Monoqrafiyada gerçəklik və onun postmodern strukturunun tərkib hissələri haqqında məlumatlar mövcuddur. Nərmin Kamalın "Umberto Eko və postmodernizm fəlsəfəsi" [69] əsəri də postmodernizmin strukturu baxımından maraqlıdır. Kitabda postmodernizm fəlsəfəsinə Umberto Ekonun fəlsəfi, bədii yaradıcılığı kontekstində müraciət edilmiş, konseptual qənaətlər əldə olunmuşdur [76]. Tədqiqatçı Dilbər Zeynalovanın tərtib etdiyi "Modernizm, postmodernizm" adlı

terminoloji lüğəti [113] bu sahədəki boşluqları doldurmaq baxımından önəmlidir.

Çağdaş amerikan ədəbiyyatında postmodernizmin ifadəsi baxımından diqqət çəkən başqa bir nümunə isə "Çağdaş Amerika bədii ədəbiyyatında postmodernizmin inikas xüsusiyyətləri (Don Delillo və Pol Oster yaradıcılığı əsasında)" adlı tədqiqat işidir [71]. Tədqiqat işinin müəllifi Gilə Hüseynli dissertasiyada postmodernizmi müasir ABŞ ədəbiyyatının Don Dendillo və Pol Oster kimi yazıçılarının əsərləri əsasında təhlilə cəlb etmişdir. Mövcud problemlə bağlı diqqət çəkən digər bir tədqiqat işi Ülvi Babayevin "Türkiyə və Azərbaycan postmodern nəsrində sosial funksiya probleminin bədii ifadəsi" adlı dissertasiya işidir [20]. Tədqiqatçı dissertasiyada Türkiyə və Azərbaycan postmodern nəsrinin bir çox nümunələrini sosial funksiya anlayışı baxımından təhlilə cəlb etmiş, postmodernizmin strukturu haqqında konseptual ümumiləşdirmələr aparmışdır. Aparılan bu kimi tədqiqatlar ayrı-ayrılıqda realist, postmodern və s. metodlar, eləcə də onların strukturu haqqında əsaslı baza formalaşdırır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın *obyektini* Den Braunun "Mələklər və şeytanlar", "Da Vinçi şifrəsi" və "Cəhənnəm" romanları təşkil edir. Bundan əlavə, qoyulan problemin həllini əsaslandırmaq məqsədilə Dantenin "İlahi komediya" poeması, "Kitabi-Dədə Qorqud" dastanı, eləcə də, müasir Azərbaycan ədəbiyyatından Anarın "Ağ qoç, qara qoç", Kamal Abdullanın "Yarımçıq əlyazma", Şərif Ağayarın "Arzulardan sonrakı şəhər" romanlarından əlavə bədii material kimi istifadə edilmişdir.

Tədqiqatın *predmetini* gerçəklik və onun postmodernist strukturunun bədii-elmi əsasları, bu mövzunun dünya, eləcə də Azərbaycan ədəbiyyatına tətbiqi haqqında təkliflər toplusu müəyyən edir. Eyni zamanda dissertasiyada bu mövzunun bazasında gerçəkliyin ədəbi-fəlsəfi estetikası, eləcə də postmodernizmin dekonstruksiya, intertekstuallıq, pastiş kimi elementləri nəzərə alınmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin qarşısında duran əsas məqsəd Den Braunun bədii mətnlərində gerçəklik və onun postmodern strukturunun müəyyən edilərək təhlilindən ibarətdir. Bu məqsəd aşağıdakı vəzifələrin həyata keçirilməsini nəzərdə tutur:

– Gerçəklik və onun postmodern strukturunun ilk komponenti kimi “Mələklər və şeytanlar” romanında sosial gerçəkliyin bədii şərhinin verilməsini;

– “Da Vinçi şifrəsi” romanı əsasında alternativ gerçəkliyin müəyyən olunmasını;

– “Cəhənnəm” romanında postmodern gerçəkliyin analizi ilə gerçəklik və onun postmodern strukturu probleminin tamamlanmasını;

– “Den Braun bədii üçbucağı”nın (elmi, dini və sosial xətlər) bədii-elmi məziyyətlərinin göstərilməsini;

– Robert Lənqdon surətinin gerçəklik və onun postmodern strukturu kontekstində təhlilini;

– Aparılan ümumiləşdirmələrin əlavə bədii materiallar vasitəsilə təkmilləşdirilməsini.

**Tədqiqat metodları.** Dissertasiya işi tarixi-müqayisəli təhlil metodu və analitik təhlil əsasında yazılmışdır. Belə ki, hər üç bədii mətnin nəzəri-estetik strukturunu təkmilləşdirmək üçün müqayisələr aparılmış, tarixi məlumatlara nəzər yetirilmiş, əldə olunan nəticələr analitik təhlilə cəlb edilmişdir. Dissertasiya işinin yazılması zamanı Azərbaycan, Türkiyə və Qərb alimlərinin tədqiqatlarına istinad edilmiş, onların nəzəri-metodoloji fikir və mülahizələrindən istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Den Braunun tədqiqata cəlb olunan romanlarında gerçəklik və onun postmodern strukturu problemi xaosun, qeyri-müəyyənliyin əsasında aşkara çıxarılır;

– Den Braunun romanlarında gerçəklik və onun postmodern strukturu sosial, alternativ və postmodern gerçəkliyin konseptual həlli üçün geniş imkanlar açır;

– “Mələklər və şeytanlar” romanında sosial gerçəklik və onun postmodern strukturunun ilk komponenti kimi həqiqət uğrunda mübarizənin əsasında müəyyən olunur. Gerçəkliyin bədii strukturu, zaman konsepti, həmçinin Robert Lənqdonun həqiqət axtarışları sosial gerçəkliyin əsas istiqamətləri kimi önə çıxır. Bədii mətndə sosial gerçəkliyin bədii şərhi zamanı əlavə bədii material kimi Anarın “Ağ qoç, qara qoç” romanının mətninə müraciət edilir;

– “Da Vinçi şifrəsi” romanında alternativ gerçəklik, absurdluq, intellektuallıq

və əyləncəvilik, eləcə də Robert Lənqdon timsalında alternativ gerçəkliyin individuallığı əsasında sosial gerçəkliyin davamı kimi verilir. Mövcud problemin təhlili zamanı əlavə bədii material qismində Kamal Abdullanın "Yarımçıq əlyazma" romanından istifadə edilir;

– "Cəhənnəm" romanında postmodern gerçəklik anlayışı gerçəklik və onun postmodern strukturunu müəyyən edən sonuncu komponentdir. Dissertasiyada postmodernizmin əsas tərkib hissələrindən olan pastiş, dekonstruksiya, intertekstuallıq və s. kimi anlayışları azadlıq motivi ilə üzvi şəkildə təhlil edilir. Qoyulan problemin bədii izahını qüvvətləndirmək məqsədilə əlavə bədii mətn kimi Şərif Ağayarın "Arzulardan sonrakı şəhər" romanı seçilir;

– "Den Braun bədii üçbucağı" gerçəklik və onun postmodern strukturunun təhlilində əsas bədii düstür kimi müəyyən edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat nəticəsində aşağıdakı elmi nəticələr hasil olunmuşdur:

– Den Braunun bədii mətnlərində gerçəklik və onun postmodern strukturunun fərqli ədəbi-elmi əsasları müəyyən edilmişdir;

– Den Braunun mövcud problemi sosial, alternativ və postmodern gerçəkliyin birləşməsi şəklində təqdimatı aydınlaşdırılmışdır;

– "Mələklər və şeytanlar" romanının bazasında sosial gerçəkliyin mahiyyəti əsaslandırılmışdır;

– "Da Vinçi şifrəsi" romanında alternativ gerçəklik barədə qənaətlər əldə edilmişdir;

– "Cəhənnəm" romanında postmodern gerçəkliyin elementləri şərh olunmuşdur;

– Tədqiqat zamanı elmi, dini və sosial xətlərdən ibarət "Den Braun bədii üçbucağı" adlı ədəbi düstur müəyyən edilmiş, onun konseptuallığı və ədəbiyyatşünaslıqda tətbiqi haqqında təkliflər verilmişdir;

– Gerçəklik və onun postmodern strukturunun bədii-elmi şərhi nəticəsində əldə olunmuş nəticələrin faydalılığı müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəzəri əhəmiyyəti onun nəticələrindən, əsasən nəsrə aid tədqiqatlarda istifadə ilə müəyyənləşir.

Praktiki əhəmiyyətinə gəlincə, gerçəklik və onun postmodern strukturu problemi ali məktəblərdə tədris olunan fəlsəfə, ədəbiyyat, eləcə də incəsənətə aid fənlərin fənn və tədris proqramlarında əsas və ya əlavə ədəbiyyat kimi istifadə oluna bilər. Eləcə də, adları çəkilən sahələrin mənsubları bu dissertasiyanın elmi nəticələrindən nəzəri və praktiki olaraq yararlana bilərlər.

**Aprobasiyası və tətbiqi.** Müəllifin dissertasiya işində əldə etdiyi əsas nəticə və yeniliklər onun ölkə daxilində və xaricində Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnal və konfranslarda çap etdirdiyi məqalə və konfrans materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Bakı Mühəndislik Universitetinin İngilis dili kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 12 səhifə, 22311 işarə, I fəsil 33 səhifə, 65904 işarə, II fəsil 33 səhifə, 66091 işarə, III fəsil 35 səhifə, 70247 işarə, Nəticə hissəsi 4 səhifə, 6676 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 231229 işarədən ibarətdir.

# I FƏSİL

# "MƏLƏKLƏR VƏ ŞEYTANLAR" ROMANINDA SOSİAL GERÇƏKLİK

## 1.1. "Mələklər və şeytanlar" romanında gerçəkliyin bədii strukturu

Postmodernizm cərəyan və ya metod olaraq inkişafı cəmiyyətin mahiyyəti əsasında müəyyən olunur. Sosial gerçəklik geniş mənada fərqli və estetik komponentləri özündə birləşdirir. Gerçəklik və onun postmodern strukturunun ilk komponenti kimi sosial gerçəkliyin seçilməsi təsadüfi deyil. Ona görə ki, postmodernizm də sosial hadisədir. "Mələklər və şeytanlar" romanı detektiv janr nümunəsi kimi sosial gerçəkliyi özündə əks etdirir. Məlum olduğu kimi detektiv janrda informativlik ön plandadır. Bu gün detektiv əsərlərə marağın böyük olmasının səbəblərindən biri də budur. Romanda rast gəlinən absurd elementləri bədii mətni sinkretik detektiv nümunəsi kimi qəbul etməyə imkan verir. Romanın ədəbi materialı əsasında sosial və postmodern reallıq birləşərək bədii oyuna çevrilir. Həqiqi roman anlayışının [134] meyarlarına düz mütənasib olan romanın fabulasında iki əsas xətt mövcuddur: Kilsə və İllüminati. Bunların hansının gerçək, hansının yalan olması roman boyu qaranlıq qalır. Müəllif detektiv janrın imkanları daxilində bu suala cavab tapmağa çalışır. Romanda sosial gerçəkliyin ilk istiqaməti əsərdə gerçəkliyin bədii strukturunun şərhidir.

Roman boyu Kilsə ilə İllüminati arasında gedən mübarizəyə müəllifin münasibəti sosial gerçəkliyin şərhi üçün açar rolunu oynayır. Bu mənada romanda şüur axını gerçəkliyin bədii şərhində fəal iştirak edir. Bu ənənə müəllifin tədqiqata cəlb olunan hər üç romanında davam etdirilir. Den Braun sosial gerçəkliyin şərhində şüur axınından bədii üsul kimi istifadə etməklə Freydin psixoloanaliz nəzəriyyəsinin elementlərini elm-din mübarizəsinə tətbiq edir. Freydin insan şəxsiyyətinə loyal münasibəti sosial problemlərin həllini şüur və şüurlatı vasitəsilə bütövləşdirir. *"Psixiatriya sahəsindəki çalışmaları ilə, XX yüzillikdəki demək olar ki, bütün düşüncə və sənət hərəkatlərinə dərindən təsir edən Freyd, insanın kimliyini qorxunc bir çılpaqlıqla qarşısına qoyur və ikiüzlülük maskasını endirib öz gerçəyini görməyini*

*təmin edir”* [119, s. 148]. Şüur axını metodu müəllifin tədqiqata cəlb olunan digər iki romanda da tətbiq olunur.

“Mələklər və şeytanlar” romanının təhkiyəsi, eləcə də təhkiyədən ayrılmayan obrazlılıq detektiv janrın imkanları daxilində inkişaf edir. Ona görə də, romanın birxətli təhkiyəsi həqiqət axtarışı prosesinin gedişatını ləngidir. Romana çəkilmiş filmlə [140] müqayisədə bədii mətnin ideya-bədii xətləri daha cansız təsir bağışlayır. Hadisələrin birxətli gedişatı oxucunu yorur. Romanda həqiqət axtarışı müəllifin subyektiv həqiqətinin ümumiliyi kimi diqqət çəkir. Den Braunun hadisələrə neytral münasibəti bilinən subyektivizmin mərkəzində dayanır. “Mələklər və şeytanlar” romanında gerçəkliyin bədii strukturu Çağdaş Azərbaycan ədəbiyyatı detektiv romanlarının nəzəri komponentləri ilə uyğunluq təşkil edir. Xüsusilə Varis [109], Çingiz Abdullayev [6], Elxan Elatlı [50] və başqa bir neçə yazıçının yaradıcılığında reallığın subyektiv dərkinin bədii təqdimatı mövcud oxşarlığa örnək göstərilə bilər. Varisin romanları dil və üslub xüsusiyyətləri baxımından digər detektiv müəlliflərdən fərqlənsə də, onun da sosial hadisələrə münasibəti [109] detektiv hadisəsidir.

Detektiv əsərlərin mərkəzində, adətən faktik bir hadisə dayanır. “Mələklər və şeytanlar” romanında da həqiqət uğrunda mübarizənin Kilsə ilə İllüminati arasında getdiyi məlumdur. Sadəcə Den Braun faktik Kilsə və İllüminati qarşıdurmasını elm-din qarşıdurmasına çevirir. Bundan belə bir nəticə əldə etmək olur ki, *“Kilsə-İllüminati mübarizəsi ümumbəşər mübarizəsi kimi diqqət çəkir”* [Elmi nəticənin nəşri üçün bax: 42]. “Mələklər və şeytanlar” romanında gerçəkliyin bədii strukturu Anarın utopik və antiutopik nağıllardan ibarət “Ağ qoç, qara qoç” romanı ilə müəyyən oxşarlıqlara malikdir. “Ağ qoç, qara qoç” romanının utopik-distopik elementləri, başqa sözlə gerçəkliyin postmodern təqdimidir. Məsələn, “Mələklər və şeytanlar” romanında gerçəklik Kilsə-İllüminati qarşıdurması, onun postmodern strukturu isə bu qarşıdurmanın elm-din mübarizəsinə çevrilməsidir.

Kilsə ilə İllüminatinin mübarizəsi gedişində gerçəklik və absurd anlayışları sinonimə çevrilir. Din, ehkam kimi anlayışlar nisbiləşir. Den Braun Səlib yürüşlərində müsəlmanların həlakını xatırlayaraq dinin məqsəd olmasını tənqid edir, həqiqət axtarışına çıxır. Bu axtarış elm-din mübarizəsi prosesində ədəbi-bədii

hadisəyə çevrilir. *“ – Sizin son saatınız başlayır, – o, səlib yürüşlərinin gedişində həlak olan minlərlə müsəlmanı xatırlayaraq dedi. – Gecə yarısında hamınız öz Tanrınızla görüşəcəksiniz”* [27, s.509].

“Mələklər və şeytanlar” romanında hadisələrin lüzumsuz genişliyi bədii mətnin sadə təhkiyəsinə kölgə salır. Bu mənada romanında gerçəkliyin bədii strukturu ümumi roman prinsipləri baxımından zəif təsir bağışlayır. Lakin detektiv prinsipləri baxımından kütlə ədəbiyyatının nümunəsi kimi romanın təkcə bədii tərəfi zəifdir. Başqa sözlə, bədii mətn detektiv nümunəsi kimi sadəlik, tədqiqatçılıq və informativliyin məcmusudur. Hər iki halda gerçəklik və onun postmodern strukturunun mahiyyətini, məzmununu və formasını dəyişdirmir. Ümumi roman anlayışı problemin təsvirində çoxçalarlılıq yaradır. Detektiv janrın və absurdun elementləri isə bu problemin yığcamlaşmasına, konkretləşməsinə mane olur. Bunu daha aydın başa düşmək üçün XX əsr Azərbaycan ədəbiyyatına nəzər yetirmək olar. Belə ki, həmin dövrdə realizm və romantizm cərəyanlarının mövcudluğu gerçəklik qavramı haqqında əsaslı təsəvvür yaradır. Romantizm cərəyanı utopik, realizm isə daha çox distopik ideyaların daşıyıcısı idi. Mirzə Cəlil, Əbdürrəhim bəy Haqverdiyev kimi sənətkarların prozasının gücünü, təcrübəsini [106] müasir Azərbaycan ədəbiyyatının utopik, postmodern nümunələrində görmək mümkündür.

Den Braunun əlavə məlumatlar verərək oxucunu öyrətmək metodu detektivlə yanaşı, həm də intellektual romanlara xas elementdir. Lakin intellektual romanlardan fərqli olaraq burada oxucu əvvəlcədən mətnə hazırlanmır. Müəllif səbəb-nəticə əlaqəsinin yekununda oxucunun mövcud biliklərinə sadəcə əlavələr edir. Romanda informativlik davamedici xarakter daşıyır. Beləcə “Mələklər və şeytanlar” romanında yazıçının ideyası, məqsədi kilsə və antikilsə, həmçinin ehkam və antiehkam qarşıdurması əsasında sadə həllini tapa bilir. Oxucuda ilk növbədə mətnin orijinal variantına meyillənmək zərurəti yaranır [Elmi nəticənin nəşri üçün bax: 41].

Den Braunun tədqiqatçılığa hesablanan prozası distopik gedişlərlə zəngindir. Məsələn, “Ağ qoç, qara qoç” romanında gerçəkliyin nisbiliyi, təhkiyənin, obrazlılığın gücü utopiya-distopiya mübarizəsinin bazasında formalaşır. Anarın utopik dünyası müasir dövrün reallıqlarına tərs mütənasibdir. Müəllif əsərdə sözügedən utopik və

antiutopik nağılların bir-birinin davamı olmayan fərqli mətnlər olduğunu qeyd edir: *"İkinci nağılda cərəyan edən hadisələr xronoloji zaman etibarilə Birinci nağılın davamı deyil. Bu iki bir-birinə alternativ olan olaylar eyni vaxt kəsiyində təsəvvür edilir"* [17, s. 357]. Anarın təhkiyə aparatının gücü gerçəkliyi bütün çılpaqlığı ilə postmoderncə təqdim etməsinə imkan verir. Lakin Den Braunun bədii oyunları detektiv janrın sərhədləri daxilində dayanır. "Mələklər və şeytanlar" romanında gerçəklik və onun postmodern strukturu detektiv janrın sərhədləri çərçivəsində gerçəkliyin bədii strukturunu aydınlaşdırır. "Ağ qoç, qara qoç" romanında bu şərhin mərkəzində postmodernizm dayanır. Bu baxımdan "Mələklər və şeytanlar"dan fərqli olaraq "Ağ qoç, qara qoç" romanını postmodern bədii mətn kimi təhlil etmək mümkündür. "Mələklər və şeytanlar" romanı bədii və elmi üslubların hibrididir. Bu xüsusiyyət bədii əsərin estetikasını zəiflədərək, onu postmoderncə yazılmış bədii mətn kimi müəyyənləşdirməyə əsas verir. Belə ki, romanda postmodernizmin intertektuallıq, pastiş, dekonstruksiya kimi elementləri romanda mətn əsaslı yox, mövzu əsaslıdır.

Fəlsəfi termin kimi həqiqət ədəbi mətnlərdə fəlsəfənin mürəkkəbliyi ilə ədəbiyyatın obrazlılığı arasında dayanır. Kilsə-İllüminati mübarizəsi romandakı hadisələrdə həqiqətin yerini təsbit etməyi çətinləşdirir. Lakin müəllifin qarşısına qoyduğu ali məqsəd dinamik və operativdir. Kilsə ilə İllüminati haqqındakı məlumatlarda müəllifin cəhdi informativ və qeyri-müəyyəndir. Buna görə də romanın təhkiyə aparatında informativlik psixologizmin önə çıxmasına mane olur. Məsələn, Robert Lənqdonla Vittoriya Vetranın macəralarında müşahidə olunan elementlər "Çovdarlıqda uçurumdan qoruyan" romanının [102] psixologizmi ilə müqayisədə daha çox hiss, həyəcan tərkiblidir. Yeniyetmə Holdenin daxili mübarizəsi, həyata realist münasibəti və məqsədsizliyi Robert Lənqdonun məqsədli mübarizəsi ilə müqayisədə daha orijinaldır. "Ağ qoç, qara qoç" romanında da Anarın məqsədli qəhrəmanları utopiya-antiutopiya mübarizəsi gedişində romantik təsir bağışlayırlar. Bu mübarizə insan psixologiyasının dəyişməsi, hadisələrə sağlam münasibətin nisbiləşməsi zəminində Freydin psixoanaliz nəzəriyyəsinə yaxınlaşır.

Den Braunun gerçəkliyə münasibəti obyektivdir. O öz həqiqətlərini qəbul

etdirməyə çalışmır. Sadəcə olaraq, qeyri-müəyyənlikləri aydınlaşdırmağa cəhd edir. Bu nəticələri qəbul edib-etməməyi oxucunun öhdəsinə buraxır. Den Braunun qəhrəmanları natamamdırlar. Qarşılarında böyük məqsədlərin olmasına baxmayaraq, onlar günün reallıqlarına uduzurlar. Onların bu mübarizəsi "Qoca və dəniz"in qəhrəmanları qoca balıqçı Santyaqo və Manolinin birgə mübarizəsi ilə müqayisədə [64] süni təsir bağışlayır. Realist yazıçı Ernest Heminquey povestin fabulasını həqiqətin nisbiliyi ideyasına uğurla qaynaq edir. Den Braunun qəhrəmanları isə həqiqətin reallıq tərəfindən çıxa bilmirlər. Müəllifin mübarizəsi daha çox sosialdır, burada ali bir məqsəd yoxdur. Başqa sözlə, romanda qəhrəmanların mübarizəsi detektiv janrın sadə təhkiyəsinin daxilində gücünü itirir.

Təhkiyənin elementarlığı məzmun-forma vəhdətini də zəiflədir. Romanın məzmunu geniş mənada həqiqət-yalan mübarizəsi üzərində qurulub. Romanda obrazlılıqla təhkiyənin vəhdəti də zəifdir. İnformativlik müəllifi demokratik olmağa məcbur edir. Den Braunun sehrbazlığı güclü olsa da, o bu sehrbazlıqdan istifadə edə bilmir. Bu gedişat Kilsə-İllüminati mübarizəsində hansı tərəfin həqiqət, hansının yalan olmasındakı qeyri-müəyyənliklə tamamlanır. Den Braunun təhkiyəsi onun alternativ reallıq yaratmaq cəhdini sadəcə görüntü olaraq reallığa yaxınlaşdırır.

Den Braunun seçdiyi konyuktura mövzuları dövrün tələbi kimi daha çox sadə və əlçatan informativliyə olan tələbdən yaranır. Tez və rahat məlumat əldə etmək ehtiyacının artdığı hazırkı dövrdə ortaya çıxan əsərlər "Sənət sənət üçündür" fikrini utopiyaya çevirir. Klassisizm dövründə yaranan "Sənət sənət üçündür" ideyası bu cərəyan nümayəndələrinin özlərini sığortalamaq üçün uydurduqları bir fikir olma ehtimalı da var. Sadə bir nümunə. Hazırda videoçarxların tələbat mexanizmini Yutub platforması müəyyən edir. Belə olduqda, sürətli keyfiyyət-kəmiyyət yerdəyişməsi baş verir. İfrat vizuallıq və süni polifoniklik nəticəsində oxucuların qavrayış mexanizmləri də dəyişir. Den Braun gerçəkliyin süniliyini həqiqətin nisbiliyinə montaj edərək keyfiyyətlə kəmiyyətin vəhdətini yaratmağı cəhd edir. Müəllif təhkiyəsindəki sosiallıq və sadəlik Teodor Drayzerin romanlarını [47; 48; 49] xatırladır. Drayzerin qəhrəmanlarının sosial-mənəvi böhranlarını yazıçının sadə təhkiyəsi izləyir. Den Braunun təhkiyəsi ali səviyyədə olmasa da, qoyduğu problem

ciddidir. Məsələn, Vilyam Folknerin "Avqust işığı" romanında [60] müəllifin Şimal haqqında təsəvvürləri ali təhkiyənin ali məqsəd əsasında formalaşmasından doğur. "Mələklər və şeytanlar" romanında Den Braunun gerçəkliyə münasibəti mifoloji mətnlərin, motivlərin xaricində dəyər qazanır. Bu xüsusiyyət onu bir çox Azərbaycan postmodern yazıçılarından fərqləndirir.

"Mələklər və şeytanlar" romanında absurdun gerçək olma ehtimalı gerçəkliyin bədii təyinatının modern təqdimidir. Bu təqdimat müəllifin ciddi araşdırmaları hesabına araya-ərsəyə gələrək sinkretik detektiv mətn təsəvvürü yaradır. Kilsə-İllüminati mübarizəsi həm də ictimai-siyasi bir hadisədir. Bu mənada "Mələklər və şeytanlar" romanı "Ağ qoç, qara qoç"la oxşarlıq təşkil edir. *"Anarın sayca ikinci və son dövrün məhsullarından olan "Ağ qoç, qara qoç" romanı ictimai-*siyasi mövzuda *qələmə alınmışdır"* [91, s.16].

Romanda məzmun-forma vəhdətinin pozulması gerçəkliklə absurd arasında hərəkətliliyi zəiflədir. Nümunə olaraq, "Ağ qoç, qara qoç" romanında Məlikməmməd nağılının bəzi surət və simvollarından istifadə absurdu gücləndirsə də, həqiqət dəyərini itirmir. Bu estetik rəngarənglikdən Den Braun romanda absurd və gerçəkliyi gizlətməklə istifadə edir. Hadisələri yaxından izlədikcə oxucu gerçəkliyin mahiyyətini daha yaxşı qavrayır. Müəllifin faktik yazılı nitqi absurdu gerçəkliyin daxilindən çıxararaq məhv edir. Bu proses zamanı elmi, dini və sosial xətlərin birləşməsindən ibarət "Den Braun bədii üçbucağı" adlı ədəbi düstur ortaya çıxır. Bu ədəbi düstür müəllifin tədqiqata cəlb olunan digər iki romanında da aktivdir. Belə ki, müəllif elm-din mübarizəsini detektiv planda verməklə fərqli bədii-elmi baxış yaratmış olur. "Mələklər və şeytanlar" romanında "Den Braun bədii üçbucağı"ndan məkan, zaman və ya mühit olaraq yox, üsul kimi istifadə edilir. Misal olaraq, Anarın "Ağ qoç, qara qoç" romanında gerçəklik nağıl vasitəsilə müasirləşdirilərək dekonstruksiya edilir. Başqa sözlə, Anar Məlikməmməd nağılını hekayəyə çevirərək gerçəkliyin postmodern strukturunu yaradır. "Den Braun bədii üçbucağı"nın xətləri "Ağ qoç, qara qoç" romanında tam tətbiq olunmur. Əsərdə elmi, dini və sosial xətlər ideal cəmiyyətin təqdimindən kənardadır. "Mələklər və şeytanlar" romanında sosial xəttin icraçısı Robert Lənqdondur. Dini xətti müəyyən edən məlum olduğu kimi,

Kilsə ilə İllüminatinin mübarizəsidir. Əsərdə elmi xətt müəllifin Kilsə-İllüminati mübarizəsinə faktik yanaşmasıdır. “Ağ qoç, qara qoç” romanında sosial xəttin icra missiyanı Məlik Məmmədli daşıyır. Əsərdə dini xətti təkcə birinci zonada – “Behişti Badi-Kubə”də müşahidə etmək olur. “Ağ qoç, qara qoç” romanının elmi xətti isə sosial gerçəklik daxilində nisbiləşərək yoxa çıxır. “Mələklər və şeytanlar” romanında obrazlılıq və təhkiyənin nizamsızlığı bədii mətndə postmodernizmin elementar mövcudluğu ilə məhdudlaşır. Bütün bunlara baxmayaraq, romanda gerçəkliyin postmodern strukturu üslub və təmsiletmə formaları baxımından birləşir. Mövcud birləşmə həm də postmodernist mətnlərin daxilində modernizm elementlərinin mühafizə edilməsindən xəbər verir. *“Üslub və təmsiletmə formaları üzərində diqqətini cəmləməklə postmodernizm adətən 19-cu əsrin ikinci yarısında və 20-ci əsrin birinci yarısında Avropa və Şimali Amerikada meydana gəlmiş ədəbi və mədəni cərəyanların toplusunun – modernizmin xələfi kimi qavranır. Ədəbiyyat, musiqi, incəsənət, teatr, rəqs, memarlıq və hətta fotoqrafiyada belə modernizmlər var”* [177, s.12].

Dinin özünün də ehkamı var. Den Braun bu ehkamı fərdi üsulla təqdim edərək romanın təhkiyə aparatına montaj edir. Müəllif fakt və mülahizələrini tarixi və fəlsəfə məlumatlarla ümumiləşdirir. Məlum olur ki, İllüminatlar Hegelin fəlsəfəsindən istifadə edərək nəzəriyyə-əks nəzəriyyə düsturuna söykənmişlər. Eynilə Leonardo Vetranın İllüminati işarəsi vasitəsilə damğalanması ilə İllüminati konsepiyasının bir-birinə zidd olması nəzəriyyə-əks nəzəriyyə düsturu kimi diqqət çəkir. *“İllüminati Hegel fəlsəfəsindən istifadə edir. Bir nəzəriyyə qurulur. Sonra ona əks nəzəriyyə tərtib edilir, sonra ikisinin konfliktindən sintez yaranır. Hegel fəlsəfəsi həqiqətən də bu termin ixtira edilməzdən öncə İllüminatinin fəaliyyətini təsvir etmək üçün gözəl termindir”* [190, s.23].

Kilsənin elmə qarşı mübarizəsi romanda İllüminatini Kilsə ilə qarşılaşdıran ən önəmli cəhətlərdən biridir. Den Braun mövcud mübarizəni fanatizmin ağılla mübarizəsi kimi təqdim edir. Müəllif məşhur alim Qalileo Qalileyin başına gələn hadisələri sosial gerçəkliyin realist nümunəsi təqdim edir. *“Günəş sisteminin mərkəzinin Yer deyil, Günəş olduğunu bildirməyə cürət etmiş astronoma necə bir*

*qəmli tale nəsib olduğunu hətta elmdən uzaq adamlar da bilir"* [27, s.50].

Məsələn, "Ağ qoç, qara qoç" romanında utopiya-distopiya mübarizəsi absurdun köməyi ilə həqiqəti tapmaq mübarizəsinə çevrilir. Anar dinə, mifə ümid nöqtəsi kimi yanaşaraq Məlikməmməd nağılındakı işıqlı dünya ilə qaranlıq dünyanı müasir dövrə gətirir, nağıl təfəkkürünü utopiya-distopiya mübarizəsinə çevirir. Məlikin Allaha inamı, ondan güc alması düşdüyü çətinliklər qarşısında müəllifin qəhrəmanına verdiyi ən böyük cəsarətdir. *"Ta uşaqlıqdan Allaha inandığı üçün Məlik ölümdən sonrakı həyata, başqa bir dünyaya da inanırdı. Və düşünürdü ki, bəlkə o dünya bu dünyadan qat-qat gözəldir, rahatdır, xoşdur"* [17, s.354].

Romanda Leonardo Vetranın araşdırmaları müəllifin həqiqəti bərpa cəhdləri üçün açar rolunu oynayır. Bu araşdırmalar tarixi faktların köməyi ilə romanın informativ təhkiyə aparatını təkmilləşdirir. Romanda Vatikan qardaşlığı "Şaytan" adlanır. "Şeytan" anlayışı əksər dinlərdə mövcuddur. Şeytanın missiyası insanları pislik etməyə vadar etməkdir. Qurani-Kərimdə şeytanın insanlardan və cinlərdən ibarət olması [92] fikri mifizm xaricində təşəkkül tapır. Şeytanın bilinən obrazı daha çox mifin məhsuludur. Yunancada "Diabolos", "Beelzebub" (Arı kral), "Belial", "Mephisto" və ya "Lucifer" kimi də adlandırılır. İllüminatlar təşkilat yaradarkən yeni dünya modeli qurmağı hədəfləyirdilər. Onlar öz konsepsiyalarını "Lüsifer doktrinası" adı ilə təqdim edirdilər. Kilsə də bu faktı əsas götürərək İllüminatları şeytanla əlaqədə ittiham edirdi. İllüminatlar isə Lüsiferin "Nur saçan" mənasında olduğuna israr edirdilər. *"Bu İslamın mifologiyasındadır. "Bəd ruh" və yaxud, "düşmən"... Tanrının düşməni deməkdir. Kilsə İslamın ardıcıllarının dilinin çirkin olduğunu hesab etdiyinə görə onları seçmişdi. Ərəbcədə "şeytan" sözündən elə bizim ingilis sözümüz... "satana" da əmələ gəlmişdir*" [27, s.52].

Den Braun elmi nailiyyətlərə istinadən insanları bütləri dağıtmağa dəvət edir. Bu dəvət vasitəsilə bilik amili güclənir. Bilik amili müəllifin təhkiyəsində infomativliyi intellektuallığa yaxınlaşdıran əsas vasitədir. Den Braun dinlə elmi apardığı tədqiqatların yekunu kimi ümumiləşdirir. İnformativliyin güclənməsi və müəllifin ümumiləşdirmələri romanda elmlə dinin birləşməsi ilə nəticələnir. *"Artıq postmodern bilik dünyasının, indi, postmodern bilgi dünyasının, məlumatların qanun*

*şəklində bütün mütəxəssislərə açıq olması etibarilə, tamamilə informativ bir oyunla idarə edilən formada təsəvvür etmək mümkündür: yəni, elmi sirr yoxdur"* [139, s.101].

"Mələklər və şeytanlar" romanı simvol elementləri ilə zəngindir. Antimaddənin axtarışı romanda məkan konspetinin mərkəzi nöqtəsidir. Bu axtarış prosesində romanın təhkiyəsi gah haçalanır, gah birləşir, gah da ümumiyyətlə yarımçıq qalır. Müəllif bu natamamlığı yarımçıq saxladığı hissələri başqa məlumatlarla dolduraraq tamamlayır. Tanrının mövcudiyyəti, onun kainatın yaradılmasındakı rolu deyilənlərə örnək ola bilər. *"O, həm bu, həm də o biri idi. İnsanların öz şüurunda elmi və dini birləşdirə bildiyi bu cür nümunələr tarixdə var. Belələrindən biri Leonardo idi. O, fizikanı "mövcud olan hər şeyin Tanrı qanunu" hesab edirdi. Bildirirdi ki, bizi əhatə edən təbiətin quruluşunun hər yerində Tanrının əli görünür"* [27, s.64]. "Mələklər və şeytanlar" romanında din motivi gerçəkliklə absurdu birləşdirməyə xidmət edir. Əsərdə müəllifin dinlə ehkamı birləşdirmək istəyi güclüdür. Lakin insanların həqiqətdən xəbərsiz olmaları bu cəhdi reallaşdırmaqda ona mane olur. Nümunə olaraq, "Ağ qoç, qara qoç" romanında ağ qoç Türk dünyasının birliyinin qarantı, işıqlı gələcəyin açarı, qara qoç isə üç zonanı simvolizə edən nağıl motivləridir. Başqa sözlə, ağ qoç absurda, qara qoç isə gerçəkliyə işarədir. Hər üç zonada insanların xarici və daxili böhranları gerçəklik-absurd mübarizəsi şəklində əks olunur. Bu mənada Anarın gerçəkliyi nisbətən əlçatmazdır. "Ağ qoç, qara qoç"da ehkamla din ayrıdır, hətta siyasət və qərbçilik meyillər də yoxdur. Məlikin arvadı Aypəri (Maxnur) İmamqulu aralıda olduğu üçün Məlikə həqiqəti deyir. Sonra isə qafilənin (camaatın) pirə getdiyini qeyd edir. Din-ehkam qarşıdurması bu nümunənin timsalında müəllifin subyektivizmini gerçəklikdən absurda çevirmək cəhdi kimi maraqlıdır. *"Evlərdə qaz da yoxdur, odun da, bütün ağacları qırıb qurtarıblar, ayından-oyundan tapıb Yanardağa gedirlər, orada yerdən çıxan odların üstündə xörək bişirirlər"* [17, s.374]. Ağ qoç, qara qoç" romanındakı üç zonada Anar cəmiyyətdaxili nöqsanların həllini milli özünəqayıdışda görür. Məlik Məmmədli milli özünəqayıdışın əsas iştirakçılarından biridir. Anarın intellektual qəhrəmanları özünəqayıdışın carçıları kimi çıxış edirlər. Anarın qəhrəmanlarına intellektual çalarlar

yükləməsi onun təhkiyəsini fərdiləşdirən məqamlardan biridir. *"Məsələn, radio, kino, nəşriyyat, mətbuat, teatr işçisi, ali məktəb müəllimi, həkim və başqa kateqoriyadan olan bu adamlar Anarın əsərlərində aparıcı qəhrəman olur və bir-biri ilə əlaqə və münasibət yaradırlar"* [57, s.299].

"Mələklər və şeytanlar" romanında özünəqayıdış fərdi inkişafın labüdlüyü əsasında müəyyən olunur. Fərdi olmasına baxmayaraq bu özünəqayıdış kifayət qədər mürəkkəbdir. Robert Lənqdonun daxili dünyası əsərdə antimaddənin axtarışı nümunəsində cərəyan edən hadisələrdə həqiqət ehtimalını gücləndirir. Den Braunun bu təqdimatı tarixi materialların romanda tətbiq olunması ilə güclənir. Den Braun absurddan qaçmır, əksinə, onu gerçəkliyə çevirməyə çalışır. Başqa sözlə, Den Braunun prozası detektiv janrın tələbləri daxilində inkişaf etdiyindən o, absurddan qaçmağa məcburdur. Çünki onun *"Kultlar üzrə mütəxəssislər hesab edir ki, zədələrin yetirilməsi kor-təbii terror aktlarına meyilli olan marginal sektalar – ekstremist-fanatiklər və izuverlər üçün səciyyəvidir. İllüminatlara gəlincə isə, onlar həmişə hərəkətlərinin əvvəlcədən düşünülmüş olması və hazırlanması ilə fərqləniblər"* [27, s.72].

Hər bir dinin müqəddəs kitabı həmin dinlərin ehkamı hesab olunur. Den Braun din motivinə tərəfsiz yanaşır. O, tarixi faktların köməyi ilə, din motivini müasirləşdirməyə çalışır. Yazıçının bu təşəbbüsü əsərdə kulminasiya səviyyəsinə qalxa bilir. Den Braun Ziqmund Freydin "Tanrının ehtiyacdan yaranması" konsepsiyasını müdafiə etmir. *"Gəlin mövzuya qarşı tərəfdən baxmağa cəhd edək. İbtidai insanın, kainatın yaradıcısı qəbilənin rəisi, fərdi qoruyucusu olaraq bir Tanrıya necə ehtiyac duyduğunu başa düşmək olur. Bu Tanrı, adətən söyləyəcəyi şeyləri qəbilənin ölən atalarının arxasında yerləşdirir"* [128, s.729].

"Mələklər və şeytanlar" romanında gerçəkliyə münasibət elmi faktların vasitəsilə absurddan uzaqlaşma cəhdi kimi həqiqətin təyinatına hesablanıb. Müəllif tərəfindən dinin və elmin birləşməsi həqiqətin tapılması üçün əsas bədii üsul kimi təklif olunur. Əsərin ideya-məzmun xüsusiyyətləri baxımından verilən bu təkliflərdən biri oxucunu əlavə zəruri məlumatlar əldə etməyə sövq etməsidir. Den Braun Leonardo Vetra vasitəsilə insanları həqiqətin hər yerdə mövcud ola biləcəyinə

inandırmağa çalışır. Leonardo Vetranın gələcək kəşf və nailiyyətləri insanların həqiqət axtarışının mümkün olduğu qədər də təhlükəli olmasını simvolizə edir. Dünyada hansısa bir elmi yenilik böyük bir bütün dağılmasına səbəb olduğu üçün tarixdə bir çox insanlar öz kəşflərinin qurbanı olmuşlar. Romanda elmin teorem və aksiomlarının mövcud hadisələrin mərkəzində təşəkkül tapması cəhdini sosial gerçəkliyin komponenti kimi elm-din birləşməsində görmək zərurətə çevrilir. *"İlahi aktın dəqiq anını müəyyən etməyə elmin hələlik qadir olmadığına baxmayaraq, atam əmin idi ki, elm bunu nə vaxtsa müəyyən edə biləcək"* [27, s.97].

"Mələklər və şeytanlar" romanında dəyişən cəmiyyət, yeni reallıqlar və bu kimi bir çox məsələlər elementar fəlsəfi gedişlər hesab oluna bilər. Müasir dövrün xaotik mənzərəsi dünyanın nizamını pozur, mahiyyətini dəyişdirir. Elmin sürətli inkişafı daha intellektual cəmiyyət yaratmaqla bərabər ciddi problemlərə də yol açır. Şəkil, forma dəyişdikcə mahiyyət də dəyişir. Beləcə, dünya yeni çətinliklərin həllinə sürüklənir. *"İstər bizdə, istərsə də bütün dünyada dəyişən yalnız şəkil deyil, eyni zamanda mahiyyətdir; və rənglər ilə səslər üzərində işləmək başqadır, dərdini sözlər vasitəsilə dilə gətirmək başqadır. Notlar, rənglər, şəkillər ayrıca qeyd deyildir, bizi öz ətrafındakı heç bir şeyə götürməzlər"* [139, 14].

"Mələklər və şeytanlar" romanında hadisələrin reallıq tərəfi bədii mətnin daxilində informativ və kommunikativ çərçivədən kənara çıxa bilmir. Romanda məzmun-forma vəhdəti tez-tez qırılır. Bu da müəyyən qədər əsərin ideya-bədii mexanizmini zəiflədir. Məlum qırılma bədii mətnin bədii dilini də xeyli zəiflədir. Lakin romanda məzmun-forma qırılmalarına rəğmən, müəllifin ideyalarında ifrat yerdəyişmələr və zəif əlaqələnmə yox dərəcəsindədir. Den Braunun həqiqət axtarışı xaotik dövrün reallığıdır. Bu reallıq həqiqət axtarışını sürətləndirən bir tələb olsa da, müəllif bu ehtiyacı tamamlaya bilmir.

"Mələklər və şeytanlar" romanında gerçəkliyin bədii struktur baxımından analizi ümumilikdə gerçəklik konsepti haqqında ilkin təsəvvür yaradaraq gerçəklik və onun postmodern strukturunun növbəti komponentlərinin qoyuluşu baxımından baza rolunu oynayır.

## 1.2. “Mələklər və şeytanlar” romanında zaman konsepti

Zaman məfhumu fəlsəfə ilə yanaşı bədii və elmi ədəbiyyatda da işlənir. Həqiqətin nisbiləşməsi prosesi hazırkı dövrdə hadisələrin sürətlə inkişafı nəticəsində baş verir. İnformasiya transferinin sürətli inkişafı operativlik, çeviklik tələb edən iş mühitləri zamanı sürətləndirən faktorlardandır. Qısa vaxt ərzində böyük işlər görməyin mümkünsüzlüyü zamanın nisbiləşməsi ilə məcburi həllə çevrilir. Yüksək texnoloji inkişaf səbəbi ilə yanaşı kapitalizmin ifrat inkişafı da zamanın məzmununu dəyişmişdir. Günün reallıqlarına uyğun olaraq formasını dəyişən zaman məfhumu gerçəklik və onun postmodern strukturunun daxilində xüsusi önəm kəsb edir. Müasir dövrün xaosunun, qeyri-müəyyənliyinin əsas səbəblərindən biri kimi zamanın transformasiyası ciddi sosial-mənəvi çətinliklər yaradır. “Mələklər və şeytanlar” romanında zaman konseptinin aydınlaşdırılması sosial gerçəkliyin növbəti mərhələsi kimi önə çıxır. Den Braunun zaman məfhumuna fərqli və faktik yanaşma tərzi onu ayrıca paraqraf kimi təhlil etməyə imkan verir. Romanda həqiqət axtarışı zamansızlığın ümidsizliklə və ya ümidin yeniliklə qovuşmasıdır. Postmodernizmin daxilində zamanın konseptinin qeyri-sabit vəziyyəti cərəyanın texnologiya ilə eyni vaxtda formalaşmasına söykənir. Beləcə, zaman məfhumu həm postmodernizmin, həm də xaosun məzmununa təsir edir. Zamanın nisbiliyini həyatın demək olar ki, hər bir sahəsində müşahidə etmək mümkündür. Necə ki, postmodernizm inkişaf etdikcə onun daxilində intertekstuallıq, dekonstruksiya kimi elementlər yarandı, müxtəlif sənət sahələrinə nüfuz etdi [115].

Romanda zaman konsepti mövcud tarixin deformasiyası, başqa sözlə, alternativ gerçəklik yaradılması cəhdidir. Bu cəhd elm-din mübarizəsinin mərkəzində sosial gerçəklik hadisəsi kimi təşəkkül tapır. Hər hansı əsərdə tarixi məlumatların gerçək, yoxsa absurd olmasının müəyyən edilməsi tarixi romanlara xas elementdir. Roman janrının digər növlərində isə müəllifin tarixi hadisələri bədii oyuna çevirməsi daha sərbəstdir. Bu baxımdan zaman qavramı tarixilik problemi ilə bilavasitə əlaqədardır. Azərbaycanda müstəqillik dövründə yazılan romanlarda bu problemin mövcudluğu versiya kimi qarşıya çıxır. *“Müstəqillik dövrü Azərbaycan romanlarında müasirliklə yanaşı, diqqəti çəkən mühüm məsələlərdən biri tarixilik problemidir. Araşdırmaya*

*cəlb olunan bu dövrdə əsərlərin bir qismi tarixi mövzuda qələmə alındığı üçün yazıçıların yaradıcılığının bu aspektinə toxunulmasına ciddi ehtiyac duyulur"* [51, s.137].

"Mələklər və şeytanlar" romanında zaman konsepti sosial gerçəkliyin növbəti istiqaməti kimi gerçəklik və onun postmodern strukturunu inşa edir. Zamanın həqiqəti nisbiləşdirməsi bu konstruksiyanın mərkəzində dayanır. "Den Braun bədii üçbucağı"nın tətbiqi ilə zaman konsepti mərkəzçilik aurası yaradır. Romanda zaman konsepti Robert Lənqdonun şəxsində kulminasiyaya çatır. Buna baxmayaraq Robert Lənqdonun romanda zamandaxili iştirakı pərakəndədir. Den Braun bu pərakəndəliyi hadisələrin dinamizmi ilə proseslərin dəyişkənliyinin vəhdətinə çevirir. Başqa sözlə, "Mələklər və şeytanlar" romanında mövcud pərakəndəlik romanın ədəbi təyinatı ilə bağlıdır. Məsələn, Corc Oruellin "Heyvanıstan" romanında pərakəndəlik daha çox saxtakarlıqların aydınlaşdırılmasına xidmət edir. *"Corc Oruell Den Braundan fərqli olaraq tarixi faktların saxtalaşdırılması məsələsini qabardır. Corc Oruellin "Heyvanıstan"ında müsbət nə varsa məhv edilməyə məhkumdur"* [31, s. 187]. "Mələklər və şeytanlar" romanında zamanın pərakəndəliyi utopik dünyanın nizamsızlığıdır. Bilinən nizamsızlıq romanda absurdu zamanın mərkəzində formalaşdırır. Romanda zaman probleminin qoyuluşu müasir dövrün pərakəndəliyi ilə tərs mütənasibdir. Müəllif bədii dil oyunları vasitəsilə hadisələrin dinamizmini balanslaşdırmağa çalışır. Den Braunun keçmişi dəyişdirmək cəhdi ilə Kilsə-İllüminati mübarizəsindəki reallıqlar (və ya absurd) zamanın iştirakı ilə tamamlanır. Den Braun mövcud həqiqətlərin keçmiş materiallarından imtina etməklə müasirliyin keçmişdən törədiyini unutdurur. *"Modernizmin keçmişdən imtina konsepsiyası postmodernizmə yad olsa da, mətnlərin yenidən yazılması müəyyən qədər də keçmişin formasının dəyişməsi deməkdir. Müasir həyat əslində fanilik, ötərilik, hissəlilik və təsadüfilik hissi ilə əhatəlidirsə, bu halda bir çox təsirli nəticələr ard-arda gəlir. Əvvəla, müasirliyin hətta öz keçmişinə belə hörməti ola bilməz, nəinki hər hansı pre-modern sosial nizama"* [167, s.11].

Yazıçının romanda keçmişi zamansızlaşdırması onun tarixi həqiqətləri tozlu əlyazmalardan nəfis kitablara çevirmək cəhdinin modern üsuludur. Müəllifin bədii

oyun texnologiyası romanın məzmun xəttini dəyişdirir. Bununla yazıçı zamansızlığa diqqət çəkərək həqiqətin nisbiliyi konsepsiyasına obyektiv qiymət verməyə çalışır. Əsərdə zaman müəllifin utopik dünyasından kənarda gücünü itirmir. “Mələklər və şeytanlar” romanında zamansızlıq günün reallıqları ilə düz mütənasibdir. Romanda istifadə olunan simvollar və faktlar mətndə zaman konseptini müəyyən etmək üçün zəngin material verir. Den Braun absurd zaman anlayışından istifadə etməklə dini mövcud məkanların mərkəzinə gətirir. Belə ki, müəllifin həqiqət axtarışı cəhdləri zaman olaraq konkretdir. O, elm-din mübarizəsində zamanı simvollar vasitəsilə bədii oyuna çevirir. Məsələn, Xristianlıqda İsanın müqəddəs şəxs hesab olunması, onun dinin bəzi kəsimləri tərəfindən Tanrıdan törəyən bir varlıq kimi qəbul edilməsinin modern təqdimatı intellektual hadisə kimi maraqlıdır. Bu proseslərdə “Den Braun bədii üçbucağı”nın dini xətti din və elmin sərhədində dayanır. Müəllifin gerçəkliyə postmoderncə baxışı oxucunu daha çox şübhəyə salır. Onun bu münasibəti qarışıq olduğu qədər də, sadə və fərqlidir. Müəllif özündən əvvəlki nəzəri konsepsiyaları mənimsəsə də, onları öz bədii mətnlərində tətbiq etməyə çalışmır. Postmodernizmin təhkiyəni metatəhkiyəyə çevirməsi Den Braunun bədii mətnində elementar səviyyədədir. Den Braunun təhkiyəsi daha çox fərdidir. O, Şimali Amerika metatəhkiyəsindən, Latın amerikan magik realizmindən, fransız yeni romanından [179] kənarda özü üçün yeni tərz yaradır.

Örnək olaraq, “Ağ qoç, qara qoç” romanında elm-din mübarizəsi utopiya-distopiya formasında hadisələrin dinamizminə xidmət edir. Nəticədə, zaman konsepti öz nisbi mahiyyətini sürətləndirməklə cəmiyyətin nizamını müəyyən edir. Həmin cəmiyyətin məkanı günü-gündən çiçəklənən, güclü iqtisadiyyata malik Azərbaycandır. Bu cəmiyyətdə Türk dünyası arasında əlaqələr yüksək səviyyədədir. Milli ənənələr idarəçiliyin və sosial həyatın hakim hüquqi obyektidir. Anarın din motivindən istifadəsi ümumi reallıqların subyektiv dərki kimi qavranıla bilər. Müəllifin sosial gerçəkliyə loyal münasibəti romanda zamanın strukturuna öz töhfəsini verir.

Zaman konsepti bədii mətnin məzmun və forması üçün ciddi element hesab olunur. “Mələklər və şeytanlar” romanına məxsus təhkiyə aparatı, məzmun və forma,

həmçinin də mətndaxili intizam zaman konseptinin iştirakı ilə bütövləşir. Nəzərə alınmalıdır ki, romanda zaman həm hadisələrin genişliyi, həm də onların məhdud müstəvidə təqdimatıdır. Sözügedən bədii mətndə ədəbi şərhin daralması müşahidə olunur. Ona görə də "Mələklər və şeytanlar" romanı zamanı daha çox sübut edilmiş ehkam şəklində izah edir. *"Mətnin şərh olunduğu mətn kontekstini sonsuz genişləndirmək olar, bu sonsuzluğun ölçüsü mətn mədəniyyətinin sərhədsizliyi ilə üst-üstə düşər. Eyni zamanda, ədəbi şərhin ümumi kontekstini sonsuz olaraq daraltmaq da olar. Bu halda mətn teoremə və sübutsuz ehkama çevrilir* [55, s.28].

Den Braun Kilsə və İllüminatini tənqid edərkən bitərəfliyini qoruyur. Bununla da o, ümumi həqiqətin ortaya çıxarılmasına çalışır. Bu yanaşma mövcud dövrə münasibətdə loyaldır. "Mələklər və şeytanlar" romanında zaman konseptinin ətrafında Den Braunun davamedici tərəfsizliyi müəllifin hadisələri qiymətləndirmək cəhdləri ilə ümumiləşir. Belə ki, Den Braunun elm və dinin məntiqli komponentlərini ehkama çevirmək cəhdləri konseptualdır. Bunun da başlıca səbəbi yazıçının hadisələrə günün reallıqları aspektində nəzər yetirməsidir. Misal olaraq, "Ağ qoç, qara qoç" romanında kökə, ilkə mənəvi qayıdış bütün fərqli idarəçilik modellərindən üstün tutulur. Qeyd olunan yanaşma postmodernizmin keçmişə olan hörməti kimi onu modernizmdən fərqləndirir. Müəllifin üç zonanı tənqid edərək həqiqət axtarışına çıxması zaman daxilində milliliyə keçid edir. *"Romanda təsvir olunur ki, birinci zonada hər şey dinə uyğunlaşdırılmış, adlar dəyişdirilmiş, amma buna baxmayaraq yenə də rüşvət mövcuddur, qadınlar sərhədlərindən çıxan kimi hicablarını çıxarırlar. İkinci zonada hər şey kommunizmə uyğunlaşdırılmış, üçüncü zona isə tamamilə müasirləşdirilmişdir"* [52, s.160]. "Ağ qoç, qara qoç" romanında absurd həqiqəti üstələyir. Lakin bu absurd həqiqəti məğlub edəcək səviyyədə deyil. Onun gücü nisbiliyindədir. Anarın informativliyi isə təkcə məlumatvericiliklə məhdudlaşmır. Bu informativlik həm də məsləhət, tövsiyə xarakterlidir. Anarın metatəhkiyəsi bədii oyun şəklində oxucunu təəccübləndirməyə hesablanıb. Qısacası, romanda hadisələr informativliyin bir pillə üzərində inkişaf edir. *"Ağ qoç, qara qoç"un müəllifi uzaq, qorxulu səfərə yollanan gəncin yolu üstündə gözlənilmədən peyda olub öz ağıllı məsləhətlərilə ona kömək təklif edən xeyirxah müdriki xatırladır"* [30, s.13]. Anarın

"Ağ qoç, qara qoç" utopik və antiutopik nağıllarının milli və dünya müstəvisində təhlili [43] bədii mətnin çoxçalarlı ədəbi-elmi komponentlərinin mövcudluğuna əsaslanır. Başqa sözlə, "Ağ qoç, qara qoç" postmodern romanı biliyi məlumatdan ayırır.

Den Braunun informativliyi təəccüb və şübhə xarakteri daşıyır. İnsanların çıxış yolunu tapmaqda azad davranmaları informativliyin bazasında sadə və əlçatandır. Ümumiyyətlə postmodernizmin daxilində mətn pərakəndə olsa da, məlumat tamdır. Haqqında danışılan tamlıq hadisələrin gerçəklik və ya absurd olmasından asılı olmayaraq dəyişir, yenilənir. "Mələklər və şeytanlar" romanında sosial gerçəkliyin zaman tərəfi həqiqət uğrunda mübarizəyə düz mütənasibdir.

Postmodernizmin strukturunda janr-mətn keçidi baş verdiyindən ideyada da fərqlilik yaradır. Postmodern romanlar vahid nəsr qaydalarından kənarda inkişaf edə bilir. Bu pərakəndəlik qarışıq olduğu qədər də estetikdir. Bu mənada biliyin hissi məlumata çevrilməsi ənənəsi başadüşüləndir. Postmodernizmin pərakəndə səciyyə daşıması onun struktural olaraq zəifliyi demək deyil. Zaman da məhz bu pərakəndəliyin daxilində nisbiləşir. Eynilə, "Mələklər və şeytanlar" romanında zamanın nisbiləşməsi gerçəkliyin pərakəndəliyindən qaynaqlanır. Nəticədə, məlumatların alt çoxluğu formalaşır. *"Ümumi mənada bilik, hətta hissi məlumata çevrilib azalmır. Bu ikinci növ məlumat, bütün digər ifadələr xaricində obyektləri şəkilləndirən və doğru ya da yanlış olduqları mümkün olan ifadələrin məcmusudur. Buna görə də bu məlumatın bir alt çoxluğu olacaq"* [139, s.41].

Cari dövrə uyğun apardığı mübarizə Den Braunu fərqləndirir. O, hadisələrə icra mexanizmi tətbiq edib zaman konseptini möhkəmləndirməklə müşahidəçidən icraçıya çevrilir. Bu yanaşma müəllifin mövcud dövrə subyektiv və konseptual münasibətdir. Zaman, həqiqət kimi qavramlar nisbiləşdikcə dünya da dəyişir. Dəyişməyə səbəb olan əsas maddi faktorlar iqtisadiyyat, sənaye və texnologiyadır. Qlobal təmayüllərin cəmiyyətlərarası fundamentləri zədələməsi böyük sürətlə davam edir. Modernizmdən sonrakı postdövrdə biliyin, informasiyanın da mahiyyəti dəyişdi, innovativ, interaktiv üsullar yarandı. Nəticədə, elm bu yeniliklərə uyğunlaşdı. Bununla da, həqiqətin və zamanın nisbiləşməsi yeni cəmiyyət modeli kimi

postdövrün tələbinə çevrilməkdədir. *"Cəmiyyətin postsənaye vəziyyətə keçidi ilə biliyin statusu dəyişir* [69, s.73].

"Mələklər və şeytanlar" romanında zaman konsepti həm də intertekstuallığın mövzu əsaslı olması ilə izah olunur. Bu intertekstuallıq tarix-alternativ tarix keçidində hadisə şəklində müşahidə olunur [Elmi nəticənin nəşri üçün bax: 173]. Bədii mətndə Kilsə və İllüminati haqqında yazılanlar dövrlərarası və mövzulararası əlaqəyə girərək bir-birinin içində qarışır. Bu səbəbdən romanda Kilsə və İllüminati haqqında yazılanları zaman olaraq bir-birindən ayırmaq çətindir. "Mələklər və şeytanlar" romanında hadisələr mövzulararası əlaqəyə girərək postmodernizm səviyyəsinə qalxa bilmir. Nümunə olaraq, "Ağ qoç, qara qoç" romanında hadisələr intertekstual əlaqədədir. Anarın sosial gerçəkliyinin məkan və zaman tərəfləri oxşardır. "Məlikməmməd" nağılındakı ağ və qara rənglərin simvolikası müasir dövrün mənzərəsinə əsasən uğurlu işlənib. Həm birinci, həm də ikinci nağılda hadisələrin zaman olaraq eyniliyi Məlikməmməd nağılının alleqorik və utopik təhkiyəsi ilə birləşir. "Ağ qoç, qara qoç"un hər iki nağılını ayrı-ayrılıqda iki povest kimi qəbul etmək olar. Təsadüfi deyil ki, Anarın utopik və distopik mövzuları birləşdirməsi nəticəsində mövcud roman meydana çıxır. *"Simvolik başlıqla adlandırılan əsər əslində iki povestin birləşməsindən yaranan, arxetipik struktur üzərində qurulan romandır. Yazıçının ikinci nağılın əvvəlində verdiyi qeyddən məlum olur ki, utopik və antiutpoik cəmiyyətlərdəki hadisələr eyni anda baş verir"* [97].

"Mələklər və şeytanlar" romanında hadisələr davamedici zamandadır. Bədii mətnin informativ səciyyə daşıması obrazlılığı zəiflədir. Bu yanaşma yazıçının oxucu auditoriyasını genişləndirmək cəhdi kimi onları məlumatla təmin etməsinə hesablanıb. *"Yazar qələmi ilə cəmiyyətin çıxarlarına xidmət etməyi seçmiş olsa belə, istehsal etməz, istehlak edər. Əsərləri qarşılıqsız, yəni hörmətə dəyməz olaraq qalır, onların bazardakı dəyəri təsadüfdür. Bəzi dövrlərdə müəllifə müraciət olunur, bəzi dövrlərdə isə kitablarının satışından müəyyən faiz alır"* [146, s.90].

Mətnin aid olduğu ədəbi cərəyan və ya metodun xüsusiyyətləri ilə bağlı olaraq postmodern romanlarda zaman konsepti süjet xəttindən kənarda da inkişaf edə bilir. İkinci halda romanın növü və janrı önə çıxır. Bu baxımdan "Mələklər və şeytanlar"

struktur olaraq mürəkkəb, ideya-bədii yöndən sadədir. Postmodernizmin strukturu da özü qədər mürəkkəbdir. Bu mürəkkəblik yazıçı reallığı və ya absurduna birləşərək nisbiləşir. Nəticədə, harmoniya pozulur, romanın ideyasındakı tamlıq itir. *"Postmodernizm dünyanı izah edərkən tam ideyasından, iyerarxik strukturdan, mərkəzçilikdən və harmonik düzümdən imtina edir"* [186, s.52].

"Mələklər və şeytanlar" romanının strukturu gerçəkliklə absurdun birləşərək janrdan mətnə keçidi ilə bütövləşir. Bədii mətndə zaman konseptinin rəngarəngliyi elmi məlumatlarla sosial çatışmazlıqların birləşməsidir. Digər deyimlə, əsərdə məntiqilik və elmilik güclüdür. Bu, həm də elmin müasir nizamın xaotik mənzərəsi şəklində təqdim olunması, başqa ünsürlərdən asılılığı kimi yozula bilər. *"Elmi məlumatın bugünkü statusu incələnərsə, bir sıra xarici güclərə hər zamankından daha asılı görünməsinə, hətta onların aralarındakı çəkişmələrin məlum mövzulardan biri halına gəlmək riskinə düşməsinə qarşı, ikiqat qanuniləşdirmə probleminin zəifləməsinə baxmayaraq daha şiddətli bir sürətlə ortaya çıxarmaqdan geri qalmadığını görmək mümkünləşir"* [139, s.22].

Müəllif "Den Braun bədii üçbucağı"nı tətbiq etməklə zaman konseptinin əhatə dairəsini genişləndirir. "Mələklər və şeytanlar" romanında "Den Braun bədii üçbucağı"nın tətbiqi nümunəsində elm və din anlayışlarını həm mübarizə, həm də bir-birindən ayrılmayan qavramlar kimi [164] qəbul etmək mümkündür. Müəllifin Kilsə-İllüminati mübarizəsində gəldiyi qənaətlər analitik səviyyədədir. Kilsə ilə İllüminatinin gerçəkliklə absurdu birləşdirən mübarizəsi müasir cəmiyyətin sosial-mənəvi nizamına təsirsiz ötüşməyib. Məsələn, "Ağ qoç, qara qoç" romanında Məlik "Behişti Badi-Kubə"də olarkən ətrafdakı dini adlar, küçələr onu təəccübləndirir. "Behişti Badi-Kubə"də İmamqulunun timsalında fikir, düşüncə fərqliliyi daha qabarıqdır. *"Məlik haçansa klassik ədəbiyyatdan bildiyi, amma az qala unutduğu fars-ərəb sözlərini İmamqulunun dilindən ölçüsüz-biçisiz eşitdikcə: - fağır dilimiz – deyə düşünürdü – gör nə günə qalıb ki, bu Azərbaycan balası iki cümləni təmiz ana dilində deyə bilmir"* [17, s.369]. Yazıçı Məlikin timsalında hər üç zonaya səyahət edir. Məlikin hər üç zonada ailəsi ilə görüşü müəllifin dövrlərarası fərqləri göstərməsi vasitəsilə kulminasiyaya çatır. "Behişti Badi-Kubə"də Məlikin yoldaşı Aypəri

Mahrux adı ilə, "Bakı kommunası"nda oğlu Beyrək Boris adı ilə, "Baku siti"də isə qızı Burla Bura kimi iştirak edir.

"Mələklər və şeytanlar" romanında zaman konseptinin məkan nöqtələrini təşkil edən təsisatların heç biri Den Braunun ayrı-ayrılıqda hədəfində deyil. O, İllüminatinin fəaliyyətindəki elmi faktları məqsədə çevirərək bu yanaşmasını Kilsənin savadlı nümayəndələrinin olması faktı ilə birləşdirir. Bu faktoloji birləşmə yazıçının həqiqət axtarışının obyektivliyidir. Den Braunun tərəfsizliyi zaman konseptinin mərkəzində həqiqətlərin reallaşma ehtimalını çoxaldır. *"- Bununla razılaşa bilmərəm, - qız etiraz etdi. – On yeddinci əsrin əvvəllərində dünyada ən savadlı adamlar kilsə xadimləri idi. Əgər həmin işarələr ictimai yerlərdə yerləşdirilmişdisə, Vatikanda onların mənasını aça biləcək adamlar mütləq olmalı idi"* [27, s.271]. Ümumiyyətlə, müəllifin dini ehkamdan ayırmaq cəhdlərinə fərqli prizmadan yanaşmaq lazımdır.

Kilsə və İllümaniti haqqında ədəbi və tarixi əsərlərdə kifayət qədər məlumat var. Den Braun bu bilgilərə yenidən müraciət edərək məlumat transferini intellektual səviyyəyə qaldırmağa çalışır. Müəllifin bu cəhdi informativlikdən o tərəfə keçmir. Başqa sözlə, konseptə çevrilə bilmir. Den Braunun sosial gerçəklik daxilində yaratdığı mübarizə onun fərqli məkan və zamanlarda etdiyi vizual səyahətlərin məcmusudur. Misal olaraq, "Ağ qoç, qara qoç" romanında konkret bir vizual obyekt var – Bakı şəhəri. *"Postmodern romanlarda əşya obrazları bədii məkanın yaradılmasında geniş istifadə edilir. Postmodern romanlarda geniş yayılmış əşya obrazlarından şəhər obrazını xüsusi qeyd etmək olardı. Məsələn, Anarın "Ağ qoç, qara qoç" romanında Bakı şəhəri bədii obraz kimi təsvir olunur"* [97, s.75].

"Mələklər və şeytanlar" romanında simvollar və faktlar romanda zaman konseptini analiz etmək üçün zəngin material verir. Dörd ünsür (torpaq, od, hava və su), memarlıq nümunələri, təşkilatların istifadə etdikləri simvollar və s. haqqında məlumatlar sosial gerçəkliyin tərkibində zaman konseptini müəyyən edən faktorlardır. Romanda elmi kəşflərə qədərki dövrdə bu simvolların həqiqəti əvəz edən faktlar olması diqqəti cəlb edir. Metafizik və mifik təmayüllərin elmin inkişaf etməyə başlaması ilə, elmi-texniki tərəqqi nəticəsində həqiqətdən psevdohəqiqətə çevrilməsi

zaman konseptinin vizual yönlərini dəyişdirmişdir. *“Axı on yeddinci əsrin əvvəllərində belə deyildi. Kimyagərlər hesab edirdi ki, bütün kainat dörd elementdən və yaxud, “ünsürdən” ibarətdir. Bunlar torpaq, od, hava və sudur”* [27, s.272].

Den Braun absurd zaman anlayışından istifadə etməklə dini dəyərləri mövcud məkanların mərkəzinə gətirir. Tanrının optimizmi, dünyanı müəyyən bir plana uyğun yaratması [117] romanda sadə və təsviri səviyyədədir. Əksər dinlərin xurafatdan arınmış hissələrində mövcud olan Tanrı optimizmi məfhumu onun insanların hərəkətinə olan münasibəti ilə ölçülür. Bu mövzuda Den Braunun obyektivliyi birtərəfli deyil. Bilindiyi üzrə, Xristianlıqda İsa müqəddəs hesab olunur, Tanrıdan törəmiş varlıq kimi qəbul olunur. Onun möcüzələri haqqında dini mətnlərdə kifayət qədər məlumat mövcuddur. Mələklər və şeytanlar” romanında bu məlumatlar din və elm müqayisəsinin sərhədində qalaraq zaman konseptinin əhatəsini genişləndirir. *“Tanrı öz oğluna daim göz qoyur və onu müdafiə edir”* [27, s.250].

Əslində, Tanrı İsanın timsalında bütün bəşəri nəzərində saxlayır. Den Braunun yanaşması zamanın konsepti daxilində bütləri dağıtmağa hesablanmışdır. İstənilən bir şəxsiyyəti müqəddəsləşdirmək onu daha da əlçatmaz etmək deməkdir. Xristian dini təriqətləri arasında bu fikrə fərqli münasibət Den Braunu çaşdırmır. Bir çox xristianlar İsa ilə İncili, müsəlmanlar isə Məhəmmədlə Quranı ilahiləşdirməsi nəticəsində onların əsl mahiyyətinə kölgə salırlar. Belə olduqda, insanların öz yaşayışlarında məna axtarması prosesi ləngiyir. Tanrı axtarışını insanın özünü tapması kimi yozan Den Braunun obrazları öz yaşayışlarında yüksək məna axtarırlar. Məsələn, “Ağ qoç, qara qoç” romanın da oxşar konspetual fikir mövcuddur. *“Anarın qəhrəmanları öz yaşayışlarında yüksək məna axtarır və bu məna səviyyəsindən də öz həyatlarından narazılıqlarını bildirirlər. Odur ki, əsərdə meşşan əxlaqının təzahürlərini kəskin tənqid edən müəllif diqqəti onların daxili mahiyyətinə yönəldir”* [57, s.304].

Həqiqət və zaman konseptlərini nisbiləşdirən başqa bir xüsusiyyət də Kilsə ilə İllüminatinin qarşılıqlı ittihamlarıdır. Den Braun bu ittihamları elmlə dini bir-birindən ayıran xüsusiyyət kimi təqdim edərək mövcud mübarizənin müsbət və mənfi tərəflərini göstərir. Müəllifin iki fərqli məkanda vahid zamanı tapmaq cəhdi absurdun

və tarixi faktların mücərrəd kombinasiyası kimi diqqət çəkir. Vatikanın İllüminatiyə qarşı mübarizəsi tarixi faktlarla müşayiət olunsa da, tərkibində absurd elementlərinin olması ehtimalı mövcuddur. *“1900-cu illərin əvvəllərində Vatikan o həddə çatmışdı ki, birliyi xəstə təxəyyülün məhsulu adlandırırdı.”* [27, s.302].

Den Braun bütləri dağıtmaq istəyini elmə və dinə loyal münasibətinin xaricində reallaşdırmaq istəyir. Digər tərəfdən isə onun bu mövqeyini dinlə elmin arasındakı uçurumu aradan qaldırmaq təşəbbüsü kimi də qəbul etmək olar. Yazıçının dinə etirazı loyaldır. O, dini mövhumatı və elmin zərərlərini yox etməyə çalışır. Əsrlər boyu ideal cəmiyyətlərin, dinlərin mahiyyət olaraq kökündən eroziyası, aşınması biliyin də mahiyyətini dəyişmişdir. Müəllif romanda Xristianlığın tarixi ilə bağlı məlumatları, eləcə də antimaddənin axtarışını həqiqətlə absurdun sərhədində saxlayır. *“Lənqdon mərhəmətlə səsləndi və üzünü sinifə tərəf çevirib davam etdi. – Xristianlığın bir çox digər simvolları kimi, nimblər də günəşə sitayiş edən qədim misirlilərdən əxz olunmuşdur. Xristianlıqda həmin qəribə dinin çox sayda əks-sədasını tapmaq olar”* [27, s.320].

Yazıçının Xristianlıqla bağlı qeydləri tənqid xarakterli olsa da, ünvanlı deyil. O, sadəcə, Xristianlıq ən geniş yayılmış din olduğundan onu ədəbi düstur kimi istifadə edərək həqiqətin və zamanın nisbiliyini tənqid edir. Den Braunun bu münasibətində ziddiyyətlər də çoxdur. Belə ki, romanda xristianlığın günəş simvolundan əxz olunması qeyd olunsa da, əsərin digər yerlərində belə fikirlərin məzmunu dəyişir. *“Müasir dinlər, ilahi mahiyyəti dərk etmək üçün bəşəriyyətin bütün cəhdlərini özünə hopduran... özünə məxsus kollajın təcəssümüdür”* [27, s.322].

“Mələklər və şeytanlar” romanında yazıçı həqiqət və zaman məfhumlarının timsalında keçmişə göndərmə etməyi unutmur. Bununla da vahid məkan anlayışının oxşar məqsədə xidmət etdiyi ideyası ortaya çıxır. Digər tərəfdən isə vahid zaman və ideya anlayışlarının zamansızlıqdan yaranması faktı önə çıxır. Məsələn, “İblis Evi” əslində elmin dinlə yox, absurdla mübarizəsidir. Den Braun “İblis Evi”ni insanların həqiqətdən qorxması kimi yozur. Onlar həqiqəti tapacaqları təqdirdə xoşbəxtliyə çatacaqlar. *“Beşinci əsrdə isə bir teoloq Panteonu “İblis Evi” adlandırmışdı. O, hesab edirdi ki, damdakı dəlik iblislər üçün bir darvazadır”* [27, s.324].

“Mələklər və şeytanlar” romanında zaman konseptinin analizi əsərdə gerçəkliyin bədii strukturunun davamı kimi Robert Ləndqonun axtarışları üçün baza formalaşdırır. Katarsis vasitəsilə insanın özünü yenidən kəşf etməsi zaman konsepti daxilində aktuallaşır. Den Braun elmlə dini birləşdirməyə cəhd edə-edə gerçəkliyin sərhədlərini dağıdır. Yazıçının cəhdləri real olsa da, mürəkkəb və ziddiyyətlidir. Onun müşahidəçiliyi zaman konseptini absurd olaraq əlçatmaz edir. Belə bir qənaətə gəlmək olur ki, “Mələklər və şeytanlar” romanında zaman konsepti nizamsızlıqla nizamın vəhdəti, başqa sözlə postmodern reallıqların inikasıdır. Müəllif romanda mələklər və şeytanların kim olması sualını ritorik suala çevirməklə cavabı zamanın öhdəsinə buraxır. Göstərilən tənqidi qeydlər xaricində, ümumilikdə romanda zaman konseptinin detektiv janrın tələbləri çərçivəsində uğurla işləndiyini demək mümkündür.

### 1.3. Robert Lənqdonun həqiqət axtarışları

Mətnaltı informasiyalar ötürmək ədəbiyyatın əsas məqsədlərindən biridir. Mətnaltı informasiyaların dəqiq və konseptual izahı bədii mətndə obrazların iştirakı ilə güclənir. Postmodernizmin həqiqət axtarışı konsepsiyası [14], eləcə də strukturalizmin, poststrukturalizmin tərkibində [65] obrazlar sisteminin vəhdəti ilə güc qazanır. Buna görə bir surətin xarakter olaraq verilməsi ilk növbədə onun kiçik surətdən birdən-birə böyük surətə keçməsi ilə baş verir. “Mələklər və şeytanlar” romanında bu keçidin əsasını şüur axını müəyyən edir. Robert Lənqdon romanın əsas qəhrəmanı kimi şüur axınının mərkəzindədir. Amerikan idealist filosofu Vilyam Ceymsə məxsus olan [73] şüur axını termini sosial gerçəkliyin daxilində Robert Lənqdonun hiss-həyəcanlarının, assosiasiyalarının bir-birinə qarışması şəklində müəyyən olunur. Den Braunun bəzən Kilsənin əməllərindən hiddətə gəlməsi, bəzən də İllüminati təşkilatının fəaliyyət sahələrini [160] tənqid etməsini sosial gerçəkliyin dəyişkənliyi kimi qavramaq mümkündür. Müəllif mövcud qavrayışın əsas icraçısı Robert Lənqdon vasitəsilə şüurun mental tərəfini canlandırır.

Detektiv əsərlərdə hadisələr daha çox reallığa əsaslanır. İnformativ və kommunikativ təhkiyə bəzən fantastik elementlərlə zənginləşdirilir. Romanın sadə dil

və üslubda yazılması hadisələrin genişmiqyaslı olması ilə üst-üstə düşmür. Əsərin irihəcmli olması hadisələrin məzmununda uzunçuluq yaradır. Robert Lənqdonun həqiqət axtarışları onun Kilsə-İllüminati mübarizəsində göstərdiyi fəaliyyətlərlə tamamlanır. Robert Lənqdon xəyali qəhrəman olsa da, həqiqət uğrunda mübarizə aparan real insanları təcəssüm etdirir. Onu məqsədləri və mübarizəsi, başqa sözlə, həqiqət axtarışları böyüdür, xarakterə çevirir. Robert Lənqdonun həqiqət axtarışları romanda vizual fantastika səviyyəsindədir. Əsas personajın hadisələrdən çıxış yolu axtarması, dinamizmi, intellekti onun həqiqət axtarışlarını daha da konkretləşdirir. Robert Lənqdon əsərin əvvəllərindən qətlin izini axtarmağa başlayır.

Romanda həqiqət uğrunda mübarizə antiutopikdir. Bu təəssüratı mümkün reallıqların absurd ola bilmə ehtimalı kimi də təqdim etmək olar. Robert Lənqdonun həqiqətə çatmaq cəhdlərində natamamlıqlar istisna deyil. Bu yanaşma onun surət olaraq zəifliyinə dəlalət etmir. Başqa sözlə, yazıçının əsas məqsədi onun həqiqətə yaxınlaşmasını zərurətə çevirir. Robert Lənqdonun tərəfsizliyi taleyindəki qeyri-müəyyənliklə birləşərək məqsədinə də təsirsiz ötüşmür. Romanın sonlarına doğru bu ziddiyyət daha da güclənir. Məsələn, “Ağ qoç, qara qoç” romanında Məlik Məmmədli obrazı ilə  Corc Oruellin “1984” romanının qəhrəmanı Vinston Smitin fəaliyyəti [32] Robert Lənqdonun həqiqət axtarışları ilə oxşarlıq təşkil edir. “Ağ qoç, qara qoç” romanında isə baş qəhrəman Məlik Məmmədli “Məlikməmməd” nağılındakı eyniadlı qəhrəmanın müasir versiyasıdır. Məlik Məmmədlinin sakit və səssiz mübarizəsi onun həqiqət uğrunda mübarizəsində qeyri-müəyyənlik yaradır. Məlik Məmmədlinin mübarizəsi onun nəqliyyat mühəndisi olan oğlu Beyrək, ədəbiyyat müəllimi olan qızı Burla və teatr rəssamı olan arvadı Aypərinin, başqa sözlə, Anarın utopik cəmiyyətinin əsas simalarının fəaliyyəti ilə birlikdə xarakterik mənzərə yarada bilir. “Mələklər və şeytanlar” romanının məzmun və forması ilə “Ağ qoç, qara qoç” romanının ideya-bədii xüsusiyyətləri baş qəhrəmanların müqayisəsi gedişində həqiqət uğrunda mübarizənin tamamlayıcısı kimi önə çıxır.

Postyeniliyin hadisəsi kimi postmodernizm keçmişə münasibətdə daha loyaldır. Modernizmin inkar etdiyi dəyərləri postmodernizm sadəcə dəyişdirir. Bu dəyişkənliyin mənfi tərəflərindən biri də cəmiyyətdəki xaosdur. Bu xaos həm daxilən

pərakəndə olan postmodernizmdir, həm də özünəməxsus qayda-qanunu olan xaosdur, paranoyadır [56]. Postmodernizmin tarixə gəlişi, onun kodları [93] müasir dövrün xaosunun kökündəki səbəbləri aydınlaşdırmaq üçün vacib materialdır. Lakin cərəyandaxili pərakəndəlik mənfi olaraq xaosun böyüməsinə təsir edir. Robert Lənqdon bu paradoksallığın mərkəzində postmodern xaos dövrünün insanı kimi intellekt predmetinə çevrilir. Məlik Məmmədli də postdövr insanı kimi cəmiyyətin kənar ünsürlərdən təmizlənməsinə çalışır. Postdövrün, eləcə də postmodernizmin mahiyyəti həm də tarixin, fəlsəfənin yenilənməsi, ənənəviləşməsidir. Postmodernizm tarixdən ədəbi material kimi istifadə edir. Modernizmin inkarı postmodernizmin əsas ədəbi silahıdır. Qədim dünyanın, orta əsrlərin fəlsəfəsi, dünyagörüşü postmodern cəmiyyətin örnəyində estetik dəyər qazanır. Robert Lənqdon tarixi keçmişdən və fəlsəfədən istifadə edərək simvolları açmağa çalışır. Necə ki, postmodernizm keçmişə pərəstiş etmir, ondan sadəcə istifadə edir. *"Postmodernizm isə modernizmdən fərqli olaraq, həmin ənənələri, stereotipləri, əvvəlki fəlsəfələri, tarixi keçmişi atmır, eyni zamanda klassik dövrdən fərqli olaraq, keçmişə pərəstiş etmir, - keçmişi yenidən dəyərləndirir"* [69, s.62].

Misal olaraq, "Məlikməmməd" nağılının dekonkstruksiyası olan "Ağ qoç, qara qoç" romanında ağ qoç gerçəkliyi, işığı, qara qoç isə absurdu, qaranlığı simvolizə edir. İşıq və qaranlıq qarşılaşması "Ağ qoç, qara qoç" romanının ideyasını gerçəklik-absurd keçidində birləşdirir. "Ağ qoç, qara qoç" romanının I hissəsində Məlik Məmmədli rahat, firavan həyat yaşayır. Onun yaşadığı dövr türk xalqlarının birləşdiyi, Turan ideyasının distopiya olduğu bir dövrdür. Hər şey demokratik və idealdır. Əsərin II hissəsində isə Məlikin üç zonada – "Behişti Badi-Kubə", "Bakı kommunası" və "Baku siti"də yaşadığı hadisələrdən bəhs olunur. Məlikin yaşadığı cəmiyyət bir qədər nöqsanlıdır. Başqa sözlə, müasir olduğu qədər də köhnədir. Anar bunu ideal cəmiyyətin nöqsanı kimi təqdim edir. Onun distopik cəmiyyəti gerçəkliyə çevirmək cəhdi maraq kəsb edir. *"Məlik ərinməyib "Pəri Cadu" həftəliyinin saytına da nəzər saldı – yenə ulduz falları, tilsimlər, sehrlər, cadular, hər növ ekstrasenslərin proqnozları – öncədəndeməl əri. Məlik XXI əsrdə də bütün bunları oxuyanlar, hətta bunlara inananlar tapılır - deyə düşündü* [17, s.330].

“Mələklər və şeytanlar” romanının simvollarla güclənən ümumi xətti əsərin ideyası ətrafında ilkin təsəvvür yaradır. Kilsə-İllüminati qarşıdurmasından formalaşan gerçəklik-absurd mübarizəsi ümumi mənada utopiya-distopiya mübarizəsini xatırladır. “Mələklər və şeytanlar” romanında baş qəhrəman Robert Lənqdon müəllifin alter eqosudur. “Mələklər və şeytanlar” romanının sadə təhkiyə aparatı publisistik üslubun da komponentlərini özündə əks etdirir. Publisistikanın tətbiqi romanın detektiv xətti ilə düz mütənasibdir. Bu ənənə ABŞ ədəbiyyatında XVIII əsrin əvvəllərində də geniş yayılmışdı. *“Əsrin birinci yarısında artıq publisistika aparıcı janra çevrilir. Publisistikanın ardınca amerika ədəbiyyatına get-gedə daha fəal və sürətlə bilavasitə bədii ədəbiyyat janrları daxil olmağa başladı və bu da dünyəvi ədəbi ənənələrin real formalaşması demək idi”* [101, s.5]. Müvafiq dövrün publisistikası, eyni zamanda müasir dövr amerikan ədəbiyyatında detektiv, fantastik janrların möhkəmlənməsinə zəmin hazırladı.

Robert Lənqdon zamansızlıq arasında var-gəl edir. Onun zaman konsepti daxilində dəyər qazanması detektiv və simvolik xüsusiyyətlərin məcmusu kimi diqqəti cəlb edir. Romanda antimaddə axtarışı ilə İllüminatinin fəaliyyəti Robert Lənqdonla Vittoriya Vetranın iştirakı ilə detektiv, simvolik mətn modeli yaradır. Hadisələrarası keçidlər intertekstuallığın elementar nümunəsi kimi diqqəti cəlb edir. Robert Lənqdon zamansızlıqdan istifadə edərək hadisələri obyektiv olaraq qiymətləndirir. Məsələn, Məlik Məmmədli müasir dövrün yeni obrazı deyil. O, Anarın mifik qəhrəmanının müasirləşdirilmiş versiyası kimi utopik-antiutopik mübarizənin daxilində hərəkətdədir. Anarın qəhrəmanlarını mövcud dövrün problemləri ciddi narahat edir. Məlik Məmmədlinin oğlu Beyrək atasını heç nə etməməkdə qınamaqda müəyyən qədər haqlıdır. Jurnalist olduğu üçün bəzi şeyləri dəyişə bilərdi. Beləcə onlar keçmişlə indiki dövrün problemlərini müasir yolla həll etməyə çalışırlar. “Məlikməmməd” nağılındakı qardaş sevgisini, xilaskarlıq amalını romanda vətən sevgisi əvəz edir. *“Ölkənin ən peşəkar jurnalisti və telerejissoru kimi tanınan Məlik Məmmədlini bütün kanallar israrla dəvət edirdilər, amma Çağdaş TV-də tamaşaçılarını məmləkətinin tarixi və ölkələrin mədəniyyət həyatı ilə, dünyanın ədəbi, sənət sərvətləri ilə tanış etməyi son illərdə ömrünün məramı seçmişdi”* [17,

s.326]. Əlavə olaraq demək yerinə düşər ki, Anar Məlik Məmmədlinin şəxsində milli kimlik amilini önə çıxarır. O, ölkəsində haqq-ədaləti bərpa edən, millətin gələcəyinə xidmət edən bir ziyalı kimi xarakterizə olunur [62]. Buna baxmayaraq ümumbəşərilik Anarın qəhrəmanlarının yaşantısında nisbətən məhduddur.

Baş qəhrəman Robert Lənqdon öz dinamik fəaliyyəti ilə hadisələrin mərkəzindədir. O, mübariz və cəsur obraz təsiri bağışlasa da, hadisələrin içindən çıxmaqda çətinlik çəkir. Onun mübarizəsi nəticə ilə ümidsizliyin sərhədindədir. Bu obrazın ədəbi təqdimatı həqiqətin nisbiliyi daxilində adiləşir. Postmodernizmin pərakəndəliyi onun nəzəriyyəsindən bir addım öndədir. Başqa sözlə, postmodernizm sərhədsiz, sərbəst bir metod olduğundan bu tip mənəvi böhranlar onun daxili qaydasına çevrilir. *"Qeyd etdiyimiz kimi, postmodernizmin sərhədli dəqiq nəzəriyyəsi yoxdur. Düzdür, hadisələr həmişə nəzəriyyəni qabaqlayır. Ancaq biz postmodernizmin nəzəriyyəsinin sözün ənənəvi mənasında formalaşacağını gözləmirik də"* [69, s.47]. Postmodernizmin pərakəndəliyi xaosdan təsirlənərək fərqli sosial gerçəklik formalaşdırır. Belə olduqda, Robert Lənqdonun fəaliyyətindəki ziddiyyətlərin sosial tərəfləri önə çıxır.

Robert Lənqdonun həqiqət axtarışları obyektivliyi və loyallığı ilə seçilir. Müəllif romanda detektiv romana xas metoddan istifadə edərək obrazların xarakterini özü təyin edir [Elmi nəticənin nəşri üçün bax: 35]. Robert Lənqdon Den Braunun ümumbəşəri ideyalarının daşıyıcısıdır. Yazıçının romanı fantastika səviyyəsinə qaldırmaq cəhdinin ilk elementi Robert Lənqdonun xəyali qəhrəman olmasıdır. Robert Lənqdonun həqiqət axtarışları gerçəklik-absurd keçidində müəyyən edilir. O, qətlin izini axtara-axtara hadisələrarası əlaqəni gücləndirir. Proseslərin detektiv formada davam etməsi, bədii mətni ədəbi və estetik olaraq zəiflətsə də, bu ənənə günün reallıqları kimi qəbul edilməlidir. Müasir dövrdə konyuktura mövzularının geniş yayılması bəzi sənət növlərinin nisbiləşməsi sənətin də mahiyyətini dəyişir. Konyuktura mövzularının çoxalması ədəbiyyatın da mahiyyətinə təsirsiz qalmır. *"Fəqət XIX əsrdən bəri, dövrlərin axışının qarşısıalınmaz olması inancı kök salmışdır. Bu geri qaytarılması çətin olan axışla birlikdə iqtisadiyyat və ya ədəbiyyat kimi sənət sahələrinin də əriyib getdiyini düşünmək olar. Necə ki, sənət, "dövrün*

*başlıca ifadəsi" sayılmışdır"* [129, s.612].

Den Braun Robert Lənqdon vasitəsilə Kilsə amilini qabartmaqla müasir dövrün sürətlə dəyişməsini həqiqətin aşkar olunmasının nəticəsinə çevirir. Kilsə elmi sürətli inkişafda, macəraçılıqda günahlandırır. Lakin zamanın axışı mahiyyət olaraq hadisələri və obrazları birləşdirir. Sözügedən birliyi daha çox kəsişmə kimi qəbul etmək olar. Hər kəs özündən xəbərsiz bu birliyin subyektidir. Robert Lənqdon da bir fərd olaraq bu bütövün içindədir. Təbii ki, bir tərəfdən Kilsənin bu yanaşmasını katarsis kimi qəbul etmək mümkündür. Den Braun mənfi planda Kilsəni tənqid etməsinə baxmayaraq, tez-tez onun fəaliyyətini katarsislə əlaqələndirir. İnsanların bütövün parçası olması ideyası romanda ön plandadır. Robert Lendqonun mübarizəsi nə qədər macəralı və sürətlidirsə, bir o qədər də xaotikdir. *"Müasir dövr bir-birindən fərqli sivilizasiyalara bölünmüş bəşəriyyətin bir gün birləşəcəyi və beləcə sonsuz sülhün təmin olunacağının xəyalı içində idi. Bu gün dünya tarixi nəhayət bölünməz bir bütövlük yaradır, amma uzun zamandır xəyal edilən bu bəşərin birliyini gerçəkləşdirən və ayaqda tutan şey macəralı və sürətli mübarizədir. Bəşərin birliyinin mənası belədir: Heç kim harasa qaça bilməz* [136, s.22].

Detektiv hadisələrin mərkəzində Robert Lənqdon özünü tam göstərə bilmir. Müəllif hadisələrə bitərəf münasibəti ilə Robert Lənqdonu paralelləşdirir. Lənqdonun taleyi də qeyri-müəyyəndir. Roman boyu onun məqsədinə çatıb-çatmadığını təyin etmək çətindir. Nümunə olaraq, "Ağ qoç, qara qoç" romanında Məlikin yaşadığı hadisələr utopik və antiutopik yerdəyişmə etsə də, yazıçı gerçəkliyə olan inamını itirməməyə çalışır. Məlik Məmmədlinin daxili dünyası, utopiyası onun mübarizəsi ilə tərs mütənasibdir. Ona görə də bu obrazı xarakter kimi təqdim etmək bir qədər ziddiyyətlidir. *"Gələcək? Gələcək də yoxdu. Hər halda onunçün. Onun, Məlik Məmmədlinin, Məlik Məhmədoğlunun heç bir gələcəyi yoxdu"* [17, s.411].

"Mələklər və şeytanlar" romanında surətlərin fəaliyyəti pərakəndə xarakter daşıyır. Robert Lənqdon, Vittoriya Vetra, Leonardo Vetra və başqa surətlər bədii oyun texnologiyasının tərkibində hadisələri idarə edirlər. Əsas icraçı rolunda çıxış edən Robert Lənqdon intellektuallığı ilə seçilir. O, düşdüyü çətinliklərdən çıxmağı bacarsa da, ali məqsədlər uğrunda mübarizədə xeyli əziyyət çəkir. Hadisələrə qarşı

cəsarəti onu xarakter olaraq bütövləşdirir. Robert Lənqdon Den Braun intellektinin surətləşmiş şəklidir. Romanındakı bu sərhədsizlik absurda yaxındır. Baş qəhrəman bütün problemlərin xaosdan qaynaqlandığını yaxşı başa düşür. Onun yaşadığı cəmiyyətin çətinliyi hadisələrin sürətli inkişafı ilə bağlıdır. Robert Lənqdonun yaşadığı cəmiyyətdə Kilsə-İllüminati mübarizəsi köhnəliyi simvolizə edir. Hadisələrin qarışıq və mürəkkəb səciyyə daşıması bürokratiyanı xatırladır. Den Braunun müasirlik yanaşması müsbət planda verilir. Belə ki, insanın həqiqət axtarışı bu yanaşmanın mərkəzində dayanır. Məsələn, Məlik Məmmədli övladları, ailəsi sarıdan xoşbəxtdir. Yaşamaq istədiyi dünyanı distopiyaya çevirə bilməməsi onu incidir. *"Məliyin oğlu Beyrək nəqliyyat mühəndisi, qızı Burla ədəbiyyat müəllimi, arvadı Aypəri teatr rəssamı idi. Nə yazıq ki, təsadüf elə gətirdi ki, bu Novruzda heç biri Bakıda deyil, Beyrək Şuşada, Aypəri Təbrizdə, Burla Kərkükdə idi"* [17, s.327]. "Ağ qoç, qara qoç" romanının ikinci nağılındakı cəmiyyət daha mürəkkəbdir. Bu cəmiyyətin sakinləri "qara qoç"un belində bu dövrə gəlmişlər. Bu cür cəmiyyətdə xarakter olaraq formalaşmaq olduqca çətindir. Kənar təsirlərin əhatəsində insanlar özlərindən uzaqlaşırlar. Bu cür cəmiyyətlərdə özgələşmə qaçılmazdır. Məlik Məmmədli ikinci nağılda daha mübariz təsir bağışlayır. Utopik cəmiyyətə qarşı qoyulan üç zona Məlik Məmmədlinin xarakterik xüsusiyyətlərini açmaq baxımından zəngin material verir. Anar üç zonada köhnəliyə münasibətini xurafatla, bürokratiyanı sovet düşüncəsi ilə, müasirliyi isə Qərbə inteqrasiya ilə əlaqələndirərək milli kolorit yaradır. *"Azərbaycan yazıçısı Anarın «Ağ qoç, qara qoç» (2004) distopiyasında hadisələr üç zaman çərçivəsində inkişaf edir. Bu distopiyanın fəlsəfi mühakiməsi üç «ideal» cəmiyyətin kinayəli müqayisə edilməsidir ki, üç əsas ideologiya əsasında yaradılmışdır: ənənəvi-islam, kommunist, kommunist və burjua"* [97, s.41-42].

Den Braunun kommunaktiv və ritorik məqsədləri [174] Robert Lənqdon vasitəsilə icra olunur. Robert Lənqdonun cəsarəti keçirdiyi həyəcanlar nəticəsində bəzən qorxuya çevrilir. Cəsarət-qorxu keçidi onu xarakter olaraq daha da möhkəmləndirir. Den Braunun Kilsə-İllüminati mübarizəsi timsalında güc anlayışını fərdi şəklə salması diqqətdən qaçmır. *"Yox, qulaq as. ABŞ-ın prezidenti dedi: "O qədər mütəşəkkil, o qədər ələkeçməz, o qədər hər şeyi əhatə edən və qəbahətli elə bir*

*qüvvə mövcuddur ki, kimsə ona qarşı tənqidlə çıxış eləmək istəsə, bunu pıçıltı ilə etsə daha salamat olardı"* [27, s.337]. Robert Lənqdon Kilsə-İllüminati mübarizəsinə yaxşı bələddir. O bu mübarizənin mahiyyətini daha gizli və səssiz şəkildə aşkara çıxarmağa çalışır. Den Braun sözügedən səssizliyin daxilində baş qəhrəmanın obyektivliyini qorumağa çalışır. Müəllif Robert Lənqdonu Leonardo Vetranın cinayətindəki izlərin arxasınca yollayaraq dissimulyasiyanı açmağa çalışır. Lakin İllüminatinin fəaliyyətindəki gizlilik, Kilsənin subyektiv mübarizəsi Den Braunun həqiqət axtarışına əngəl törədir. *"İllüminati qardaşlığının istifadə etdiyi metod, simvolları öyrənən elmdə "dissimulyasiya" və yaxud – gizlənmək termini ilə müəyyən edilmişdir"* [27, s.271].

Postmodern cəmiyyətdə nəticə qeyri-müəyyəndir. Bu xaosun daxilində səbəb axtarmaq sadəcə vaxt itkisidir. Bunun nəticəsi elmin sürətli inkişafı və yüksək demoqrafiya ilə sıx bağlıdır. Məlum səbəblər şəxsiyyətin formalaşmasına da təsirsiz ötüşmür. Robert Lənqdonun simasında müşahidə olunan bu yanaşma həqiqətin formullarından biridir. Den Braunun realist cəmiyyəti mövcud problemlərin mərkəzindədir. Bu cəmiyyət Avropa və amerikan həyat tərzindən kəskin fərqlənir. Önəmli olan görüntüdür, onun mahiyyəti isə arxa planda qalır. *"Postmodernizmdə məsafələr və lokallıq kimi anlayışların statusu dəyişir. Artıq bir çox malların, təsisatların və ya anlayışların coğrafi mənşəyi mənasızlaşıb. Avropada kim belə bir fakta maraq göstərir ki, tomatın vətəni haradır, yaxud əriştə haradan gəlib?"* [69, s.60].

Den Braun keçmişi tənqid etməklə onu müasir dövrlə birləşdirməyə cəhd edir. Sözügedən birləşmə Robert Lənqdonun cəhdləri ilə bütövləşir. Müəllif romanda Robert Lənqdonun şəxsində tarixdən material olaraq istifadə edərək obrazları və hadisələri fərqli təqdimatda verir. Robert Lənqdon keçmişə münasibətdə loyaldır. O, Kilsə-İllüminati mübarizəsini elm-din birləşməsinə çevirərək neytrallığını qoruyur. Den Braunun keçmişi indiki dövrə təmiz şəkildə gətirmək cəhdini uğurlu hesab etmək olar. Örnək olaraq, "Ağ qoç, qara qoç" romanında Anarın loyallığı məhdud olsa da, o folklorun, eləcə də qədim dövr ədəbiyyatının müsbət və mənfi qəhrəmanlarını öz utopik cəmiyyətinə montaj edir. Onun bu yanaşması

subyektivizmdən obyektivizmə çevrilmə kimi qəbul oluna bilər. *"O tərəfdəki böyük Təpəgöz mağarası da çocuqların sevimli əyləncə yerlərindən idi. Burada elektron cihazlarla idarə olunan nəhəng Təpəgöz fiqurunu görəndə uşaqlar vahimələnir, sonra Təpəgözün çıxardığı oyunlardan həzz alıb doyunca gülürdülər"* [17, s.337].

Postmodernizm yenicə yarandığı vaxtlarda ciddi tənqidlə üzləşmişdi. Buna səbəb keçmişin dəyişilməsi, dəyərlərin məhv edilməsi şübhəsi idi. Lakin postmodernizm keçmişi yox, ona olan münasibəti dəyişdi. Bu dəyişkənlik müasir dövrdə xaosla birlikdə hibridləşmişdir. Robert Lənqdon yaşadığı cəmiyyət də belədir. Sözügedən cəmiyyət nöqsanlardan da xali deyil. Belə olduqda, antisosiallıq gücləndi, həqiqət nisbiləşdi. Bu nisbiləşmənin timsalında Robert Lənqdon cəmiyyətdaxili problemləri fərdi düşüncələri ilə həll etməyə çalışır. Robert Lənqdonun fiziki və şüuraltı olaraq media cəmiyyətindəki gerçəkliyi, istehlakı, eləcə də postsənaye dövrünün təlatümlərini qabartması onun fərdi mübarizəsi kimi xarakterikdir. *"Əksər insanlar Qərb cəmiyyətlərinin İkinci dünya müharibəsindən bəri öz xarakterlərini müəyyən formada ifrat dərəcədə dəyişdiklərinin fərqindədir. Bu dəyişiklikləri təsvir etmək üçün sosial nəzəriyyəçilər müxtəlif terminlərdən istifadə ediblər: media cəmiyyəti, mənzərə cəmiyyəti, istehlakçı cəmiyyət, nəzarət edilən istehlakın bürökratik cəmiyyəti, post-sənaye cəmiyyəti* [186, s.133].

Robert Lənqdon qeyri-müəyyənlikləri həll edərək nəticə əldə etməyə çalışır. Onun həqiqət axtarışlarının kökündə yaşadığı reallıqları dəyişdirmək cəhdləri dayanır. Postmodern, eyni zamanda da xaotik cəmiyyət istiqamətcə dayanmadan dəyişməkdədir. Bu cür cəmiyyətlərdə modernizmin inkar etdiyi mimetizm önə çıxır. Den Braun hadisələri fenomenə çevirməyə çalışır. Bu da birbaşa "Dünya-mətndir" konsepsiyası əsasında postmodernizmin mətn amilini yüksəyə qaldırması ilə bağlıdır. *"Modernizm incəsənət, ədəbiyyat, siyasət, fəlsəfə, cəmiyyətin bütün sahələrində ənənəvi dəyərlərə etiraz edib, dünyanı yenidən təzə prinsiplər üzərində qurmaq arzusunun ifadəsi oldu; dünyanı olduğu kimi təsvir edən mimetizmdən imtina edib, yaradıcı müəllifin maksimal subyektivliyini məqsəd kimi görən Üslub kultu gətirdi; müəllifin həm şah, həm Tanrı olduğu məkanı yaratdı"* [69, s.34].

Den Braunun mətni müəllifdən yüksəyə qaldırması cəhdi balanslı şəkildədir.

Belə ki, o, bədii mətnin təhkiyə aparatını faktlar vasitəsilə gücləndirərək müəllif-mətn keçidini bərabərləşdirir. Məsələn, din-elm mübarizəsinin mənzərəsini təsvir etmək üçün müəllif "Den Braun bədii üçbucağı"nın sosial xətti vasitəsilə 1940-1945 və 1951-1955-ci illərdə Böyük Britaniyanın baş naziri olmuş Vinston Çörçillin ədəbi portretini yaradır. *"Çörçill, öz aramızdır, dərin inamı olan katolik idi. Sənə məlumdurmu ki, həmin bu layiqli insan 1920-ci ildə dərc etdirdiyi bəyanatda illüminatları damğalayır və cəmiyyətin mənəvi dayaqlarına qarşı yönələn ümumdünya sui-qəsdi ilə bağlı britaniyalılara xəbərdarlıq edirdi?"* [27, s.337].

Den Braun Robert Lənqdonun xarakterik xüsusiyyətlərini göstərmək və hadisələrə qiymət vermək baxımından simvollardan məharətlə istifadə edir. "Mələklər və şeytanlar" romanında mövcud cəmiyyətə ironiya baş qəhrəmanın simasında kulminasiyaya çatır. Bu ironiya nə qədər güclü olsa da, təəssürat xarakterlidir. Den Braun mövcud təəssürat daxilində Robert Lənqdonun hadisələrə operativ reaksiyalarını böyütməyə çalışır. Den Braunun ironiyası ikitərəfli səciyyə daşıyır. Robert Lənqdonun keçmişə ironiyası zaman konseptinin iştirakı ilə lokaldan ümumiyə keçid edir. Elm vasitəsilə Tanrının dərk edilməsi cəhdi bu ironiyanın başqa bir forması kimi maraqlıdır. *"Dünyanı dərk etməyə çalışan elm Tanrının dünyasını get-gedə daha kiçik fraqmentlərə çilikləyir və nəticədə get-gedə daha çox sual meydana çıxır"* [27, s.495]. Hər iki halda Robert Lənqdon sosial gerçəklik daxilində Den Braunun alter eqosu kimi sosial və mənəvi müvazinətini qoruyur. Robert Lənqdonun həqiqət axtarışı "Elmin inkişafı dinə zərərdirmi?" sualına cavab tapmaqla paralel icra olunur. Müəllif insanları lokal düşüncədən çıxarmağa çalışaraq onların fikirlərini müsbət mənada dəyişməyə çalışır. Kilsə və İllüminatiyə müəllifin ikitərəfli yanaşmaları qeyd olunan cəhdi təkmilləşdirməyə xidmət edir. *"Ancaq kim deyib ki, planetimizdə nurun yeganə mənbəyi kilsədir?"* [27, s.685].

Yazıçının obyektivliyi nəzəri və praktiki olaraq bədii mətnin səbəb-nəticə ardıcıllığını təyin edir. Vladimir Nabokovun "Təhkiyəçi, müəllim və sehrbaz" ədəbi təsbiti bu bitərəfliyin daha təkmil və estetik formasıdır. Vladimir Nabokovun mühazirələrində toxunduğu belə məsələlər [141] səbəb-nəticə ardıcıllığını müəyyən etmək üçün vacibdir. Bu cür ardıcıllıq Den braunun ədəbi moda yaratmaq cəhdi ilə

birləşir.

Robert Lənqdonun həqiqət axtarışları romanda absurdu təyin etmək baxımından önəmlidir. Proseslərin qeyri-müəyyənliyi bu ədəbi aktın mümkünlüyünü labüd edir. Dinin antidoqma şəklini absurda çevirən Robert Lənqdon onu elmin müasir zərərləri ilə birləşdirir. Nəticədə, detektiv janrdan yüksəkdə bir nəticəvilik formalaşır. Dinlə elmin mübarizəsi həqiqət axtarışınıləngidən əsas məqam kimi bədii mətnin fabulasını müəyyənləşdirir. Ümumiyyətlə, keçmiş sivilizasiyaların tarixinə nəzər salındıqda cəmiyyətlərin dünyagörüşü və inanclarında hər zaman dinin elmlə ziddiyyətləri mövcud olub. Məsələn, Orta əsrlərə qədər Yerin kürə formasında olduğunu zənn edənlər kafir hesab olunurdu. Bu tabu yıxıldıqdan sonra dini fanatizmin kökü dərindən sarsıldı. Təhsilin inkişaf etmədiyi bir çox dini-fanatik cəmiyyətlərdə dini təəssübkeşlik ifrat səviyyədədir. Elmin inkişaf etdiyi cəmiyyətlərdə isə bu ifratçılıq yox səviyyəsindədir. Elm mənqitə əsaslandığı üçün insanların bunu qəbul etməsinə təkcə qorxu amili mane olur. Bununla da cəmiyyətdaxili fikir ayrılıqları utopiya-distopiya arasında dövr edir. Məsələn, "Ağ qoç, qara qoç"da Qarabağ işğaldan azad olunub, hətta orda festivallar, şənliklər keçirilir. Anar "Məlikməmməd" nağılının Zümrüd quşunu xilas motivi olaraq müasir dövrə gətirir. *"Yəqin özünüz də bilmədən tükümü oda tutmusuz – dedi – mən də uçub gəlmişəm. Məlik Məmməd nağılı yadınızdan çıxıb, bəlkə mən də sizin Zümrüd quşunuzam – güldü"* [17, s.412]. Əlavə olaraq qeyd edilməlidir ki, Vətən mübaribəsində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun göstərdiyi şücaət nəticəsində əldə olunan qələbə ilə Anarın Qarabağla bağlı olan utopiyası distopiyaya çevrildi.

Robert Lənqdon yeni fikirli cəmiyyət yaratmağa çalışır. Bütləri dağıtmaq ideyası Robert Lənqdonun əsas vizual silahı kimi  həqiqət axtarışlarının mərkəzində dayanır. Robert Lənqdonun ideal cəmiyyət düşüncəsi ümumbəşəridir. Ümid motivini əsas götürən müəllif insanın həqiqətə çatmasını ümidin reallığa çevrilməsi cəhdinə birləşdirir. Fərd-ailə-cəmiyyət keçidinin ümiddən reallığa keçid üçün əsas ədəbi körpü olması xeyirin qələbəsinə, başqa sözlə sosial gerçəkliyin bərpasına inamdır. *"Şər qüvvələr nə qədər qüdrətli olsalar da, məğlubedilməz deyillər. Qələbəni Xeyir*

*təntənə edəcək. Öz ürəklərinizə qulaq asın. Tanrını eşidin. Uçurumun kənarından biz hamımız birlikdə, əl-ələ verərək çəkilə bilərik”* [27, s.500].

Robert Lənqdon ziddiyyətli surət olsa da, bitkin səciyyə daşıyır. Onun həqiqət axtarışlarını, xeyirin qələbəsinə olan inamını, sosial gerçəkliyi bərpa cəhdini uğurlu hesab etmək olar. Beləliklə, Robert Lənqdon həqiqət axtarışları ilə gerçəklik və onun postmodern strukturunu formalaşdıran birinci komponent – sosial gerçəklik aydınlaşdırıldı.

Nəticədə, birinci fəsildə “Mələklər və şeytanlar” romanında sosial gerçəklik təhlil edilərək ümumiləşdirilmişdir. Əldə edilən elmi və bədii qənaətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

– Sosial gerçəkliyin təyinatı “Mələklər və şeytanlar” romanında gerçəkliyin bədii strukturu ilə başlayır;

– Romanda zaman konsepti sosial gerçəkliyin növbəti istiqaməti kimi səbəb-nəticə ardıcıllığını müəyyən edir;

– Robert Lənqdonun həqiqət axtarışları sosial gerçəkliyi tamamlayan sonuncu istiqamət kimi diqqəti cəlb edir;

– “Mələklər və şeytanlar” romanında “Den Braun bədii üçbucağı”nın tətbiqi ilə sosial gerçəkliyin konseptuallığı müəyyən olunur. Bu konseptuallığın ədəbi və nəzəri tərəfləri Anarın “Ağ qoç, qara qoç” romanının köməyi ilə möhkəmlənir.

# II FƏSİL

# "DA VİNÇİ ŞİFRƏSİ" ROMANINDA ALTERNATİV GERÇƏKLİK

## 2.1. "Da Vinçi şifrəsi" romanında absurdun transformasiyası

Ümumilikdə alternativ gerçəklik anlayışı reallıqla uyğunluq təşkil etməlidir. Məsələn, İkinci Dünya müharibəsində Hitler Almaniyasının qalib gəldiyini göstərən bir mətni alternativ gerçəkliyə nümunəsi göstərmək düzgün olmaz. Mövcud reallıqların ifrat şəkildə dəyişməsi alternativ gerçəkliyi yaradan materiala çevrilməməlidir. Belə olduqda, ədəbiyyatın funksiyaları, əhəmiyyəti və dəyəri zəifləmiş olar. Alternativ gerçəklik daha çox kökündə şübhələr olan hadisələrin, və ya mahiyyətcə zərərli olmayan mövzuların bazasında müəyyən olunmalıdır. Bilindiyi kimi ədəbiyyat da tərbiyəvi mahiyyəti olan, insanları düzgünlüyə, dürüstlüyə dəvət edən bir elm sahəsidir. "Da Vinçi şifrəsi" romanında alternativ gerçəklik yazıçının absurd, intellektuallıq və əyləncəviliyin də içində olduğu fərdi bədii oyunlarının məcmusudur. "Da Vinçi şifrəsi" romanında absurdun transformasiyası alternativ gerçəkliyin ədəbi-nəzəri bazasını formalaşdıran birinci istiqamətdir. Romanda alternativ gerçəklik hadisələrin deyil, daha çox hadisələrə münasibətin nəticəsi kimi diqqət çəkir [Elmi nəticənin nəşri üçün bax: 36].

Absurd anlayışı cəmiyyətin qəbul etdiyi, alışdığı ənənələri inkar edən, məntiqlə izah olunmayan fikirləri [73] ifadə edir. Yazıçı absurdu transformasiya edərək hipotezlərini mövcud tarixə alternativ olaraq ortaya qoyur. Ümumi həqiqətlərin saf-çürük edilməsi ilə müəyyənləşən doqma və antidoqma romanın əsas nüvəsidir. Müəyyən reallıqların kökündə əsaslı şübhələrin olması romanda gerçəkliyin əsas tərifidir. Mövcud gerçəkliyin postmodern strukturu isə bu şübhələrin aradan qaldırılması üçün müəllifin etdiyi cəhdlərdir. Den Braunun absurdu transformasiya cəhdləri postmoderncədir. Bu cəhdlər doqmaların məhvi istiqamətində yürüdülən mühakimələrlə tamamlanır. Bədii mətn alternativ gerçəkliyin qoyuluşu və tətbiqi baxımından maraq kəsb edir. Əsərdə alternativ gerçəkliyi müəyyənləşdirmək üçün əlavə material kimi çağdaş dövr Azərbaycan yazıçısı Kamal Abdullanın "Yarımçıq

əlyazma" romanına müraciət edilmişdir. "Yarımçıq əlyazma"da gerçəklik xalqın tarixi keçmişindən, dastançılıqdan qidalanır. "Yarımçıq əlyazma" romanı postmodern bədii mətn kimi Kitabi-Dədə Qorqud dastanının dekonstruksiyasıdır. Kamal Abdullanın "bütləri dağıtmaq" ideyası "Kitabi-Dədə Qorqud" dastanında obrazların psixologiyası, günahdan sığortalanmamaq, Oğuz elində ideal cəmiyyətə münasibətlə birləşərək absurd səciyyəsi daşıyır. *"Kitabi-Dədə Qorqud" dastanında həmişə olduğu kimi əsərin qəhrəmanlarının psixologiyası haqqında heç nə yazılmır. Ona görə də bu əsərdə iştirak edən qəhrəmanların qarşılıqlı olaraq necə bir daxili çəkişmədə və münaqişədə olmaları, onların sevgi və nifrət hissləri haqqında demək olar ki, danışılmır. Bu prosesi yazıçı Kamal Abdulla öz bədii təfəkküründən məharətlə istifadə edərək canlı şəkildə təsvir etmişdir"* [111].

"Kitabi-Dədə Qorqud" dastanının dekonstruksiyası və Şah İsmayıl Xətainin həyat və yaradıcılığına absurd nöqteyi-nəzərindən yanaşma gerçəklik və onun postmodern strukturu baxımından rəngarənglik yaradır. Dədə Qorqud daha çox Türk dünyasının mənəvi mirası olduğu üçün müəllifin təhkiyəsi məhdud məkanla məhdudlaşır. Bir neçə il əvvəl tapıldığı iddia olunan "Salur Qazanın yeddi başlı əjdahanı öldürməsi boyu" da [79] digər boylar kimi dastanda Oğuz elinin yaşamı, ənənələri haqqında əsaslı təsəvvür formalaşdıraraq dastanın arxetipini müəyyən edir. Dastanın tapıldığı iddia olunan boyu absurd nümunəsi kimi digər boylar barədə də şübhələr yaradır. Professor Seyfəddin Rzayevin yeni tapılan boyu Türkmənistanda Salur Qazan haqqında mövcud olan çoxsaylı dastan-əfsanələrdən biri hesab etməsi [78] dastan ənənəsinin rəvayətdən daha çox əfsanəyə yaxın olduğu fikrini dəstəkləyir. Kamal Abdulla dastandakı boylardan bütləri dağıtmaq üçün istifadə edərək absurdun transfomasiyasına töhfəsini verir.

"Da Vinçi şifrəsi" romanında gerçəkliyin postmodern strukturu romanda baş verən hadisələrin gerçəklik və ya absurd olması ilə formalaşır. Absurd bir növ alternativ gerçəkliyin əsas bədii düsturu kimi diqqəti cəlb edir. "Den Braun bədii üçbucağı"nın romanda tətbiqi hadisələri, obrazlar sisteminin rəngarəngliyini həqiqət-yalan mübarizəsinin kulminasiya mərhələsinə çatdırır. Den Braunun absurdu hamıya məlum faktların daha çox ola bilmə ehtimalıdır. Müəllif Leonardo Da Vinçinin rəsm

əsərlərindəki sirlərin arxasında böyük həqiqətlər gizləndiyinə diqqət çəkir.

Den Braunun absurdu Leonardo da Vinçinin rəsmlərində gizlənib. İsa Məsih barədə sirlər təkcə Xristianlıq yox, eləcə də İslam, Yəhudilik, Deizm, Ateizm və s. ideologiya nümayəndələrinin maraq dairəsindədir. Romanda absurdun materialı Leonardo da Vinçinin həyat və yaradıcılığıdır. Müəllif bu geniş təfəkkürlü insanın rəsm əsərləri üzərində bədii oyun quraraq alternativ gerçəklik yaradır. Bu bədii oyun başqa sözlə elementar postmodernizmdir. Çünki romanda mətn əsaslı dekonstruksiya yoxdur. Leonardo da Vinçinin həyat və fəaliyyəti haqqında zəngin qaynaqların mövcudluğu tədqiqatçılar tərəfindən fərqli şəkildə yozulmuşdur. "Sonuncu axşam yeməyi", "Madonna mağarada", eləcə də "Mona Liza" kimi incəsənət nümunələrində müxtəlif sirlərin gizləndiyi ehtimalı yüksəkdir. Mövcud ehtimal Den Braun absurdunun təqdimatında fərqlilik yaradır. "Da Vinçi şifrəsi" romanında tədqiq olunan belə məsələlər roman boyu absurdla gerçəklik arasında var-gəl edir. "Da Vinçi şifrəsi" romanında absurd həm də müəllif təxəyyülünün intellektlə birləşməsidir. Sözügedən birləşmə Leonardo da Vinçinin əsərlərindəki sirlərin açılması cəhdi ilə əlaqəlidir. Den Braunun Leonardo da Vinçini realist və ya romantik şəkildə təqdim etdiyi naməlumdur. Bu qeyri-müəyyənlik gerçəklik və absurd anlayışlarını ayırmaqda çətinlik yaradır. Buna baxmayaraq alternativ gerçəkliyin bazasında müəllifin xəyal dünyası zənginliyi və reallığı əks etdirərək absurda çevrilir. Den Braunun absurdu həqiqətin nisbiliyinə söykənir. Bu başlanğıc tarixi həqiqətlərin deformasiyası kimi də qəbul edilə bilər. *"Kişi və qadının nəinki cismani, hətta ruhi cəhətdən birləşməsi olan təbii seksual yaxınlıq bir vaxtlar müqəddəs akt hesab edilirdi. İndi isə buna pis əməl kimi baxılır"* [25, s.148-149]. Örnək olaraq, Kamal Abdullanın "Yarımçıq əlyazma" romanında gerçəkliyin görünməzliyi absurdun təqdimatında verilir. "Yarımçıq əlyazma"ya "Den Braun bədii üçbucağı" vasitəsilə müraciət alternativ gerçəkliyin daha dəqiq müəyyən olunmasına imkan verir. "Yarımçıq əlyazma" romanı absurd nümunəsi kimi dastan poetikasının tarixi materiallarla əlaqəyə girməsidir. Kamal Abdulla absurd yaratmaqla alternativ gerçəkliyin utopikliyinə diqqət çəkir. Belə ki, absurdun subyektiv və ya obyektiv şərhi alternativ gerçəkliyi yaradan ilkin faktorlar hesab olunur.

Absurd bədii mətndə Leonardo da Vinçinin yaradıcılığına yeni baxış kimi [149] öz əksini tapır. “Da Vinçi şifrəsi” romanında intellektuallıq və əyləncəvilik alternativ gerçəkliyin bazasında formalaşır. Əsərdə absurdun transformasiyası onun alternativ gerçəkliyin daxilində oxşar və fərqli cəhətlərinin tapılması ilə müəyyənləşir. “Da Vinçi şifrəsi” romanı bədii mətn kimi gerçəkliyin absurd və alternativ gerçəkliyə nəzərən inikasıdır. Bu prosesi həyata keçirən əsas qəhrəman Robert Lənqdondur. Əsərdə Robert Lənqdon baş qəhrəman kimi romanda alternativ gerçəkliyin individual modeli kimi iştirak edir. “Da Vinçi şifrəsi” tarixi-roman janrında olmasa da, tarixi faktlara az da olsa münasibət göstərir. *“Yazıçı tarixi roman janrında olan və ya tarixi faktlara az da olsa münasibət bildirən əsərlərə əlavə detallar əlavə etdikdə bu alternativ tarix hesab olunur”* [172, s.23]. Romanda elmdin mübarizəsi fərqli formatda davam edir. Müəllifin Leonardo da Vinçinin əsərlərində axtardığı sirlər xristianların müqəddəs kitabı ilə üst-üstə düşməyən və rəsmi din xadimləri tərəfindən rədd edilən dini ədəbiyyatın – apokriflərin ətrafında ümumiləşir. Apokriflərin, eləcə də müəllifin digər faktik məlumatlarının təqdimi absurdun həllində önəmlidir.

“Da Vinçi şifrəsi” romanında absurd həqiqət və yalan arasında mübarizədə ədəbi dəyər qazanır. Bədii mətndəki hadisələrə gerçəklik, eləcə də absurd nöqteyi-nəzərindən yanaşıldığı zaman ciddi məsələlər ortaya çıxır [122]. “Da Vinçi şifrəsi” kimi “Yarımçıq əlyazma” romanı da bütləri dağıtmağı, modern düşüncəyə keçidin vacibliyini önə çəkir. “Da Vinçi şifrəsi” romanının təhkiyə aparatı absurdun xarakterizəsi üçün sadə təəssürat yaradır. Leonardo da Vinçi ətrafında qurulan təhkiyə intellektual səviyyədədir. Leonardo da Vinçi unikal şəxsiyyət kimi elmin bir neçə sahəsi ilə məşğul olmuş, böyük kəşflərə imza atmışdır. Den Braun onun həyat və fəaliyyəti ilə intellektuallığın absurdunu yaradır. *“Leonardo və astronomiya ilə bağlı mətnlərin götürüldüyü əlyazmaların tarixlərindən belə görünür ki, böyük ehtimalla Leonardo öz diqqətini həyatının son dövrləri ilə müqayisədə gəncliyində astronomik tədqiqatlara az yönəldib”* [193, s.701].

“Da Vinçi şifrəsi” romanındakı hadisələrin xəyal məhsulu olması an etibarilə bir ehtimaldır. Müəllif bu absurdu ehtimalla sübutun sərhədində saxlamaqla oxucunu

əlavə informasiya almağa yönləndirir. Əsərin əvvəlindəki "Leonardo da Vinçinin işlərində gizli şifrələr var" [25, s.1] qeydi, eləcə də Opus Dei, eləcə də Sion Prioratı haqqında fikirlər müəllifin faktik münasibətini əks etdirir. Bu proloqdan sonra romanın əsas hissəsi başlayır. Roman boyu yazıçının gerçəklik uğrunda mübarizəsi absurdun köməyi ilə təşkil olunur. Bədii mətndə həqiqətlə absurdun qarşıdurmasını Kilsəyə qarşı mübarizəsi ilə tanınan Sion adlı təşkilata bir sıra tanınmış şəxslərin – alimlər, yazıçılar, rəssamlar və başqa sənət nümayəndələrinin rəhbərlik etməsi ilə həqiqəti gücləndirir. Den Braunun faktik "Gizli dosyelər"i romanın absurd xarakterli məlumatlarını ehtimallar estetikasına çevirir. *"1975-ci ildə Paris milli kitabxanasında "Gizli dosyelər" adı ilə məlum olan bükülü əlyazmalar tapılıb. Bu dosyelərdə Sion Prioratının əksər üzvlərinin adı açıqlanır. Onların arasında İsaak Nyuton, Bottuçelli, Viktor Hüqo və Leonardo da Vinçi də var"* [25, s.2]. Den Braun romanda alternativ gerçəkliyi labüd hesab etsə də, müəllifin prozası bədii dil oyunları ilə zəngin deyil. Den Braunun ehtimalları absurd daxilində ehtimalların sonsuzluğuna çevrilir. Bu çevrilmənin mərkəzində bütləri dağıtmaq dayanır.

Leonardo da Vinçinin müxtəlif sənət sahələrinə dair zəngin bilik və təcrübəsi Den Braun intellektinin köməyi ilə absurddan həqiqətə keçid cəhdi kimi önəm kəsb edir. Müəllif həqiqətə keçid prosesində başqa formalardan da istifadə edir. Məsələn, romanda Xristianlıqdakı simvolların bir hissəsinin misirlilərin günəşə sitayişindən əxs olunması barədə yazılır. Eləcə də, romanda haqqında danışılan kəşflərin İslam mədəniyyəti ilə bağlı olması absurd haqqında əlavə mənbə rolundadır [121].

Den Braunun absurdu gerçəyə çevirmək cəhdi müasir dövrün xaosu, informasiya transferi baxımından uğurludur. İnformasiya bolluğu hazırkı dövrün insanlarını aqressivləşdirib. Ona görə də insanların gizli sirlərin açılmasında maraqlı olmaları başadüşüləndir. Sənət, əyləncə, dünyagörüşü kimi qavramların müasir dövrdə ciddi məzmun-forma dəyişikliyinə uğraması problemin fəsadlarından sadəcə biridir. *"Əlbəttə ki, müasir burjua mədəniyyətin tənqidi onları açıq şəkildə izləməkdə son dərəcə ehtiyatlıdır, lakin digər tərəfdən yüksək mədəniyyət və populyar mədəniyyət, sənət və əyləncə, məlumat və məcburi olmayan dünyagörüşü arasındakı fərqlər sayəsində arxayınlaşır"* [114, s.199].

Gerçəklik və onun postmodern strukturu sosial proseslərin mərkəzində dəyişir, xaosun təsiri ilə onun başqa bir versiyasına – qeyri-müəyyənliyə çevrilir. Den Braun qeyri-müəyyənliyi ustalıqla absurda çevirir. Bu prosesə mövzu rəngarəngliyinin əlavə olunması gerçəkliyə praqmatik baxışın göstəricisidir. Bu təəssürat romanda gerçəklik-absurd keçidinin kulminasiyasına çevrilə bilir. Mövzu və ideya hər iki romanda absurdun məntiqi mühakimələrlə gerçəkliyə çevrilməsi cəhdindən yaranmışdır. *"Fikrimcə, kor-təbii postmodernist adlandırılan Nitsşedən tutmuş Derridaya qədər, həmçinin müasir postmodernistlər hesab olunan Cean Baundrill, Cean-Françoys Lyotard, Qayatri Spirak və Yulya Kristeva kimi yazarları birləşdirən ümumi cəhət onların anti-essensialist və anti-fundamentalist olmalarıdır"* [80, s.24].

"Da Vinçi şifrəsi" romanında intertekstual əlaqə hadisələrin elementar kombinasiyası ilə məhdudlaşır. Leonardo da Vinçinin "gizli" fəaliyyəti, eləcə də Opus Dei və Sion Prioratı kimi təşkilatların dövrlərarası əlaqələnməsini Den Braun intellektuallıqla gücləndirir. Təhkiyə axını dinamik olsa da, metatəhkiyə məzmununda deyil. Robert Lənqdonun mühazirələri, eləcə də Sofinin babası Jak Sonyerlə bağlı xatirələri xaricində yerdə qalan hadisələr arasında dinamizm pozulmur. Məsələn, Kamal Abdullanın metatəhkiyəsi hər iki mətn komponentini bütləri dağıtmaq ideyasının ətrafında birləşdirir. "Yarımçıq əlyazma"da faktların təqdimi bir qədər fərqli olsa da, Kamal Abdulla postmodernizmin mahiyyətinə uyğun olaraq hadisələrin ardıcıllığını pozur. Misal olaraq, dastanda Təpəgöz iricüssəli, nəhəng varlıq kimi təsvir olunur. Anası Pəri onu barmağına üzük taxaraq ölümsüzləşdirir. Oğuz elində böyüməsinə baxmayaraq Təpəgöz insanlara divan tutur. Müəllif Təpəgözlə mübarizədə xalqın birliyini, qəhrəmanlığını alternativ gerçəkliyə çevirir. *"Oğuzlar yığışıb onun üzərinə gəldilər. Təpəgöz görüb qəzəbləndi. Bir ağacı qoparıb yerindən atdı. Əlli-altmış adam həlak elədi. İgidlərin başçısı Qazana elə bir zərbə vurdu, dünya başına daraldı"* [77, s.66]. "Yarımçıq əlyazma"dakı Təpəgözün (Təkgöz) sehrli varlıq olması dastanın mətni ilə səsləşir. Lakin onun cılız, sısqa bir kişi olması barədə məlumat dastan variantı ilə əkslik təşkil edir. Romanda Qorqud Basatdan Təkgözü necə yendiyini soruşur. Basat isə bunu Qoğan Aslanın köməyi ilə etdiyini, çox çətinlik çəkmədiyini deyir. "Yarımçıq əlyazma"da Basat qəhrəman

deyil, sadəcə olaraq onun bəxti gətirir. *"Heç sorma, Qorqud, - dedi. – Bu təkgöz dediyin bir bədheybət, cüssəli, qamətli biri heç deyilmiş. Amma sehri var idi. Təkgöz sehirbaz imiş, heç duydunuzmu?"* [5, s.239].

"Da Vinçi şifrəsi" romanında müəllif, əsasən Leonardo da Vinçinin, İsa Məsihin fəaliyyətində mifik, fantastik çalarlar əlavə etməklə rəngarənglik yaradır. Müqəddəs Qraalın axtarışı prosesi bu rəngarəngliyi ehtimallar estetikasına çevirir. Mariya Maqdalinanın şəxsiyyəti, İsa Məsih haqqında qaranlıq məsələlər Leonardo da Vinçinin əsərləri üzərindən mənalandırılır. Romandakı məlumatlar Leonardo da Vinçinin əldə olan əsərləri ilə üst-üstə düşmür. Den Braun Leonardo da Vinçinin əsərlərini absurd daxilində simvollarla bəzəyir. Əlavə olaraq, müəllif gizli təşkilatların fəaliyyətini bu prosesin tərkib hissəsinə çevirərək absurdun ehtimal dairəsini məhdudlaşdırır. "Den Braun bədii üçbucağı"nın tətbiqi ilə absurd romanın təhkiyə aparatının özəyinə çevrilir. Obrazlar sisteminin ayrı-ayrılıqda hadisələrdə iştirakı absurdun çoxçalarlılığına xidmət edir. Məsələn, Opus Deinin sadiq üzvü olan Saylas Jak Sonyerin qatilidir. Dini sektanın üzvü kimi o özünü günahkar hesab etmir. Saylas obrazının şəxsində qətl aktını nisbiləşdirən Den Braun müasir dövrün xaosunu böyük təhlükə hesab edir. *"Bu gün Tanrıya xidmət günah işlətməyi, qətl törətməyi tələb edirsə, bunları etməlisən. Çünki bunları Allah xatirinə edirsən və əvəzində mükafatlandırılacaqsan. Sənin inamının ölçüsü dözə biləcəyin ağrının miqdarı qədərdir"* [25, s.90-91]. Nümunə olaraq, "Yarımçıq əlyazma"da insanların ali dəyərlərə münasibəti fərqlidir. "Den Braun bədii üçbucağı"nın dini və sosial xətlərini "Yarımçıq əlyazma"da tarixi xətt formalaşdırır. Oğuz eli qədim türk ənənələrini qoruyub saxlayaraq İslam həyatı yaşayır. Dastanda təkarvadlılıq, qadınların ata minib ox atması kimi nümunələr kifayət qədərdir. "Yarımçıq əlyazma"da Dədə Qorqud Nur daşından güc alır. Kamal Abdulla bu təqdimatla Dədə Qorqudu müqəddəslikdən xilas edərək postmodern gerçəkliyin subyektinə çevirir. *"Nur daşının hikmətləri olmasaydı mən kim idim ki?! Ancaq və ancaq Qorqud idim. Qorqud dedinmi yetər. Nur daşı məni Qorqud ata yapmadımı?! Nur daşı məni Dədə yapmadımı?"* [5, s.70].

Tarix düzxətli inkişaf prosesi deyil. Buna görə də tarixin alternativ gerçəkliyə çevrilməsi ehtimalı yüksəkdir. Mövcud ehtimal hər iki romanın təhkiyə aparatında

əks olunur. Postmodernizmin pərakəndəliyi də ehtimallardan formalaşır. Müasir dövrün qeyri-müəyyənliyi postmodern romanların strukturuna da təsir edir. Bu mənada Den Braunun və Kamal Abdullanın alternativ gerçəklik konsepsiyası tarixin absurdudur. Haqqında danışılan romanların təhlili zamanı tarixin düzxətli inkişaf prosesi olmaması nəzərə alınmışdır. *"Postmodernist poetikaya görə, tarix düzxətli inkişaf prosesi olmayıb, bir-birinə bağlılığı olmayan hadisələri bir məcrada qovuşdurmağa edilən cəhddən ibarətdir. Bu konsepsiyanın fraqmentarlıq, xaos və s. kimi əsas prinsiplərini nəzərə almayan müəlliflər "Yarımçıq əlyazma" romanını ənənəvi elmi-nəzəri baxış bucağından təhlilə çəkmişlər"* [87, s.4].

Den Braun romanda Xristianlığın Katolik qolunu təhkiyə materialına çevirir. Katoliklik Xristianlıq dininin ən böyük qoludur. Katolisizmin dünyada təxminən bir milyard ardıcılı var. Təsadüf deyil ki, İsa Məsihin həyatı, fəaliyyəti haqqında çoxlu kitablar yazılmışdır. Müəllif Xristianlıq haqqında tarixi, ədəbi, mədəni və başqa formalı məlumatların zənginliyindən maksimum istifadə edir. İsa haqqında məlumatlar romanda detektiv xətlə verilir. Jak Sonyerin öldürülməsi, nəvəsi Sofi Neve ilə Robert Lənqdonun qətlin izinə düşməsi, Kripteks simvolu, eləcə də İsa Məsih və Mariya Maqdalina haqqında gerçəklər [Elmi nəticənin nəşri üçün bax: 38] fərdi absurddur. Jak Sonyer mahir incəsənət bilicisi idi. Öz nəvəsini də bu ruhda böyütmüşdü. Jak Sonyerin diqqəti və qayğısı Sofinin yaxşı mütəxəssis kimi yetişməsinə təsir etmişdi. Den Braun Jak Sonyer haqqında olan tarixi bilgilərdən absurdun məhvi üçün istifadə edir. Bu bilgilər İsa Məsihin həyatı haqqında olan məlumatlarla ortaq informativ statusdadır. Den Braun romanda Müqəddəs Qraalı mənəvi ayinə çevirir. Müəllif Kripteks simvolu vasitəsilə reallıqlara işıq tutaraq fərdi gerçəkliyin absurdunu yaradır. *"Jak Sonyer xəzinə axtarışı zamanı Neveni də incəsənətlə tanış edir. O, Nevenin öz hədiyyəsini tapması prosesini bu vasitə ilə çətinləşdirir. Kripteks Jak Sonyerin xəzinə axtarışında indiyə kimi istifadə etdiyi bir sənət əsəridir. Kripteks Da Vinçinin ixtiralarından biridir. Bu, gizli məlumatları mühafizə etmək üçün saxlanc rolunu oynayır. Nevenin ad günündə Jak Sonyer kripteksi bir neçə dəfə xəzinə axtarışına cəlb edilmək üçün hazırlamışdı"* [166, s.76].

Den Braunun həqiqətləri fərdidən ümumiyə keçə bilmir. Onun yazdıqları fərziyyəyə daha yaxındır. Müəllifin məqsədi insanların həqiqətə baxışını dəyişmək deyil. Onları alternativ gerçəkliyin mövcudluğuna inandırmaqdır. Müəllif alternativliyi versiya kimi irəli sürür. Den Brauna görə, İsanı müqəddəsləşdirmək onun gerçək şəxsiyyətini kölgələyir. Başqa sözlə, Den Braunun məqsədi qəti idi: "İsanı göydən yerə endirməyin zamanı çatıb". İncil İsanı ilahi varlıq kimi təqdim etməklə onu insanlardan uzaqlaşdırır. *"İsa bizə sülh... sevgi... öyrədir. O, zorakılığı rədd etmişdir. Axır zamanlar Saylas bunu öyrənmişdi və bu sözlər onun ürəyində möhkəm yer tutmuşdu. Amma indi, Məsihin düşmənləri onun təlimini dağıtmaq, məhv etmək istəyirlər. Kim ki, Allahı qılıncla hədələyir, qılıncla da öləcək. Sürətli və amansız qılıncdan"* [25, s.41].

Den Braun elmlə dini müqayisə edərək şəxsiyyət amilini qabardır. "Da Vinçi şifrəsi" romanının da mahiyyətində həqiqət axtarışı konsepsiyası dayanır. Sadəcə, Den Braun həqiqət axtarışına çıxmaqla kifayətlənmir. Müəllif romanda həqiqət axtarışını alternativ gerçəkliyə çevirir. Den Braun müasir dövr insanının istək və tələblərinə yaxşı bələddir. O, insanların həqiqət anlayışının ciddi mənada dəyişdiyini başa düşür. Məhz bu səbəbdən subyektivliyini dinlə elmin hibridinə çevirir. Yazıçının təmiz din anlayışı xurafatı inkar edir. Elm isə ifrat tərəqqidən imtina etdiyi halda əsl elm olacaq. *"Dinlə elmi qarışdırmağın nə mənası? Axı, xalis mömin elmlə ciddi surətdə məşğul ola bilməz. Dinin isə öz doğruluğunu sübut etmək üçün maddi dəlillərə ehtiyacı yox idi"* [25, s.177].

Məsələn, "Yarımçıq əlyazma"dakı cəmiyyət postmodernizm və paranoya formasındadır. Pərakəndəlik, xaos bu cəmiyyəti təsirinə almışdır. Kamal Abdulla insanları reallığın mümkün variantları olduğuna inandırmağa çalışır. Müəllifə görə, Oğuz elinin sakinləri heç də hər zaman vətən təəssübü çəkməmişlər. Dastanda Dədə Qorqud böyük şəxsiyyətdir, qeybdən xəbər gətirir. Kamal Abdulla "Yarımçıq əlyazma"da Qazan xanın timsalında bu məlumatdan casusu tapmaqdan ötrü istifadə edərək alternativ gerçəklik yaradır. *"– Mən buldum. – Qazan sevincək oldu. – Dədəni çağıraq. Qorqudu. O elə həmişə deyir ki, haqtaala mənim könlümə ilham edir. Mən qayibdən türlü xəbərlər verə bilirəm. Heç biz bunu yoxlamadıq"* [5, s.133].

Dədə Qorqud, Şah İsmayıl Xətai, eləcə də İsa Məsih tarixi şəxsiyyət olduqları qədər də ədəbi surətlərdir. Hər üç şəxsiyyətin din motivi vasitəsilə təqdimatı onların ədəbi obrazları ilə mənəviyyat kodeksində kəsişir. Oğuz igidləri qələbədən sonra Məhəmmədə salavat göndərirlər. Şah İsmayıl Xətai İslamın Şiəlik qolunun ardıcıllarından biri kimi tanınır. Şəxsiyyət olaraq Dədə Qorduqu, İsa Məsihi, Şah İsmayılı müqəddəsləşdirmək mühit olaraq Xristianlığı, Oğuz elini və eləcə də geniş mənada böyük tarixi şəxsiyyətləri əlçatmaz etməkdir. Belə olduqda, Tövratın "öldürmə", İncilin "sev", Quranın "oxu" mesajları absurda çevrilir. Məsələn, Dədə Qorqud Bamsı Beyrəyin adını qoyarkən onun qəhrəmanlıq göstərdiyini zənn edir. Dastandakı qəhrəmanlıq motivini romanda hiylə motivi əvəz edir. *"– Dədə, bunu sənə söyləyim yalnız. O düşmən dedikləri öz yar-yoldaşım idilər. Öncədən göndərdim bəziganları hay-küy salıb qorxutdular. Sonra mən təpdim. Pərən-pərən etdim"* [5, s.63].

"Da Vinçi şifrəsi" romanında absurd yazıçının fərdi həqiqətlərinin toplusudur. Bu həqiqəti ümumiləşdirmək üçün fərziyyələri fakta çevirmək lazımdır. 1960-cı ildə Paris milli kitabxanasında "Dossiers Secrets" adlı sənədlərin tapılması ilə Sion Prioratının varlığının həqiqət olma ehtimalı artmışdı. Den Braun romanda "Dossiers Secrets" vasitəsilə alternativ gerçəklik yaratmağa çalışır. Sion Prioratı 1099-cu ildə yaradılmışdı. Təşkilatın rəhbərləri arasında İsaak Nyuton, Leonardo da Vinçi kimi şəxslərin adı var. Müəllif də bu məlumatlar əsasında absurdun sahəsini daraltmağa çalışır. Bu münasibət absurd olaraq uğurlu, fakt olaraq zəifdir. *"Bütün Dünya, bu kodları çözmək dərdinə düşdü, ancaq "Dossiers Secrets"-in bu ssenarisinin də gerçəkliyindən şübhələnmək üçün bir çox ciddi səbəb vardır. Sözdə 1960-cı illərə aid saxta sənədlər olduğuna dair sübutlar olduğu kimi, ayrıca, bu ifadələr elə qarışıq və formaldır ki, deşifr edilmələri necə deyərlər, imkansızdır"* [145, s.94].

Nümunə olaraq, Kamal Abdullanın absurdu transformasiya cəhdləri dastanın mifizminə nisbətən daha inandırıcıdır. Mövcud münasibət təkcə yazıçının absurdu deyil, onun mifə, eposa və tarixə olan münasibətidir. Alternativ gerçəkliyin yaranması üçün tarix olmalıdır. Ədəbiyyatın işi bu tarixin formasını müəyyən etməkdir. *"Yarımçıq əlyazma" Azərbaycan ədəbiyyatında mifə, eposa və tarixə*

*intellektual-fəlsəfi bədii münasibətin ilk konseptual nümunəsidir, ilk postmodernist təfsir təcrübəsidir..."* [63, s.54]. "Kitabi-Dədə Qorqud" dastanına görə, Qazan xan ovda olarkən düşmən onun evini talayır. Yoldaşını, anasını əsir alır. "Yarımçıq əlyazma"da bu məlumat formasını dəyişir. Qazan xanın anasına görə digər doğmalarını əsirlikdə saxlamağa razı olması ideal cəmiyyətin standartlarına uyğun gəlmir. Kamal Abdulla alternativ gerçəklik yaradaraq dastanın mifizmini ümumi absurda çevirir. *"Nə çalmısan, nə çapmısan sənin olsun. Arvadım qaravaşın olsun, oğlum nökərin olsun. Anamı ver – bəsimdi". Sonralar Bayındır Xanın hüzurunda Qazan belə bir xəbər göndərməyini "hiylə edirdim" deyib qələmə verdi"* [5, s.40]. Kamal Abdulla absurdu Den Braundan fərqli olaraq rəsmlərə, incəsənətə yox, xalqın düşüncə tərzinə transformasiya edir.

Müqəddəs Qraalın əşyadan mənəvi akta çevrilməsi Den Braun absurdunun estetik elementidir. Bu element romanda yazıçı məntiqi vasitəsilə alternativ gerçəkliyin yaradılmasına kömək edir. Den Braun sözügedən intellektual metod vasitəsilə hadisələrin gerçəklik olub-olmamasını araşdırır. Yazıçı insanların Qraalı axtarmaq cəhdini həqiqəti axtarmaq cəhdinə çevirir. *"Ümumi qəbul edilmiş fikrə görə, Qraal piyaləsi – bəşər tarixi ərzində insanların tapmağa çalışdıqları xəzinədir. Onun haqqında çoxlu əfsanələr yaranıb. O bəzi insanların ömrünü sərf etdiyi axtarışların və müharibələrin səbəbi olub. Əgər doğrudan da Qraal bir piyalədirsə, bütün bunlara dəyərmi?"* [25, s.193]. Müəllif Müqəddəs Qraalın mahiyyətini Qadın başlanğıcı ilə bütövləşdirir. Kişi və qadın başlanğıclarının balanslaşdırılması harmoniyanı yaradan bir vasitə idi. *"Qədim insanlar dünyanı iki yerə bölürdülər – kişi və qadın. Onların eyni sayda tanrı və ilahələri vardı. İn və Yan. Kişi və qadın başlanğıclar balanslaşdırıldıqda dünyada harmoniya hökm sürür"* [25, s.47].

Den Braunun postmodernistcə yazılmış bu intellektual bədii mətni absurdun fərqli nümunəsi hesab edilə bilər. "Da Vinçi şifrəsi"ndə absurdun transformasiyası alternativ gerçəkliyi formalaşdıran birinci istiqamətdir. Romanda absurdun analizi nəticəsində aydın olur ki, absurd özü də gerçəkliyin bir formasıdır. Başqa sözlə, absurdun transformasiyası absurdla həqiqətin eyniləşdirilməsi cəhdləridir. Beləcə, ədəbiyyatşünaslıqda bütün cərəyanların realizmin bu və ya başqa şəkildə şərhi olması

hipotezi önə çıxır. Romanda absurdun transformasiyasının şərhi ilə bədii mətndə intellektuallıq və əyləncəvilik üçün zəmin hazırlayır.

## 2.2. "Da Vinçi şifrəsi" romanında intellektuallıq və əyləncəvilik

İntellektual ədəbiyyat oxucudan yüksək peşəkarlıq və məlumatlılıq tələb etdiyi üçün ona daha çox kütlənin elmli, savadlı kəsimi tərəfindən müraciət olunur. Bu tipli ədəbi nümunələrlə tanışlıq İntellektual əsərlər aktual mövzuları əhatə edir. Bu mövzular ciddiliyi və mürəkkəbliyi ilə seçilir. Sadəcə informativ tipli əsərlərə xas olan məlumat transferi, eləcə də əyləncə ədəbiyyatının şou komponenti intellektual romanlarda daha təkmildir. İntellektual roman ümumilikdə ağıllı oxucuları düşündürən, informasiya və əyləncə ədəbiyyatına bənzəməyən [18] roman növüdür.

ABŞ ədəbiyyatı, əsasən, XVII əsrin əvvəllərində [135] yaranmağa başladı. Amerikan ədəbiyyatı keçdiyi inkişaf yolu ilə digər ədəbiyyatlarla müqayisədə daha gəncdir. Gənc olmasına baxmayaraq amerikan ədəbiyyatı konseptuallığı ilə seçilir [144]. ABŞ ədəbiyyatında çağdaş postmodern dövrdə bu tendensiya genişləndi. Müxtəlif roman növlərinin mövcudluğu [185] postmodern dövrdə fərqli formada təkmilləşdi. Konyuktura ədəbiyyatı önə keçdi. ABŞ ədəbiyyatında intellektual nəsrin ingilis ədəbiyyatından təsirlənməsi məlumdur. Qraham Qrin [161; 162], Elizabet Boven [152; 153] kimi ingilis yazıçıların intellektual romanlarının təhkiyə aparatında amerikan intellektual nəsri ilə oxşarlıqları çoxdur. Amerikan ədəbiyyatında da intellektual nəsrin kifayət qədər örnəyini görmək mümkündür. Nəzərə alınmalıdır ki, intellektual nəsr nümunələrində böyük ölçüdə əyləncəvilik komponentləri olur. Məsələn, Con Apdaykın "Dovşan" tetralogiyasına aid romanlarında [195; 196; 197; 198], eləcə də Luis Sinklerin "Erousmit" [189] romanında intellektuallıq və əyləncəvilik yüksək səviyyədədir. Con Apdaykın romanlarında Dovşan ləqəbli Harri Enqstromun daxili təbəddülatları ABŞ-nin orta təbəqəsinin üsyanı kimi diqqət çəkir. Tetralogiyada insanın psixoloji xüsusiyyətləri məharətlə işlənir. Dovşanın xüsusiyyətləri insan üzərinə köçürülür. "Erousmit" romanında Luis Sinkler həkim Martin Erousmitin timsalında insanın daxili dünyasını subyektivlikdən ümumbəşəri prizmaya daşıyır. Con Steynbekin "Qəzəb salxımları" romanı da [104] dövrünün

mükəmməl mənzərəsini göstərmək baxımından ciddi intellektual təhkiyə aparatına malikdir. İntellektual ədəbiyyat nümunələri informasiya sağlamlığı və təhkiyə, ideya-bədii komponentləri baxımından postmodernizmə yad deyil. İntellektual ədəbiyyatda rekonstruksiya, dekonstruksiya, pastiş, eləcə də postmodernizmin digər xüsusiyyətlərinin bədii nümayişi mümkündür. Ədəbiyyat nəzəriyyəçisi İxab Xassan "Orfeyin parçalanması: postmodern ədəbiyyata doğru" [169] kitabında ədəbiyyatda baş verən rekonstruskiya haqqında dolğun məlumat verir. Köhnə mətnlərin yenidən qurulması bu mənada postmodernizmin əsas komponentlərindən biri kimi önəm kəsb edir. Alternativ tarixin intellektual tarixlə [187] birləşməsi intellektual romanlarda mövzulararası əlaqəni gücləndirir.

Den Braunun "Da Vinçi şifrəsi" romanı intellektual nəsr nümunəsi kimi diqqəti cəlb edir [Elmi nəticənin nəşri üçün bax: 40]. Digər intellektual romanlarda olduğu kimi bu romanda da informativlik intellektuallıqla birləşir. Tədqiqatçı Fəxriyyə Rəhimova yazır: *"Dən Braun oxucu diqqətini cəlb etməyə, onu əyləndirməyə hesablanmış klassik nümunələrdən fərqli olaraq, bəsit oxucu səviyyəsinə enmir, əksinə, onu düşünməyə, intensiv şəkildə dünya haqqında yeni-yeni biliklər əxz etməyə təhrik edir. Bu məqsədlə yazıçı, bir qayda olaraq, elita üçün nəzərdə tutulmuş intellektual roman janrını detektiv elementlərin hesabına geniş oxucu kütlələrinin qavradığı ədəbi-bədii nümunələrə çevirərək işləyir"* [99, s.16].

"Da Vinçi şifrəsi" romanında absurdun transformasiyası intellektuallığın bədii məziyyətlərini təyin etmək baxımından önəmlidir. Alternativ gerçəkliyin dekonstruksiya, rekonstruksiya kimi postmodern elementlərlə zənginləşməsi "Da Vinçi şifrəsi" romanında intellektual təhkiyənin tərkibində əriyir. "Da Vinçi şifrəsi" intellektual roman nümunəsi kimi alternativ gerçəkliyi tədqiqat predmetinə çevirmək cəhdidir. Den Braunun intellektual izahları alternativ gerçəkliyin sahəsini genişləndirir. Tədqiqatçı Fəxriyyə Rəhimova bu romanın geniş erudisiyaya malik oxucular tərəfindən oxuna biləcəyinə diqqət çəkir. *"Da Vinçi şifrəsi" romanı oxucunun yalnız yüksək müşahidə qabiliyyəti ilə kifayətlənmir, eyni zamanda ondan geniş erudisiya, Orta əsrlər və İntibah dövrü haqqında dərin biliklər tələb edir"* [99, s.15]. Müəllifin obyektiv və ya subyektiv yanaşmaları müasir roman anlayışının,

eləcə də, Amerikan və Azərbaycan roman ənənəsində mövcuddur. Azərbaycan ədəbiyyatında postmodern roman ənənəsi yeni formalaşıb. Amerikan ədəbiyyatında isə bu ənənənin kökləri daha əvvələ aiddir. Amerikan ədəbiyyatının keçdiyi intellektual və estetik yol Den Braun bədii mətnlərində dinamizmi, obyektivliyi ilə iştirak edir. *"Amma Amerikan ədəbiyyatı bugün gözümüzə heç də sevimli şahzadə görünüşündə görünmür. Kişi kimi tox gözlülüyü, qabalığı, həddən ziyadəliyi ilə daha çox bir boksçusunu xatırladır"* [125, s.83].

"Da Vinçi şifrəsi" romanında Leonardo da Vinçi, İsa Məsih, Mariya Maqdalina və b. şəxslərin timsalında formalaşan təhkiyə intellektuallığın daxilində şəkillənir. Zəngin informasiyalar sayəsində Opus Dei, Sion Prioratı, həmçinin Kilsə haqqında əlavə məlumat almaq ehtiyacı yaranır. Romanın əvvəlindəki faktlar nəzərə alınmaqla Den Braun Opus Dei, Sion Prioratı kimi təşkilatları psevdohəqiqətdən kənarda saxlayır. Müəllif bu təşkilatların fəaliyyətini absurda çevirərək intellektuallıq və əyləncəviliyin bazasını təkmilləşdirir. Başqa sözlə, bu bədii aysberqin görünən tərəfi həqiqət, görünməyən tərəfi isə absurddur. Den Braun özünün yaratdığı alternativ gerçəkliyi tənqid edir. Onun tənqidi tarixlə dinin birləşməsidir. Bunu sosial hadisə də adlandırmaq olar. Romanda hadisələrin davametmə trayektoriyası detektiv janrla intellektual nəsri birləşdirir. Romanda postmodernizmin elementləri mövcud cəmiyyətin xaosu kimi diqqət çəkir. Modernizmin inkar ənənəsini postmodernizmdə inkarı inkar yanaşması əvəzləyir. Postmodern dövrün pərakəndəliyi kapitalizmin təsiri ilə böyüyür. Ədəbiyyatın, incəsənətin, mədəniyyətin sosial cəhətdən zəifləməsi nəticəsində "sənət sənət üçündür" fikrinin də mahiyyəti dəyişir. Belə ki, kapitalizmin geniş yayılması artıq ədəbiyyatda da konyuktura mövzularının tətbiqinə imkan verir. Sovet dövründə yayılan "sifariş ədəbiyyatı" ənənəsi kapitalist cəmiyyətdə "kommersiya ədəbiyyatı"na çevrildi. Bu sosial ənənələr davam etdikcə müqavimət zəifləyir, nisbiləşmə güclənir. *"Çoxmillətli kapitalizm təbiət və şüursuzluq daxil olmaqla, dünyanın ən uzaq nöqtələrinə belə nüfuz etdiyinə görə, heç biri bu prosesdən kənarda qalmamışdı. Müqavimət əbəs görünür. Ədəbiyyat sosial cəhətdən öz ciddi funksiyasını itirmiş kimi görünür. Təəccüblü deyil ki, tənqidçilər əlavə və səsvermə vasitəsilə seçmə ilə bağlı fikirlərə qərq olublar"* [175, s.448].

“Da Vinçi şifrəsi” romanında informativlik intellektuallığın bazasında təşəkkül tapır. Yazıçı bu metodu bədii texnologiyaya çevirərək bədii mətni zənginləşdirir. Romana çəkilmiş filmdən [120] fərqli olaraq mətndə vizuallıq daha çox sadə təsir bağışlayır. Lakin Müqəddəs Qraal əfsanəsi filmə nisbətən romanda daha uğurlu alınıb. Eyni sözləri “Nəşnl Coğrafik”in (National Geographic) sənədli filmi [142] haqqında demək olmaz. Bu sənədli filmdə Den Braunun qaldırdığı məsələlər daha dərindən incələnir. Ümumi olaraq, Den Braunun hadisələri intellektual təqdimi faktoloji cəhdlə informativ münasibətin hibrididir. *“1928-ci ildə ispan keşişi Xose Mari Eskriva tərəfindən əsası qoyulmuş bu dini cəmiyyət qədim katolik dəyərlərinə qayıtmağı təbliğ edirdi. Öz tərəfdaşlarına “İlahi günün şərəfinə hər şeyi, hətta öz həyatlarını belə qurban verməyi öyrədirdi”* [25, s.38]. Den Braun alternativ gerçəkliyi intellektual səviyyəyə qaldırır. Misal olaraq, “Yarımçıq əlyazma” romanının intellektual nəsr nümunəsi kimi təqdimatı zəif olsa da, bədii mətndə intellektuallıq və əyləncəvilik güclüdür. “Yarımçıq əlyazma”da alternativ gerçəkliyin intellektuallığı dastan poetikası ilə əvəzlənir. “Yarımçıq əlyazma” romanında vizuallıq absurdun daxilində, metatəhkiyənin komponenti kimi cərəyan edir. Romanda hadisələrə intellektual yanaşma tərzi mifikdir. Bu baxımdan hər iki romanda informativliyin vizuallığa keçidi labüddür. “Yarımçıq əlyazma”nın bədii oyun texnologiyası dastan poetikasının müasirləşdirilmiş təqdimi ilə gerçəkləşir. Kamal Abdullanın “Yarımçıq əlyazma”da “Kitabi-Dədə Qorduq dastanı” və Şah İsmayıl Xətainin həyat və fəaliyyətinə münasibəti birmənalıdır. Dastanda “Bayborənin oğlu Bamsı Beyrək” boyundakı obrazlardan olan qırx oynaşlı Boğazca Fatma “Yarımçıq əlyazma”da casusun anasıdır. Eləcə də, “İç Oğuza Daş Oğuzun dönük çıxması və Beyrəyin öldüyü boy”dakı Qılbaş romanda əsas sürətlərdəndir. Dədə Qorqud romanda adi bir obraz kimi təsvir olunur. Müəllif Dədə Qorqudu ümumi dəyərlərin simvolu kimi təqdim edir. Dastanda əsas qəhrəman sözün geniş mənasında Böyük Oğuz elidir. Müəllif alernativ tarix yaratdıqca insanın özünü qəhrəmana çevirməyə cəhd edir. *“Ancaq Qorqud bu əsərin qəhrəmanı deyil, heç əslində ona obraz da demək olmaz. O, bir rəmzdir – türkün ağsaqqala, müdrik söz sahibinə hörmətinin rəmzidir. Boyların hamısı üçün ümumi qəhrəman surəti Böyük*

*Oğuz elidir"* [77, s.6]. Şah İsmayıl Xətai Dədə Qorqudla müqayisədə daha real qəhrəmandır. Şah İsmayıl Xətai bir şəxsiyyət kimi Azərbaycan tarixində və ədəbiyyatında önəmli rola sahibdir. Kamal Abdulla onu oxucuya tamam fərqli şəkildə təqdim edir. Başqa sözlə, Xızr vasitəsilə Şah İsmayılın həyatını müəyyən edir. Çaldıran döyüşündən sonra Xətainin həyatında ciddi dəyişikliklər baş verir. "Yarımçıq əlyazma"ya görə Şah İsmayıl Xətai savaşda ölür. Onun yerinə isə oxşarı Xızr keçir. Poeziya ilə məşğul olan da Şah İsmayıl yox, elə Xızr özüdür. *"Çaldıran döyüşünə qədər saray həyatı Xızr üçün çox mülayim keçirdi. Qəfildən Allaha xoş getməyən bu namünasib savaşdan sonra onun da həyatı başdan-başa dəyişdi"* [5, s.142].

Kamal Abdulla roman vasitəsilə dastana yeni nəfəs verir. Məsələn, Qazan xanın ovda Beyrəyin məharətini onun deyil, atın məharəti kimi təqdim etməsi dastanın mətnində də var. Beyrək bundan inciyib eldən köçməyə hazırlaşanda Banuçiçək ona mane olmağa çalışır. Ona ova gedib fikrini dağıtmağı, padşahına asi olmamağı məsləhət görür. Romanda Beyrəyin əlbəyaxaya çıxması dastanın alternativ gerçəkliyidir. *"Arvadı deyir: İgidim, bəy igidim! Padşahlar Allahın kölgəsidir. Padşahına ağ olanın işi düz gətirməz*" [77, s.277].

"Da Vinçi şifrəsi" romanı detektiv janr nümunəsi kimi alternativ gerçəkliyin kölgəsində qalır. Romanda Qraalın axtarışı intellektual təfəkkürün təhkiyəsidir. Tarixi simvol Müqəddəs Qraal "Da Vinçi şifrəsi"ndə mənəvi akt kimi insanın saflaşmasını, təmizlənməsini, katarsisini tərənnüm edir. Den Braunun alternativ gerçəkliyinin absurdu, eləcə də intellektuallığının yekunu belədir: insan hədəfə doğru getməlidir, hədəfinə çatsa da, çatmasa da keçdiyi yol onu güclü edəcək. Ali həqiqət əslində o həqiqətin əlçatan olmasıdır. Bu ali həqiqət Leonardo da Vinçinin yaradıcılığına gedən yolda müəyyən olunur. Hadisələrin gerçəklik və ya alternativ gerçəklik olaraq mürəkkəbləşməsi gerçəkliklə yalanın müqayisəsində itir. Romanda vacib məsələlərdən biri alternativ gerçəklik anlayışı ilə həqiqət anlayışını fərqləndirməkdir. "Da Vinçi şifrəsi" intellektual romanında bu fərqi müəyyən etmək zəruridir. Romanda müşahidə olunan vahidlik, tamlıq prinsiplərinin pozulması yazıçının oxucuya subyektiv münasibətidir. Fikirlər, ideyalar vahid olsa da, geniş

təəssürat daşıyır. Ədəbiyyatın həm də bir estetik hadisə olması bədiiliyin mahiyyəti əsasında formalaşır. "Da Vinçi şifrəsi" romanıında bədiilik nisbətən zəif olsa da, əsərin vahid ideyası bədii mətni struktur olaraq möhkəmləndirir. Başqa sözlə, ayrı-ayrı tarixi faktlar vasitəsilə alternativləşən tarix estetikanın tərkibində daha maraqlıdır. *"Estetik bir hərəkət hər şeydən qabaq, vahidlik, tamamlanma xüsusiyyətləri daşıyan ayrı-ayrı obyektlərin təzahürüdür. Özəlliklə tamlıq, estetik qavramanın başlıca qaynağıdır. Tamlığa sahib olan obyektin ayrı-ayrı parçaları da onun birliyinin izlərini daşıyır. Bu obyekt ən yüksək səviyyədə düzənlənmiş və tamamlanmışdır; heç bir dəyişiklik və ya əlavə etmə lazım deyil"* [132, s.62].

Ədəbiyyat filologiyanın komponenti kimi dilsiz təsəvvürə gəlmir. Bu mümkünsüzlük postmodernizm daxilində bədii dil oyunları vasitəsilə pərakəndəliyə çevrilir. Bunlar təhkiyənin və metatəhkiyənin ideya-bədii strukturunu formalaşdıran əsas ünsürlərdəndir. İntellektual romanlarda da məzmun-forma kombinasiyası bu mümkünsüzlüyün daxilində təşəkkül tapır. Den Braunun dil texnikası intellektual nəsrin tələblərinə tam cavab vermir. Lakin müəllif hadisələrin böyüklüyü ilə vəziyyətdən çıxmağa çalışır. Den Braun bu iki komponenti balanslaşdırır. Liotarın konsepsiyasına görə, dil vasitəsilə modernist mücərrədlik məhvə gedir. Sosiallığı linqvistik olaraq təqdim edən Liotar qeyri-müəyyən dil oyunlarından istifadəni modernist abstraktlığın məhvinə səbəb kimi təqdim edir. Bu baxımdan romanda mücərrədliyin məhvə doğru gedişatı fərqlidir. Den Braunun dil texnikası bu konsepsiyanın icrasına xidmət etmir. Liotar bu mənada olduqca fərqli bir arqument irəli sürür. O, dil vasitəsilə modernist abstraktlığı məhvin ən pik həddinə çatdırır, digər tərəfdən *"Sosial əlaqə linqvistikdir, bu tək bir zəncir ilə deyil, qeyri-müəyyən sayda dil oyunları ilə birləşdirilmişdir"* [139, s.46] – deyə iddia edir.

"Da Vinçi şifrəsi" romanında intellektuallıq və əyləncəvilik "Den Braun bədii üçbucağı" vasitəsilə möhkəmlənir. Romanın detektiv bədii mətn kimi təyinatı intellektuallığın sərhədlərini pozur. Lənqdonla Sofinin qaçısı nümunəsində romana macəra xüsusiyyətləri əlavə olunur. Den Braun intellektual nəsri əyləncə ədəbiyyatına yaxınlaşdıraraq rəngarənglik yaradır. Yazıçı Müqəddəs Qraal əfsanəsinin tarixi mahiyyətini açmaq əvəzinə Lənqdonla Sofinin macərasını

işıqlandırır. Bu paradoksallıq intellektuallığa hesablanmış ədəbi aktdır. "Da Vinçi şifrəsi"ndə həqiqət də absurd qədər zəruridir. Məsələn, bu paradoksallıq məqsəd baxımından "Yarımçıq əlyazma"nı üstələyir. Kamal Abdulla sadəcə olaraq dastanın mətni üzərində müəyyən bədii oyunlar qurur. Qraalın tapılması cəhdi "casus"un tapılması cəhdindən daha dərindir. Şah İsmayıl Xətainin siyasi və hərbi fəaliyyəti, Çaldıran döyüşündə uğradığı məğlubiyyət alternativ gerçəkliyin faktlaşdırılması cəhdidir. Şah İsmayıl döyüş zamanı ölkəni öz oxşarına əmanət edir. Şah İsmayılın əsas ədəbi yaradıcılığı "Çaldıran"dan sonra başlaması məlumdur. *"– Bacararsan. Elə bacararsan... Bu vuruş ki, var, gəldi-gedər bir şeydi. Bir azdan yenə günəş çıxacaq, sabah başlayacaq, məmləkət olacaqdır səninki. Gözlərini döymə. Mən sənə bu boyda məmləkət qoyub gedirəm"* [5, s.145].

"Da Vinçi şifrəsi" romanı da bu mənada çoxçalarlı xüsusiyyətlərə malikdir. Absurdun təqdimatında Tanrı motivinin inikası intellektual nəsrə də sirayət edərək əyləncəvilik yaradır. Tanrı motivi məhdud səviyyədə "Den Braun bədii üçbucağı"nın dini xəttinə aiddir. Lakin bu məhdudluq romanda intellektuallığın daxilində ümumidən xüsusiyə keçid edir. Tanrı və onun dünya üzərindəki təsirləri "Da Vinçi şifrəsi"ndə informativliyi və kommunikativliyi üstələyir. Məsələn, Leonardo da Vinçinin rəsmlərinə nəzərən Tanrı anlayışı ilə Sonyerin qatili Saylasın Tanrıya münasibəti fərqlidir. Saylasın Tanrısı onun daxilindəki məşəqqətlərdən qaçmaq cəhdidir. Bu fərqlilik romanda ehkam-antiehkam ziddiyyətinin əsasını qoyur. Den Braun "Opus Dei"nin ardıcıllarından biri olan Saylas dini absurdun açarı kimi istifadə edir. Saylas müqəddəs hesab etdiyi adamlardan tapşırıqlar alaraq aranı qarışdırır. Onların əsas missiyası həqiqəti tapmaq yox, zədələməkdir. Buna görə də onların məğlubiyyəti başadüşüləndir. Müəllif mənfi obrazları köməkçi surətlər səviyyəsində saxlamaqla gerçəkliyin postmodern strukturunu Xeyirin qələbəsinə bağlayır. *"Bu gün səhər "nəfsin öldürülməsi ritualını yerinə yetirdiyi üçün enli kürəyi hələ də ağrıyırdı. Amma bu ağrını xilas edilmiş ruha verilən mükafatla müqayisə etmək olardımı?"* [25, s.68].

Den Braunun alternativ gerçəkliyi intellektual səciyyə daşıyır. Bəşəriyyətin müasir vəziyyəti texnoloji inqilablar sayəsində xeyli dəyişdi. İnformasiyanın yüksək

əlçatanlığı alternativ gerçəkliyin intellektual sütununu möhkəmlətdi. İntellektual romanlarda məntiq və mühakimə daha qabarıqdır. Den Braun da müəyyən simvollardan istifadə edərək bu mühakiməni gücləndirir. Gerçəkliyin postmodern strukturunu müəyyən etmək baxımından bu cür gedişlərin edilməsi önəmlidir. Dini simvolların və informasiyaların romanda tətbiqi bədii oyun texnologiyasının daxilində təşəkkül tapır. Bu informasiyalar elmi reallıqların və informativ yanaşmaların təsiri ilə güclənir. Tanrı anlayışı da geniş mənada həqiqəti ifadə edir. "Da Vinçi şifrəsi" və "Yarımçıq əlyazma" romanlarında Tanrının həqiqət olması inkar edilmir. Hər iki müəllif həqiqəti ədalətin sinonimi kimi birbaşa Tanrıya bağlayır. Bu münasibət İslamın Tanrı anlayışına düz mütənasibdir. *"Həqiqət Tanrı, kainat və insan ilə bunlar arasındakı əlaqələri göstərən gerçəklikdir. İslamın yanaşmasına görə həqiqətin mərkəzində Tanrı var; Tanrı birbaşa həqiqət olub eyni zamanda da bu həqiqətin qaynağıdır"* [147].

"Da Vinçi şifrəsi" intellektual bədii mətn kimi konkrektliklə mücərrədliyin kombinasiyasıdır. Müəllif alternativ gerçəkliyi və intellektuallığı dəqiq elmlərin simvollarını mətnə gətirməklə təkmilləşdirir. Riyazi ədəd olan PHİ-nin nümunəsində bu konkretlik ümumiyə çevrilir. PHİ riyazi ədəd olsa da, təbiətdə, cəmiyyətdə önəmli rola sahibdir. Bu rəqəmin təqdimatı ilə Den Braun alternativ gerçəkliyini gerçəkliyin bir addımlığında saxlayır. Lənqdon PHİ ədədi haqqında danışarkən arı pətəyini və Nautiliusun spiralının bir burumunun sonrakılara nisbətinin PHİ-yə bərabər olması faktını nümunə göstərir. Təbiətin cəmiyyətə bəxş etdiyi PHİ ədədi bir çox kəşflərin, ixtiraların bazası kimi bəşəriyyətin gücünü artırmışdır. *"Əvvəllər hesab edirdilər ki, PHİ ədədi kainatın yaradıcı tərəfindən qabaqcadan müəyyən olunub"* [25, s.113].

Qraalın axtarışı PHİ ədədi qədər konkret deyil. Lakin öz absurdluğu ilə bir çox tarixi hadisələrə yenidən işıq tutmağın zəruriliyini önə çəkir. Qraalın mənəvi akt kimi təqdimatı ilə Den Braun İsa Məsih haqqında olan fərziyyələri Qadın başlanğıcı haqqında olan informasiyalara montaj edərək hər iki istiqaməti intellektual nəsrin komponentinə çevirir. "Da Vinçi şifrəsi" romanında müəllif Qadın başlanğıcı ideyasının sosial tərifini kapitan Faş surəti vasitəsilə verir. Faş romanın əvvəlində fərqli şəkildə təqdim edilsə də, sonlara doğru dəyişir. Den Braunun Faş vasitəsilə

Qadın başlanğıcına münasibəti qadın gücünün zəifləməsinə işarədir. Əsərin əvvəlində qadın olduğu üçün Sofiyə xüsusi nifrət bəsləyən Faş kriptoqrafın qadın olduğunu biləndə təəccüblənir. Sofi sonradan "mən rəqəmli kodun şifrəsini açmışam" dediyi zaman Faşın ona əvvəlki münasibəti dəyişmir. Bu mənada Den Braunun feminist görüşlərini [59] daha çox gender bərabərliyinə təşviq kimi qəbul etmək olar. *"Qadınlar təkcə fizioloji xüsusiyyətlərinə görə polisdə işləməyə yararlı deyil, onların elə qadın olması kişilərə neqativ təsir göstərir, onları işdən ayırır və süstləşdirir"* [25, s.64].

Örnək olaraq, qadınlara qarşı münasibət "Yarımçıq əlyazma"da da ön plandadır. Dastanda Oğuz elində qadınlara xüsusi hörmət, diqqət var. "Yarımçıq əlyazma"da qadınlar daha çox saf, avam olaraq təqdim edilir. Bayandır xan Casusu tapmaqdan ötrü Oğuz elinin bəylərini sınağa çəkir. İç oğuz, Dış oğuzdan igidləri dəvət edir, onlardan Casusu nə üçün xilas etmələrini soruşur. Möhkəm təməllər üzərində qurulan Oğuz cəmiyyəti "olduğu kimi deyilmiş". İstintaq zamanı bəylərin günahları bir-birinin üstünə yıxmaları buna nümunədir. Hətta Bayandır xan Qazan xanı istintaqa çəkərkən Qazan xan yoldaşı – Bayandır xanın qızı Burla xatunu ona şikayət etməkdən çəkinmir. *"– Qocalmışdır dedi, həmi?! – Bayındır Xan sakit-sakit özü-özünə dilləndi. – Bəli, Xan baba. Öylə dedi. Nə arasan, xatunda ağılmı olar?!"* [5, s.197].

"Da Vinçi şifrəsi" romanında obrazlar sistemi də intellektuallığın tərkibində dəyər qazanır. Den Braunun obrazları dinamik, cəsarətli insanlardır. Onlar həqiqəti axtararaq bütləri dağıtmağa çalışırlar. Den Braunun intellektuallığı sehrbazlıq səviyyəsinə qalxa bilmir. Oxucu zahirən özünü romanın surətlərindən biri kimi görür. Qarşıdurmaların tərkib hissəsinə çevrilə bilir. Romanın personajları novator olsalar da, romanda həqiqət axtarışı yeniliklərlə müşahidə olunur. Oxucu hadisələri izlədikcə rasionallığın şahidinə çevrilir. Yazıçının məqsədi rasionallığın daxilində məna qazanır. Nümunə olaraq, "Yarımçıq əlyazma"da müəllif oxucuları tilsimə salmağı bacarır. *"Təmərküzləşmiş və dərin oxunuş, rasional qavrayış tələb edən "Yarımçıq əlyazma"da mətn müstəqilliyi və kontekst aktuallığı nəticəsində bədii aləmə şərti personaj, abstraksiya kimi daxil olan oxucu zahirən ənənəvi surətlərin və motivlərin,*

*konfliktlərin əhatəsinə düşür"* [63, s.70].

"Da Vinçi şifrəsi" romanında intellektuallıq alternativ gerçəkliyi gerçəkliyə yaxınlaşdırır. Den Braun. Müəllif dövrün tələbləri əsasında reallıqları müəyyən etməyi insanların öhdəsinə buraxaraq mənzərəsini yaratdığı dövrün sosial ənənələrini onlarla bölüşür. Mariya Maqdalinanın İsanın həyat yoldaşı olma ehtimalı intellektual alternativ gerçəklikdir. Bu alternativ gerçəklik obrazın psevdohəqiqətə çevrilməsi ehtimalını artırır [Elmi nəticənin nəşri üçün bax: 39]. Den Braun müvafiq aktı alternativ gerçəklik daxilində sosial faktlar vasitəsilə gerçəkliyə çevirməyə çalışır. İsa Məsih dövründəki hadisələrin romana gətirilməsi intellektuallıqla əyləncəviliyin absurdla kombinasiyasıdır. O dövrün sosial ənənələri ilə tanışlıq müvafiq kombinasiya daxilində kommunikativlik yaradır. Müəllif həmin dövrün sosial ənənələrinə müraciət etməklə İsa Məsihin soyunun davam etdiyini absurdun təsirindən çıxarmağa çalışır. Müqəddəs kitab İncildə bu fakta işarə olunmur. Den Braun müqəddəs kitabın "çatışmazlığ"ını gerçəklik kimi təqdim etməyə çalışır. *"O dövrün sosial qanunları yəhudi kişisinə subay gəzməyə imkan vermirdi. Yəhudi ənənələrinə görə, hər bir ləyaqətli yəhudinin evlənmək borcu idi ki, oğlu olsun. Əgər İsa evli deyildisə, onda heç olmasa İncildə bu fakta işarə edilərdi"* [25, s.287]. Məsələn, "Yarımçıq əlyazma"da istər Oğuz elinin, istərsə də Səfəvilər dövründəki ənənələr ədəbi material kimi diqqəti cəlb edir. Fərziyyələrin sosial ənənələr daxilində verilməsini "Yarımçıq əlyazma" da Hüseyn Lələ bəyin timsalında görmək olar. Tarixdən məlumdur ki, Hüseyn Lələ bəy Şah İsmayılın tərbiyəçisi, həm də ən yaxın silahdaşlarından olmuşdur. 1514-cü ildə Çaldıran döyüşündə öldürülmüşdür. "Yarımçıq əlyazma"da alternativ gerçəklik vasitəsilə bu məlumat deformasiya olunur. "Yarımçıq əlyazma"nın Hüseyn Lələ bəyi ölmür, yenidən Saraya qayıdaraq kiçik xəncəri Xızrın ürəyinə saplayır. *"Sən ki, çoxdan ölməli məlun idin... Sən... Bunu deyə-deyə Lələ kəmərinin arasında gizlətdiyi balaca bir qəməni çıxarmağı ilə Xəzrən ürəyinə saplamağı bir oldu"* [5, s.267].

"Da Vinçi şifrəsi" romanında simvolların alternativ gerçəklik konseptində təqdimi intellektual nəsrin daxilində incəsənətin qeyri-adiliyi ilə tamamlanır. Alternativ gerçəklik əsərin bütün mərhələlərində mətnin strukturunu dəyişir. Bu

baxımdan roman gerçəkliyin postmodern strukturunun alternativ gerçəkliyə çevrilmiş versiyası kimi diqqəti cəlb edir. Məşhur "Mona Liza" rəsmindəki sirlər Kişi və Qadın başlanğıclarına alternativ reaksiyadır. "Mona Liza" sözünün Amon və İsidanın anoqramı olması gerçəkliyi simvolizə edir. Bir çox sənətşünasların fikrincə, *"Mona Liza rəssamın gizli zarafatı idi. Bu əsərin yaratdığı şən illüziyalar incəsənətə aid kitabların çoxunda təsvir olunmuşdu. Bununla belə, insanların əksəriyyəti Jokondanın təbəssümünü əsas müəmma hesab edirdilər"* [25, s.141].

"Da Vinçi şifrəsi" romanında hadisələrin absurddan fakta keçid ehtimalında şübhələr də mövcuddur. Leonardo da Vinçinin şəxsiyyəti və yaradıcılığı ətrafında cərəyan edən proseslər bunu deməyə əsas verir. Leonardo da Vinçinin böyüklüyü əsərlərinin qeyri-adiliyindədir. Onun rəsm əsərlərinin tarixiliyi onların daxili qatlarındadır. Da Vinçinin kilsəyə qarşı olması haqqında müəyyən tarixi məlumatlar mövcuddur. Den Brauna görə, Da Vinçi Vatikandan gələn sifarişləri qəbul etmirdi. Leonardo da Vinçinin həyat və fəaliyyətindəki qeyri-müəyyənliklərin onun intellektuallığı ilə müqayisədə daha maraqlı olması bilinir. Den Braun Da Vinçinin qarşısına qoyduğu böyük hədəfləri diqqətə alaraq onun rəsmlərindəki sirləri böyüdür. *"Da Vinçi insanın anatomiyasını öyrənmək məqsədi ilə meyitləri ekshumasiya edirdi; öz sirli fikirlərini sağdan-sola qarmaqarışıq xətlə jurnallara yazırdı; özünü kimyagər hesab edirdi, inanırdı ki, qalayı qızıla çevirə biləcək. Və hətta Allah-Təalaya əks gedərək, guya ölümsüzlük iksiri yaratmışdı. Bundan başqa indiyə qədər görünməmiş, son dərəcə dəhşətli işgəncə alətləri və silahlar düzəltmişdi*" [25, s.58].

"Da Vinçi şifrəsi" romanında intellektuallıq və əyləncəvilik alternativ gerçəkliyin bazasında çoxsəslilik yaradır. "Da Vinçi şifrəsi" romanında Den Braun alternativ gerçəkliyi gerçəklik şəklində təqdim etməyə cəhd edir. Bədii mətndə simvolların çoxluq təşkil etməsi təkcə intellektual romanın tələbi deyil. Müəllif intellektual gedişləri gerçəkliyi sübutetmə cəhdinə birləşdirir. Ümumilikdə "Da Vinçi şifrəsi" romanında alternativ gerçəkliyin yaradılması prosesi mahiyyət olaraq bitkindir. Bu məntiqilik bəzi məqamlarda gerçəklik-alternativ gerçəklik keçidində ziddiyyət yaradır. "Da Vinçi şifrəsi" romanı intellektual nəsr nümunəsi kimi informasiya və əyləncə ədəbiyyatının da komponentlərini daşıyır. Yazıçı absurdu

intellektual nəsrin mərkəzinə gətirərək rəngarənglik yaradır. Bu rəngarənglik də öz növbəsində əyləncəviliyə çevrilərək gerçəkliyin postmodern strukturunu müəyyən etməyin sadə və maraqlı üsulu kimi diqqəti cəlb edir. "Da Vinçi şifrəsi" romanı intellektual nəsr nümunəsi kimi alternativ gerçəkliyin təqdimatı üçün keçid formalaşdırır. Belə ki, romanda absurdun bədii transformasiyası həqiqətlə yalan arasındakı məsafəni ölçmək baxımından önəmlidir. Romanda intellektuallıq və əyləncəviliyin müəyyən olunması ilə bu məsafənin bədii və estetik mahiyyəti aydınlaşdırıldı. Beləliklə, romanda intellektuallıq və əyləncəviliyin analizi alternativ gerçəkliyin ikinci istiqaməti kimi müəyyən edildi.

### 2.3. Robert Lənqdon alternativ gerçəkliyin individual modeli kimi

"Da Vinçi şifrəsi" romanında absurdun transformasiyası ilə başlayan alternativ gerçəklik konsepsiyası bədii mətndə intellektuallıq və əyləncəviliyin tətbiqi ilə güclənir. Bu möhkəmlənmənin təməlində, şübhəsiz ki, "Den Braun bədii üçbucağı" dayanır. Roman intellektual nəsr nümunəsi kimi alternativ gerçəklik modelinin tərkibində konseptual və dinamik səciyyə daşıyır. "Den Braun bədii üçbucağı"nın tətbiqi ilə Robert Lənqdon alternativ gerçəkliyin individual modeli kimi müəyyən olunur. Başqa sözlə, romanda bu üçbucağın əsas icraçısı rolunda çıxış edən Robert Lənqdondur. O, "Den Braun bədii üçbucağı"nın hər üç istiqaməti vasitəsilə formalaşan hadisələrdə yaxından iştirak edir. Yazıçının təxəyyül məhsulu olan bu surət hadisələrin mərkəzində dayanır, əsərin fabulasını təyin edərək fərdi xarakter daşıyır. Romanın süjet xəttində hadisələrin ən yüksək inkişaf mərhələsi olan kulminasiya Robert Lənqdonun iştirakı ilə formalaşır.

Robert Lənqdon bu mübarizədə tək deyil. Sonyerin nəvəsi Sofi Neve Robert Lənqdonla birgə ali həqiqəti tapmağa çalışır. Jak Sonyerin qətlə yetirilməsi ilə Robert Lənqdon və Sofi Nevenin mübarizəyə başlaması səbəb-nəticə ardıcıllığının əsasını qoyur. Robert Lənqdonun timsalında [183] ümumiləşən hadisələr Sofi Nevenin, eləcə də Saylasın fəaliyyəti "Den Braun bədii üçbucağı"nın strukturunu möhkəmləndirmək üçün konkret materiallar verir. Robert Lənqdon intellekti onun alternativ gerçəkliyin individual modeli kimi hadisələrdə sağlam fikir yürütməsi üçün əsasdır. Saylasdan

fərqli olaraq o, dini fanatizmin təsirində deyil. Robert Lənqdonun mövcud proseslərdə iştirakı bitərəf və obyektivdir.

Robert Lənqdonun məntiqi mühakimələri onu individual bir şəxs kimi səciyyələndirməyə imkan verir. Romandakı simvollar "Den Braun bədii üçbucağı" vasitəsilə Robert Lənqdonun individual xarakter kimi təyinatı üçün açar rolunu oynayır. Romanda postmodern elementlər simvolların kölgəsində qalır. Buna görə də, "Da Vinçi şifrəsi" romanında dekonstruktivlik daha çox tarixə və absurda aiddir. Romanda həqiqət axtarışı sosial xəttin obyektidir. Robert Lənqdon bu axtarışda baş qəhrəmana çevrilərək sosial xəttin səbəb-nəticə əlaqəsini müəyyən edir. Həqiqət sosial xəttin bazasında ali dəyər səviyyəsinə qalxır. Bu yol bütləri dağıtmaqdan qaynaqlanır. Bütləri dağıtmaq postmodern subyekti obyekt pozisiyasına çevirmək cəhdidir. *"Postmodern nəzəriyyə bizə göstərir ki, biz hamımız arasında az ya çox rahatlıqla keçid etdiyimiz geniş miqyaslı subyekt pozisiyasından ibarətik, belə ki biz hamımız sinfi, irqi, etnik, regional, genetik, bioloji və cinsi mövqelərin birləşməsiyik"* [155, s.67].

Den Braun postmodernizm vasitəsilə postmodernizmə etiraz edərək sosial xəttin icra mexanizmini möhkəmləndirir. Bu akt Robert Lənqdonun fəaliyyətində aşkar hiss olunur. O, mövcud xaosdan çıxış üçün həll yolu kimi həqiqəti axtarması bu aktın növbəti mərhələsidir. Romanda memarlıq abidələrinə münasibət sosial xətt kimi diqqət çəkir. Müəllif ənənəçilik tərəfdarları ilə yenilikçilərin düşüncə fərqlərini göstərməklə bütləri dağıtmaq zərurətinin qədimliyinə eyham vurur. *"Paris Luvrunun yeni girişi muzeyin özü qədər məşhur idi. Onu Çin əsilli amerikan arxitektoru İ.M.Pe tərəfindən müasir üslubda işlədilmiş şüşə piramida bəzəyirdi. Bu isə ənənəçilik tərəfdarlarının etirazına səbəb olmuşdu. Onlar hesab edirdilər ki, şüşə piramida İntibah dövrünün üslubuna xələl gətirir"* [25, s.26].

Romanın təhkiyə aparatında sosial aktların təsviri uğurludur. Lənqdonun fərdi arzularını ümumi həqiqətə çevirmək cəhdləri bədii mətndə sosial aktın mərkəzində dayanır. "Da Vinçi şifrəsi" detektiv-trilleri dünyanın əksər tərcümə olunmuş, yüksək tirajlarla [8] dünya oxucularının ixtiyarına verilmişdir. Məsələn, "Yarımçıq əlyazma" romanında alternativ gerçəklik ön plandadır. Burada müəllif Dədə Qorqudu və Şah

İsmayıl Xətaini alternativ gerçəkliyin individual modelinə çevirməyə cəhd edərək sosial gerçəkliyin bazasını möhkəmləndirir. Romanın qısa zamanda belə səs-küy doğrumasının səbəblərindən biri də bu olmalıdır. “Yarımçıq əlyazma”nın Den Braunun yaradıcılığında xüsusi yeri olan İtaliyada maraqla qarşılanması [110] bu ehtimalı gücləndirir. “Yarımçıq əlyazma” romanında gerçəklik və onun postmodernist strukturu postmodernizmin sosial funksiyalarını müəyyən edir. Sosial funksiya müəllifin həqiqət axtarışının modern təqdimatıdır. Kamal Abdulla ironiya, parodiya, pastiş kimi elementlərə müraciət etməklə sosial gerçəkliyi ilahi səviyyəyə qaldırır.

Robert Lənqdonun baş qəhrəman kimi romanda iştirakı vasitəsilə ironiya və pastişin təsirləri hər üç xəttin funksiyalarına köçürülür. Romanın intellektual şəklidə sonlandırılması Robert Lənqdonun şəxsiyyətini ön plana çıxarır. Müxtəlif janrların romanlarda qarışıq şəkildə verilməsi qeyri-müəyyənliyin təqdimatında yeni formadır. Bu münasibət əsərin fabulasına da təsirsiz ötüşmür. Den Braunun müxtəlif janrlardan imtinası intellektual nəsrin sərhədlərində sosial xətdən kənara çıxa bilmir. Romanda postmodernizmin elementar səciyyəsi də bundan qaynaqlanır. *“Postmodern yazıçılar adətən hekayələrini qaneedici bir nəticə göstərmədən qeyri-müəyyən şəkildə sonlandırırlar. Postmodern hekayələr və romanlar ciddi mənada ironiya, parodiya, pastiş və satiraya istinad edir. Postmodern müəlliflər adətən müxtəlif janrlar arasında sərhədlərdən imtina edirlər”* [200, s.35].

Robert Lənqdon Den Braunun simvolik qəhrəmanı kimi [123] məntiqi mühakimələri ilə Sonyerin qətlinin səbəblərini axtarır. Robert Lənqdon əsər boyu “Den Braun bədii üçbucağı”nın xətlərini balansda saxlayır. Müəllif bədii üçbucağın istiqamətlərini dekonstuksiya və intertekstuallıqla gücləndirməyə çalışır. Bu cəhd romanda polifonik təəssüratdadır. Robert Lənqdon Da Vinçinin tədqiqatçısıdır. Onun Leonardo da Vinçinin rəsmlərinə münasibəti bədii üçbucaq örnəyində çoxçalarlılıq yaradır. Nümunə olaraq, Kamal Abdulla dastana postmodern münasibət göstərməklə onun mətninə yenidən qayıtmağın zəruriliyindən söz açır. Əlavə olaraq, dastandakı qəhrəmanların qədim mətnlərdən proyeksiya edildiyini düşünür. Müəllif bu müqayisə ilə sosial funksiyanın estetikasını müəyyən edir. Məsələn, dastanda rast gəlinən

obrazları Homerin əsərlərində də görmək mümkündür. “Yarımçıq əlyazma” romanında Homerin qəhrəmanları ilə “Kitabi-Dədə Qorqud” qəhrəmanlarının hansının qədim olması müqayisə olunur. Heç şübhəsiz Homer dastanlarının [66; 67] tarixi daha qədim olması faktik olaraq güclüdür. *“Mütəxəssislərin səyyar deyə adlandırdığı bəzi süjetlər hətta Homer dastanlarındakı bir sıra məlum əhvalatların Oğuz aləminə proyeksiya edilməsindən danışmağa əsas verir. Hansı qəhrəmanlar daha qədim dövrün sakinləridir – Polifem, yoxsa Təpəgöz?! Odissey, yoxsa Beyrək?! Aqamemnon, yoxsa Salur Qazan?! Penelopa, yoxsa Banuçiçək?!”* [5, s.8].

Mətnlərarası əlaqə, digər adı ilə intertekstuallıq “Da Vinçi şifrəsi” romanında mövzu əsaslıdır. Den Braun Qraalın dekonstuksiyasını sosial və bədii akt olaraq icra edir. Bu keçidlərin mərkəzində Robert Lənqdon alternativ gerçəkliyin mümkün modellərini təqdim edir. Ümumilikdə romanın detektiv janrda yazılması Robert Lənqdonu alternativ gerçəkliyin individual modeli kimi təyin etmək baxımından daha önəmlidir. Burada intellektuallığın da önəmini qeyd etmək vacibdir. Tədqiqatçı Fəxriyyə Rəhimova Den Braunun sübuta yetirilməmiş hipotetik mülahizələrinin “gerçəkləşdirildiyini” qəbul etməkdə haqlıdır. *“Da Vinçi şifrəsi” romanında Dən Braun bir tərəfdən tədqiqatçılar tərəfindən ciddi elmi fərziyyə qismində ortaya qoyulmuş “Müqəddəs Qan, Müqəddəs Piyalə” əsərində öz əksini tapmış faktlara əsaslanan, daha doğrusu, bədii təxəyyülün gücü ilə hələ sübuta yetirilməmiş hipotetik mülahizələri “gerçəkləşdirilmiş”, oxucuları onların guya, həqiqətən baş verdiyinə inandırmağa nail olmuşdur”* [99, s.16]. “Den Braun bədii üçbucağı”nın bazasında nəticələnən elementar intertekstual gedişlər absurdun gerçəklik tərəfinə işıq salır. Məsələn, “Yarımçıq əlyazma”da müəllif “Kitabi-Dədə Qorqud” dastanında bəhs olunan hadisələrin, eləcə də, Şah İsmayıl Xətai ətrafında olan qaranlıq məqamları fakt kimi irəli sürərək sübut edilməmiş hipotetik faktları “gerçəkləşdirməyə” çalışır. *“Əslində, «Yarımçıq Əlyazma» romanında gerçəkləşdirilmiş müəllif konsepsiyası – müəllifin düşüncədə qurduğu roman modelinin prinsipləri bütövlükdə bu gizli məqamlarla bağlıdır”* [74, s.35].

Robert Lənqdonun individuallığı zaman konseptinin qırılması müstəvisində dəyər qazanır. Zamanın pozulması “Den Braun bədii üçbucağı” daxilində öz bədii-

estetik xəttini davam etdirir. Robert Lənqdonun zamansızlıq içində axtarışını "Yarımçıq əlyazma"nın ayrı-ayrı qəhrəmanlarının simasında müşahidə etmək olar. "Yarımçıq əlyazma" romanında zaman konseptinin qırılması roman-antimif istiqamətinin daxilində formalaşır. *"Zaman sıxılmasını Kamal Abdullanın «Yarımçıq əlyazma» roman-antimifində müşahidə etmək olar. Romanda vahid zaman anlamının olmaması bizi hadisələrə ədəbiyyat nöqtəsindən baxmağa sövq edir"* [105, s.41-42].

Robert Lənqdonun hadisələrə obyektiv münasibəti onu vizuallaşdırır. İntellektuallıqla detektivliyin hibridi polifonik səciyyə daşıyır. Bütün bunların bir obrazın simasında verilməsi peşəkarlıq tələb edir. İstintaq idarəsinin qətlin izinə düşməsi, günahkarları axtarması sadə detektiv təəssürat yaradır. Müəllif bu sadəliyi sosial akt kimi alternativ gerçəkliyin elementinə çevririr. Kapitan Faş əvvəlcə Lənqdon və Sofidən şübhələnir. Lakin sonradan onların günahsız olduğuna inanır. Romanda istintaq idarəsinin fəaliyyəti neytraldır. Romanda Robert Lənqdonun sosial cəhdləri ali həqiqətə gedən yoldur. Bu yolun mahiyyətini müəyyən edən "Den Braun bədii üçbucağı"nın dini və elmi xətləridir. Romanda dini xətt absurdu, elmi xətt isə faktı təmsil edir. Den Brauna görə, Mariya Maqdalina İsanın həyat yoldaşı olub. Onların evliliyindən Sara adlı qızları doğulub. Orta əsrlər Fransanını üç yüz ilə yaxın idarə etmiş Merovinqlər sülaləsinin soyu da Mariyadan törəmişdir. Roman boyu absurddan fakta keçid "Den Braun bədii üçbucağı"nın müvafiq olaraq dini və elmi xətlərinin icrası ilə təşəkkül tapır. Robert Lənqdonun iştirakı bu qeyri-müəyyənliyi aradan qaldırmaq baxımından önəmlidir. Məsələn, "Sonuncu axşam yeməyi" tablosunda İsanın yanındakı şəxsin Həvari İoanna yox, Mariya Maqdalina olma ehtimalı daha yüksəkdir. İsa ilə yanında olduğu düşünülən Mariyanı ayıran boşluq "M" hərfi formasındadır. "M" hərfi Mariyanın adının baş hərfi kimi yozula bilər. Mariya Maqdalinanın timsalında [142] davam edən dini və sosial xətlər Qadın başlanğıcı konseptini alternativ gerçəkliyin şifrlərindən birinə çevirir. Romanda İsa Məsih zamanında və nisbətən sonrakı dövrlərdə qadınlara münasibətin birmənalı olmaması dini xəttin davamıdır. Bu məlumatlar romanın fabulasını təyin etmək baxımından önəmlidir [133]. Kişi və Qadın başlanğıclarına romanda münasibətin mərkəzində sosial və vizual obraz kimi Robert Lənqdon dayanır. Den Braun bu

başlanğıcları dünyanın harmoniyasını balanlaşdıran faktorlar kimi təqdim edir. Belə olduqda, gerçəkliyin postmodern strukturu pərakəndəlikdən tamlığa, bütövə doğru dəyişir. *"Yazıçı belə hesab edir ki, bəşər mədəniyyəti qadın və kişi başlanğıclarının dialektik münasibətləri zəminində formalaşır. Onun fikrincə, bəşər tarixi inandırıcı şəkildə sübuta yetirir ki, bu başlanğıcların birinin iştirakı məhdudlaşanda labüd şəkildə mədəniyyətin harmonik vəhdəti pozulur"* [99, s.17]. Den Braunun harmonik vəhdəti müasir dövrün sosial problemlərini simvolizə etmək baxımından maraqlıdır. İnsan hər iki cinsin xüsusiyyətlərini daşıyır. Postmodernizmin janr-mətn keçidi başqa sözlə kişi və qadın başlanğıclarını insan başlanğıcına çevirir.

Den Braunun qadın başlanğıcına münasibəti onun tarixinin araşdırılması və sirli məqamların üzə çıxarılması cəhdi ilə məhdudlaşır. Romana görə qadınlar zorla kişilərin otaqlarını təmizləməyə məcbur edilirdi. Bundan başqa, onlar əlavə rituallara cəlb edilərək cəzalandırılırdılar. *"Orada, kişilər messada olarkən, qadınların onların otaqlarını heç bir haqq ödənilmədən təmizləməyə məcbur edilmələrini; kişilərin saman doldurulmuş döşəklərdə, qadınların isə quru döşəmədə yatdığını; "nəfsin öldürülməsi zamanı ilkin günaha cəza kimi qadınların əlavə rituallar yerinə yetirməsinə məcbur edilməsini öyrəndikdə o, dəhşətə gəlmişdi"* [25, s.54]. Misal olaraq, "Yarımçıq əlyazma" romanında bu münasibət tanış qəhrəmanların fərqli formatda təsviri [95] şəklində önə çıxır. Dastanda kişinin mövqeyi və qadına münasibət birmənalıdır. Oğuzların müsəlman olması, İslamın qadına olan demokratik münasibətlərindən təsirləndikləri məlumdur. Bu yanaşma Kamal Abdulla tərəfindən harmoniyaya çevrilir, obyektiv şəklə salınır. "Kitabi-Dədə Qorduq" dastanında qadına münasibət və onun "Yarımçıq əlyazma"da fərqli təqdimatı harmonikliyi qoruyur. Qadınların şeytana bənzədilməsi, kişiləri yoldan çıxarmaları Dədə Qorqud dastanı ilə "Yarımçıq əlyazma" romanını məzmun olaraq birləşdirsə də, formaca ayırır. Məsələn, Beyrəyin Bayburd qalasında əsir qalması sosial xəttin davamı kimi dastanla romanın mətnini əks qütbə çevirir. "Yarımçıq əlyazma"ya görə Beyrək orda əsir deyilmiş. Aruzun Beyrəyin Təkgözdən qaçaraq əsirliyə getməsini qeyd etməsi bu ehtimalı gücləndirir. Beyrək sevgilisi Banuçiçəyi unudaraq Bayburd qalasında kafir qızı ilə eşq yaşayırmış. Dastanda isə Beyrəklə Banuçiçək bir-birilərinə qırılmaz

tellərlə bağlıdırlar. Yalançı oğlu Yalıncıq Beyrəyin qanlı köynəyini gətirib onun öldüyünü "sübut etdiyindən" Banuçiçək ona ərə getməyə məcbur olur. Beyrək xilas olmağın yollarını axtarır. Kafir qızı ilə görüşərək dərdini ona danışır, Banuçiçəyə olan sevgisini təsvir edir. Daha sonra Beyrək əsirlikdən qayıdaraq sevgilisinə qovuşur. *"On altı ildir ki, sənin atanın dustağıyam. Ata-anaya, qohum-qardaşa həsrətəm; bir də bir qara gözlü sevgilim vardı; Yalançı oğlu Yalıncıq deyilən bir kişi var, gedib yalandan mənim öldüyüm demiş, sevdiyim qız da ona getməli olmuşdur"* [77, s.212]. "Yarımçıq əlyazma"da Banuçiçək öz razılığı ilə evlənir.

Romanda Qadın başlanğıcına münasibət Robert Lənqdonu konstruktiv obraza çevirir. Robert Lənqdonun aparıcı obraz kimi xarakterizəsi onun "Den Braun bədii üçbucağı"nda harmoniyanı balanslaşdırmaq cəhdi ilə sıx bağlıdır. Müqəddəs Qraalın Qadın başlanğıcına işarə olması "Den Braun bədii üçbucağı"nın dini xəttinin davamı kimi önə çıxır. Müqəddəs Kasa ∨ şəklindədir. Qadın cinsi orqanına bənzəyir. ∧ işarəsi isə kişi cinsi orqanına bənzəyir. Bu iki işarə birləşərək kişi-qadın harmoniyasını haradır. Mövcud harmonik vəhdət İsa Məsih ətrafındakı məlumatları müəyyən etmək baxımından önəmlidir. Qraal məhdud mənada Mariya Maqdalinanın məzarının önündə baş əymək, geniş mənada isə katarsisdir. Den Braun bu katarsisi İsanın şəxsiyyətinə fərqli münasibət kimi ortaya qoyur. Başqa sözlə, Den Braun Mariya Maqdalinanı həm də fahişəlikdən xilas edir. Sosial xəttin icrası ilə dini xəttin bazasını təkmilləşdirən fərziyyələri Den Braun simvolların köməyi ilə fakta çevirməyə çalışır. Məsələn, Mariya Maqdalina İsanın çarmıxa çəkilməsinə şahid olmuşdu. Pravoslavlar Mariyanı sülh müjdəçisi kimi qəbul etsə də, katoliklər Maqdalanlı fahişə adlandırırdılar. *"Kişi və qadın nəinki cismani, hətta öz təbii seksual hisslərindən belə qorxurlar, bunu şeytan əməli sayırlar. Guya şeytan öz öz sadiq köməkçisi olan qadının vasitəsilə kişiləri yoldan çıxarır"* [25, s.149].

Qraal əfsanəsi müəllifin alternativ gerçəkliyinin intellektual gedişləri müəyyən edən ilahi koddur. Gerçəkliyin və alternativ gerçəkliyin bazasında Kilsə-Opus Dei münasibətləri, eləcə də digər məsələlər cəhd səviyyəsində qalır. Den Brauna görə, Kilsə Mariya Maqdalinanı İsanın həyat yoldaşı kimi təqdim edə bilməzdi. Belə olduqda, Xristianlığın təməlləri ciddi zədələnə bilərdi. Bu paradoksallıq dini

fərziyyələrin sosial fakta çevrilməsi cəhdi kimi davam edir. Den Braun bu məlumatları tarixi əsər olaraq yox, ədəbi əsər olaraq verməklə özünü sığortalayır. *"Qətiyyən elə deyil. Maqdalina fahişə olmayıb. Bu yalan insanların beyninə Kilsənin ilk dövrlərində yeridilib. Kilsə xadimləri Mariya Maqdalinanı rüsvay etmək, ləkələmək üçün əsil kampaniya təşkil etdilər. Bütün bunları ona görə edirdilər ki, Kilsə üçün təhlükəli olan durumu gizli saxlasınlar. Mariya Maqdalinanın Qraal olduğunu"* [25, s.285].

Robert Lənqdonu xəyali qəhrəman kimi təqdim etməklə Den Braun tarixi qorumağa çalışır [Elmi nəticənin nəşri üçün bax: 37]. Onun bu təşəbbüsü Robert Lənqdonun hadisələrə obyektiv münasibəti ilə birləşir. Den Braun tarixə əsaslanaraq absurdu məhv etməyə çalışır. Robert Lənqdon alternativ gerçəkliyin individual modeli kimi harmoniyanı balanslaşdırmaq cəhdi müəllif təhkiyəsinin sadə estetik təzahürü ilə ümumiləşir. Robert Lənqdon modern qəhrəman kimi postmodern gerçəkliyin daxilindədir. Onun mübarizəsi ümumidir.

Den Braun modernizmin at oynatdığı bir dövrdə boy atmağa başlayan postmodernizmin [96] nəzəri konsepsiyaları və Umberto Ekonun postmodernizm fəlsəfəsinə dərindən bələddir. Örnək olaraq, Kamal Abdualla da bu nəzəri konsepsiyaları dərindən əxz etmiş, "Yarımçıq əlyazma" romanında bədii və estetik olaraq tətbiq etmişdir. "Kitabi-Dədə Qorqud" dastanından kamil insan, el ağsaqqalı kimi tanınan Dədə Qorqudun romandakı təqdimatı daha obyektivdir. Romanda Qorqud dastandakı Dədə Qorquddan cavandır. Ona görə də Bayandır xan ona "oğul", – deyə xitab edir. Romanda Bayandır xan Qorqudu casusu tapmaq üçün qurduğu istintaqa katib seçir. Bayandur xan işlərin qarışıq olduğunu, Oğuz elinin məhvə sürükləndiyi Qorqudla bölüşür. Bayandır xan Qorqudun ağlına, gücünə inanırdı. Ona görə də onu istintaqa dəvət etmişdi. *"– Qorqud, oğul, bunu yalnızca sən bacararsan. Səni seçdim, - Bayındır Xan söylədi. – Səninlə bahəm bir işimiz olacaqdır. Mənə xəbər gətirdilər. Oğuzda işlər qarışıq düşdü dedilər, bəlkə hələ sən də nəsə duymuşsan? Bir casus varmış, onu tutublarmış, sonra isə... casusu açıb zindandan buraxıblar..."* [5, s.22]. Oğuz elindəki qarışıqlıq dastanın "İç Oğuzun Daş Oğuza dönük çıxdığı boy"unda ətraflı təsvir olunur.

“Den Braun bədii üçbucağı”nın tətbiqi Leonardo da Vinçinin rəsmlərində gizlənən sirlər vasitəsilə bədii oyuna çevrilir. Robert Lənqdon alternativ gerçəkliyin individual modeli və bədii oyunun əsas siması kimi roman boyu həqiqət axtarışına məntiqi qiymət verməyə, müəyyən sirləri aşkara çıxarmağa çalışır. Romana görə “Mona Liza” əsəri bütpərəst simvollarla zəngindir. Rəsm əsərinin Kişi və Qadın başlanğıclarına işarə olması fərziyyə-fakt keçidini möhkəmləndirir. “Madonna mağarada” əsərində körpə İsa, Madonna (Məryəm) və körpə İohann təsvir olunur. Den Brauna görə, bu rəsm əsəri də “Mona Liza” rəsmi kimi bütpərəst simvollarla doludur. *“Əksər incəsənətşünasların fikrincə Sofinin özünə sipər etdiyi Da Vinçinin “Madonna Mağarada” əsəri, eynilə “Mona Liza” kimi gizli bütpərəst simvolları ilə doludur”* [25, s.159].

Robert Lənqdon alternativ gerçəkliyin individual modeli kimi hadisələrə obyektiv münasibət göstərir, cəmiyyətin xaosunda var-gəl edir. Bu yanaşma onu Basat obrazının dastan variantına yaxınlaşdırır. “Basatın Təpəgözü öldürdüyü boy”unun qəhrəman Basatı “Yarımçıq əlyazma”da qan tökmək istəmir. Basat ona hücum edən heyvanı belə Allahın yaratdığı varlıq kimi təqdim edir. El ağsaqqallarının çoxsaylı müraciətlərinə baxmayaraq Basat Təkgözlə savaşa getmək istəmir. Sonda Dədə Qorqud vasitəçilik edərək Basatı razı salır. Təkgözün Qıyan Səlcuqu öldürməsindən sonra Basat Təkgözlə savaşa gedir. Dastanda Basat Təkgözü məğlub edərək Oğuz elini xilas edir. “Yarımçıq əlyazma”da bu hadisənin pərdəarxası fərqlidir. Belə ki, romanda Basat məcbur olduğu üçün döyüşə gedir. O dastanda təsvir olunduğu qədər güclü deyil. Basata güc verən Qoğan Aslandır. *“Vəhşi canavar dediyin də Allahın və Tanrının lazım bilib yaratdığı nəfəs alan, yaşayan canlı deyilmi? Mənim onlarla bir işim yox, onların mənimlə bir işi yox. Hələ Qoğan Aslan mənə heç zərər verməz, mənə məhəbbət edər, dili ilə yalar, durar”* [5, s.82].

Den Braunun detektiv, intellektual etirazı ilə realistdir. Müəllifin postmodernizmin məlumata qarşı olmasından istifadə etməsi romanda detektiv-intellektual keçidini yaradır. “Da Vinçi şifrəsi” romanı isə İsa Məsih haqqında məlumatların dağılmış hissələrinin bütövləşmiş kollajı kimi fərziyyə-fakt keçidinə çevrilir. Den Braun məlumata qarşı deyil. Romanda müəllif absurdunun alternativ

gerçəklik bazasında təqdimatı biliyin konstruktivliyinə hesablanmışdır. *"Olduqca romantik bir şəkildə (artıq çox təxmin edilən kimi), Liotar "postmodernizmi" sadəcə klassik elmə müxalifət olaraq təyin etmir, bundan da irəli gedərək "postmodernizm"in məlumata qarşı olduğunu irəli sürür. Bu, (postmodernizm hər şeyə uyğunlaşan şəkildə başa düşülsə də) tam olaraq postmodernizmi bir məlumat əleyhdarı ailəsi təşkil etmək demək deyil: "məlumat" postmodernizmə qarşı olaraq danışa bilsə, postmodernizmin də "həqiqətlə bənzər şəkildə qarşı-qarşıya gələ bilər deməkdir"* [138, s.109]. Robert Lənqdonun əsas personaj olaraq hadisələrə fərqli münasibəti alternativ gerçəkliyi intellektuallaşdırmağa hesablanmışdır. Den Braun postmodernizmin janr-mətn keçidi əsasında detektiv janrı intellektuallığın daxilində əritməyə çalışır. Müəllif bu cəhdi mətnin strukturuna müqavimət səciyyəsi daşımır. Əksinə, yazıçı Robert Lənqdonu alternativ gerçəkliyin individual modeli kimi təqdim etməklə rəngarənglik yaradır. *"Heç bir mətnin buna mütləq şəkildə müqavimət göstərdiyinə inanmıram. Bu cür bir mütaliəyə mütləq müqavimət, yalnız və yalnız mətni yox edər. Daha çox bunu deyə bilərəm ki, bir mətn bir növ orijinal müzakirə yolu ilə nə mənanı, nə də göndərməni xitam verilmədən bu müqavimətlə bir şey, daha öncə xatırladığım səbəblərdən dolayı müəyyənləşdirməkdə çox çətinlik çəkdiyimiz bir şey etdiyi zaman, o mətn şeiri-ədəbidir"* [124, s.49].

Robert Lənqdon baş qəhrəman kimi güclü olduğu qədər də, cəsarətsizdir. Onun fərdi keyfiyyətləri daha çox apardığı mübarizənin aliliyi ilə ölçülür. Robert Lənqdon alternativ gerçəkliyin individual modeli kimi ali həqiqəti müəyyən edən əsas obrazdır. Den Braun Robert Lənqdonun prototipi çıxış edərək bu individuallığı həqiqət axtarışına montaj edir. Bu həm də müəllifin alternativ gerçəkliyə olan obyektiv münasibətidir. Robert Lənqdonun alternativ gerçəkliyin individual modeli kimi təqdimatı ilə romanda alternativ gerçəkliyin analizi tamamlanmış oldu.

Nəticədə, Romanda alternativ gerçəkliyin absurdun transformasiyası ilə başlayan analizi, bədii mətndə intellektuallıq və əyləncəviliyin qiymətləndirilməsi ilə davam etdi. Robert Lənqdonun alternativ gerçəkliyin individual modeli kimi təqdimatı ilə bu proses davam edərək gerçəklik və onun postmodern strukturunu formalaşdıran ikinci komponent – alternativ gerçəklik tamamlamış oldu. Əldə edilən

elmi və bədii qənaətlər bunlardır:

– "Da Vinçi şifrəsi" gerçəklik və onun postmodern strukturunun təhlili üçün zəngin material verir;

– "Da Vinçi şifrəsi" romanında alternativ gerçəklik absurdun transformasiyasının şərhi ilə müəyyən olunur.;

– "Da Vinçi şifrəsi" romanında intellektuallıq və əyləncəvilik absurdun transformasiyasını və sosial funksiyasını müəyyən edir.;

– Robert Lənqdonun alternativ gerçəkliyin individual modeli kimi təhlili ilə alternativ gerçəkliyin bədii ifadəsi tamamlanır;

– Alternativ gerçəklik gerçəkliyin postmodern strukturunun ikinci komponenti kimi müəyyən olunur. Sosial gerçəkliyin davamı kimi alternativ gerçəklik postmodern gerçəklik üçün zəmin hazırlayır;

– Əlavə material kimi Kamal Abdullanın "Yarımçıq əlyazma" romanına müraciət sözügedən problemin həllinə kömək edir.

# III FƏSİL

# "CƏHƏNNƏM" ROMANINDA POSTMODERN GERÇƏKLİK

## 3.1. "Cəhənnəm" romanında gerçəkliyin imitasiyası

"Cəhənnəm" romanında postmodernizm gerçəkliyin postmodern strukturunu təyin edən üçüncü komponentin – postmodernizmin bədii-elmi estetikasını müəyyən edir. Bununla da Den Braunun yaradıcılığında gerçəklik və onun postmodern strukturu problemi müəyyən edilərək tamamlanır. "Cəhənnəm" romanı postmodern bədii mətn kimi diqqəti cəlb edir. Romanda gerçəklik bəşəriyyətin üzləşdiyi əhali artımı problemidir. Onun postmodern strukturu isə bəşəriyyətin bu problemi həll etmək üçün etdiyi cəhdlərin toplusudur. "Cəhənnəm" romanı Dante Aligyerinin "İlahi komediya" poemasının əsasında yazılmışdır. Başqa sözlə, "Cəhənnəm" romanı poemanın birinci hissəsinin – "Cəhənnəm"in dekonstruksiyasıdır. Den Braun Dantenin "Cəhənnəm"ini dövrümüzə gətirərək "yenidən yazır". Dantenin "İlahi komediyası"ndakı mifizm "Den Braunun "Cəhənnəm"ində postmodernizmə çevrilir. Roman "İlahi komediya"nın metamətni kimi çıxış etdiyindən onu postmodern roman adlandırmaq ədəbi-elmi olaraq tamamilə düzgündür. Bu mənada roman pastiş, intertekstuallıq, dekonstruksiya və s. kimi postmodern komponentlərlə zəngindir.

Den Braun Dantenin ideyalarını keçmişdən bu günə gətirərək imitasiya edir. Pastiş mətnin formasının və ya məzmununun komik deyil, ciddi şəkildə təqlid edilməsidir. İstehzalı münasibətdən kənar olması pastişi parodiyadan fərqləndirən əsas komponentdir. Pastişdə adətən, müraciət olunan mövzu təriflənir [143]. "Cəhənnəm" romanında pastiş "İlahi komediya"nın imitasiyası əsasında müəyyən olunur. Pastiş incəsənətin, musiqinin və ədəbiyyatın bir hissəsi kimi ümumi terminə çevrilmiş [181] və müxtəlif sənət sahələrinə bu adla daxil olmuşdur. "Cəhənnəm" romanında gerçəkliyin imitasiyası romanda postmodernizmi müəyyən etmək üçün açar rolunu oynayır. Gerçəkliyin postmodern strukturunun daxilində pastiş anlayışı intertekstuallıq sonucunda formalaşır. Bu intertektuallığın tərkib hissələrini "İlahi komediya" poeması ilə "Cəhənnəm" romanı təşkil edir. *"Postmodern ədəbiyyatın*

*xüsusiyyətlərindən biri də "pastiş"dir. Əgər intertekstuallıq müxtəlif mətnlər arasında əlaqə mənasını verirsə, pastiş məqsədyönlü şəkildə həmin mətnlərin bir-birinə birləşdirilməsi, qaynaq edilməsi anlamına gəlir. Bu iki cəhət sıx şəkildə bağlı olub, postmodern ədəbiyyatın ayrılmaz tərkib hissəsini təşkil edir"* [56].

Əvvəlki fəsillərdə olduğu kimi bu fəsildə də tarixi-müqayisəli və analitik metoddan istifadə edilmişdir. Belə ki, romanın təhlili zamanı əldə olunan nəticələri daha da konkretləşdirmək məqsədilə çağdaş Azərbaycan yazıçısı Şərif Ağayarın "Arzulardan sonrakı şəhər" romanın əlavə ədəbiyyat kimi müraciət edilmişdir. Adı çəkilən bədii mətn "Cəhənnəm" romanı ilə müharibə, azadlıq kimi ortaq ideya-məzmun komponentlərinə malikdir. "Arzulardan sonrakı şəhər" romanı ədəbi-metodoloji baxımdan realist və postmodern metodların birləşməsi kimi xarakterizə oluna bilər. "Arzulardan sonrakı şəhər" romanında gerçəkliyin imitasiyası pastiş xarakterlidir. Bədii mətndə Qədim Misirdə və Qarabağ müharibəsində baş verən hadisələr bir-birinə montaj edilir. "Arzulardan sonrakı şəhər" gerçəkliyin imitasiyası postmodernizmin elementlərini müəyyən etmək baxımından önəmlidir. Ülvi Babayev haqlı olaraq bu romanı Şərif Ağayarın yaradıcılığında postmodern prozanın başlanğıcı hesab edir. O yazır: *"Müharibə və azadlıq kimi qlobal bir mövzu pastiş, parodiya və kölgə arxetipləri ilə ortaq məqamda əks olunur. Hətta bir qədər rahat, əyləncəli estetikada əks olunur. Müəllif iki ayrı mətni bir-birinə montaj edir. Montajlama və genişləndirmə estetikası aparıcı rol oynayır"* [20, s.39]. Qədim Misir və Qarabağ müharibəsinin intertekstual əlaqəsi müharibə və azadlıq mövzularına yeni baxış kimi maraqlıdır.

Den Braun Dantenin insanın günahdan təmizlənməsi fikrini postmodern dövrün komponenti kimi analiz edərək məzmun və formaca dəyişdirir. Den Braun "Mələklər və şeytanlar" və "Da Vinçi şifrəsi" romanlarında olduğu kimi burada da əsas məqsədi həqiqəti tapmaqdan ibarətdir. Fərq, sadəcə həqiqət axtarışının postmodern olmasındadır. Den Braun bəşəri problemləri cəmiyyətdaxili qlobal çatışmazlıqlar kimi qələmə verir. Postmodern cəmiyyətdə ənənəviləşmiş gündəlik proseslər bir tərəfdən də ədəbiyyatın söz bazasını zənginləşdirir. "Bölüm döşəyi", "gözəl sektor", "errorist" və s. kimi ifadələrin yaranması [148] bu mənada

polifoniklik yaradır.

"Den Braun bədii üçbucağı" romanda postmodernizmi müəyyən edən ədəbi düstur kimi çıxış edir. Dantenin cəhənnəm, cənnət anlayışlarını Den Braun bu günün və gələcəyin problemi kimi təqdim edir. Dantenin "Cəhənnəm"i daha çox mənəvi, Den Braunun "Cəhənnəm"i isə maddidir. XIII-XIV əsrlər İtaliyasının sosial və mədəni mənzərəsi XXI əsr dünyasının xaotik cəmiyyətinə köçürülür. Den Braun bu kollajı Dantenin poema dilini roman metadilinə çevirərək təqdim edir. *"Əslində belə görünür ki, postmodern çeşidlilik baxımından öz ideologiyasını qarşılayır və ona qucaq açır. O metadilin ümumiləşdirici jestlərinə və onu uyğun izahedici nəzəriyyələr toplusu kimi təsvir etmək cəhdinə müqavimət göstərir"* [151, s.279].

"Cəhənnəm" romanında gerçəkliyin imitasiyası xaosun izahedicisi funksiyasındadır. Başqa sözlə romanda pastiş informativ xarakterlidir [34]. Bu keçidin tez-tez yerdəyişmə etməsi gerçəkliyin imitasiyasına təsirsiz ötüşmür. Den Braun gerçəkliyi imitasiya etməklə müasir dünyanın problemləri nümunəsində Dantenin qaranlıqdan, səhvdən ilahi nura tərəf səyahətini [192] sosial hadisəyə çevirir. Den Braun insanların sayının sürətlə çoxalmasını müasir dünyanın cəhənnəmi hesab edir. Den Braunun pastişi həll motivlidir. Bu həll insanların sayının azaldılmasıdır. Başqa sözlə, Den Braun insan amilini xilasın mümkünlüyünün ən optimal variantı hesab edir. Məsələn, "Arzulardan sonrakı şəhər" romanında gerçəkliyin imitasiyası Qədim Misirlə Qarabağ müharibəsinin kollajını yaradır. Amanis Misir ehramlarının inşası zamanı əsir düşərək tikintiyə cəlb edilir. Şərif Ağayar azadlıq mövzusunu gerçəkliyin imitasiyasının birinci komponenti kimi təqdim edir. *"Bütün varlığımızla ağamıza məxsusuq. Ağamız tanrımızdır. Bizi yaratmasa da, yaşatmaq və öldürmək iqtidarındadır. Məşəqqətli həyatımızı dərk edib əzab çəkmək qabiliyyətimiz heyvandan yeganə fərqimizdir"* [10, s.18]. "Arzulardan sonrakı şəhər" romanında həll arzu əsaslıdır. Müəllif azadlığın və müharibənin həllini öz utopik dünyasında yaradır. Qədim Misir insanı İterünün köləsidir. Müasir insan da müharibənin kölgəsidir. Müharibə mövzusu romanda pastişinin ikinci komponentidir. *"Hamımızı İterü yaradıb, İterü dolandırır, İterü də ağuşuna alır. O olmasa, hər yan susuzluqdan yanıb kül olar, gözəl çəmənliklər, ağaclar, kollar məhv olub gedər. Heç*

*heyvanlar da olmaz. İterü olmasa, biz ömrümüzü hesablaya bilmərik. Hər daşqınla ömrümüzün bir pilləsi başa çatır"* [10, s.35].

Den Braun Dantenin mətnini "Cəhənnəm" romanına montaj edir. Bu montajı başqa sözlə intertekstuallıq da adlandırmaq olar. *"Postmodern təhkiyədə intertekstuallıq fərqli bir istiqamətdədir. Burada mətn, sadəcə olaraq, oyun parçasıdır. Klassik və modern romanlarda mənanı dərindən ortaya qoyan intertekstuallıq postmodernist əsərlərdə daxili və zahiri gerçəkliyi izah etmək imkanına malik deyil"* [107, s.47]. Romanda daxili və zahiri gerçəkliyin təsviri nisbidir. Cəhənnəm anlayışı Den Braun kollajının subyektiv istiqamətidir. Den Braun metadil və metatəhkiyə vasitəsilə Dantenin cəhənnəm mövzusunu distopiyaya çevirir. Dantenin cəhənnəmi İslam dinindəki cəhənnəm kimi qarışıq və əzablıdır [92]. Den Braunun cəhənnəmi Məhəmməd peyğəmbərin meracı məsələsi ilə müqayisədə daha realdır [44].

Den Braunun gerçəklik anlayışı "Cəhənnəm" romanında postmodern strukturun əsas sütunudur. Yazıçı romanda mövcud problemlərin həllini Maltus nəzəriyyəsi vasitəsilə izah edir. Tomas Maltus "Əhali haqqında esse" əsərində demoqrafik problemlərdən geniş söz açmışdır. Maltus nəzəriyyəsi dünyada insan sayının kəskin artımını qarşısını almaq üçün əhalinin ciddi sürətdə azaldılmasını təklif edir. Den Braun Maltus nəzəriyyəsinin bu təklifini pastişə çevirərək daha obyektiv və optimal həll təqdim edir. Bu həll Dantenin insanların daxilən təmizlənməsi ideyasının müasirləşdirilmiş variantıdır. Den Braun Maltus nəzəriyyəsindən material kimi istifadə edərək insan azadlığı konsepsiyasına diqqət çəkir. Misal olaraq, "Arzulardan sonrakı şəhər" romanında insanın azadlığı pastiş elementi kimi uğurla işlənir. "Arzulardan sonrakı şəhər" romanında gerçəkliyin imitasiyası azadlığa və müharibəyə ironiyadır. Müəllif balaca Həsənin arzuları və daxili dünyası ilə paralel maraqlı oyun estetikası qurur. Həsən müharibənin mərkəzində böyüdüyü üçün çoxlu psixoloji travmalar alır. Namaz kişinin ayağının İtaliyaya bənzədilməsi bu oyunun davamı kimi maraqlı tapıntıdır. *"Mən dünya xəritəsini Namaz kişinin ayağı basdırılan yeri axtara-axtara öyrənmişəm və uzun müddət, insan ayağına oxşayan İtaliyanı Polşa zənn etmişəm"* [10, s.77].

Bəşəriyyətin bu günü və gələcəyi insandan asılıdır. "Cəhənnəm" romanında insan amilindən aparıcı konsept kimi istifadə edilir. Romanda pastiş məkan və zaman kombinasiyasının modern təqdimatı kimi diqqət çəkir. Sonradan təhlükəsizlik məqsədilə adı dəyişdirilən Konsorsium romanda məkan konsepti kimi geniş mənada müasir dövrü xarakterizə edir. Bu təşkilat məhdud mənada xilas-antixilas keçidinin strukturunu müəyyən edir. Müəllifin zaman konsepti müasir dövrün xaosudur. Hər iki konsept bəşərin bu gününün və gələcəyinin dərki baxımından önəmli statusdadır. *"Konsorsium yeganə qurum idi ki, nəyin bahasına olursa olsun, müştəriyə verilən sözü yerinə yetirməli idi. İnsani hisslərdən söhbət belə gedə bilməzdi"* [24, s.52]. Müəllif azadlıq anlayışının köməyi ilə vizual məkanları lokallıqdan çıxarır. Zaman konsepti də hər iki romanda müharibənin, xaosun köməyi ilə nisbiləşir.

"Den Braun bədii üçbucağı" "Cəhənnəm" romanında gerçəkliyin imitsiyasının ədəbi-nəzəri məziyyətlərini aydınlaşdırır. "Qara ölüm" elmi xətlə sosial xəttin hibridi kimi diqqəti cəlb edir. Tarixdən məlumdur ki, Orta əsrlər Avropasında bir çox xəstəliklər tüğyan etmiş, çox sayda insanın həyatına son qoymuşdur. Davam etməkdə olan Covid-19 pandemiyası nümunəsində yazıçının gələcəklə bağlı narahatlıqları reallaşmağa başlayır. *"1300-cü illərdə Avropada yayılan vəba bəzi əyalətlərdə sakinlərin üçdə birini öldürübmüş. Çoxları "Qara ölüm" ifadəsindəki "qara" sözünün qanqren və dərialtı qanaxmalara istinadən istifadə olunduğunu düşünmürdü. Əslində isə "qara" sözü əhali arasında yayılan bu pandemiyanın yaratdığı qorxunu ifadə edirdi"* [24, s.57]. Başqa sözlə, Den Braun kəskin əhali atrımını dünyada baş verən müharibələr örnəyində "qara ölüm"ə çevirir. Müəllifin narahatlıqları bu gün yerini müsbət mənada həllini tapır.

Dantenin "Cəhənnəm"indən keçən insanlar "Əraf"a, daha sonra "Cənnət"ə düşürlər. "Cəhənnəm" romanında isə insanlar günahlarının dərəcəsindən asılı olmadan məhvə məhkumdurlar. Den Braun insanların xilasını Dantenin mənəvi və Maltusun maddi ideyalarının təkmilləşdirilməsində görür. İnsanların sayının çoxalması onların azadlığını da məhdudlaşdırır. Azadlığın məhdudlaşdırılması onu nisbiləşdirir. Belə olduqda, gözlənilən fəlakətin icra ehtimalı yüksəlir. *"Seçilmək Allahın əmridir. Bir özünüzə sual verin – Qara ölümdən sonra nə yaşandı? İntibah.*

*Yenidən doğulma. Həmişə belə olub. Ölümü yeni doğulma əvəzləyib. Cənnətə yetişmək üçün insan cəhənnəmdən keçməlidir. Bunu usatdımız bizə öyrədib"* [24, s.60]. Romanda ümumi mənada azadlığı məhdudlaşdıran müharibədir. Müəllif romanda müharibəsinin formalarını postmodern boyalarla təsvir edir. Məsələn, Bioloji müharibə zamanı orduya külli miqdarda vəsait xərcləməyə ehtiyac qalmır. Bioloji silahlar görünməz şəkildə insanların məhvini, böyük iqtisadiyyatların çöküşünü asanlıqla icra edir. Covid-19 pandemiyası da bioloji müharibə kimi böyük iqtisadiyyatların məhvinə hesablanmışdır.

Den Braunun pastişi təkcə hadisələrin yox, həm də insan münasibətlərinin, hisslərinin təsvirindən ibarətdir. Xaos, müharibə, eləcə də azadlığın məhdudlaşdırılması mənəvi hissləri öldürür, özgələşməyə səbəb olur. Sevgi müqəddəs bir akt kimi həyəcanla əvəzlənir. Dantenin Beatriçeyə olan məhəbbəti Robert Lənqdonun Sienna Bruksa olan hissləri ilə müqayisədə çox güclüdür. Lənqdonla Bruksun münasibətləri hissidir. Onları birləşdirən apardıqları mübarizədir. *"Sadəcə, adrenalin olduğunu bilsə də, bu amerikalı professora qarşı qəribə hisslər duyurdu. Yaraşıqlı olmasından başqa həm də gözəl ürəyə sahib idi. Hansısa paralel dünyada o, Robert Lənqdonla bir yerdə olmağı istəyərdi"* [24, s.68]. Məsələn, Şərif Ağayarın təhkiyəsindəki ruh, enerji azadlığın dili kimi [108] maraqlıdır. Şərif Ağayarın dil oyunları birbaşa azadlığın şərhinə yönəlir. "Arzulardan sonrakı şəhər" romanında insan münasibətləri xaosun daxilində boy atır. Şərif Ağayarın pastişinin bir elementi də azadlıq anlayışı daxilində sevgi aktının nisbiləşməsidir. Müharibə sevgini ali dəyər səviyyəsindən keçici yaşantıya çevirir. Həsənlə Gülsümün münasibətləri bu mənada keçmişə ironiyanın subyektiv reallığı kimi maraqlıdır. *"Bircə Gülsümlə söhbət edirdim. O, mənim yeganə dostum idi. Mən də onun. İkimiz də giriş qapısının üstünə iri hərflərlə "oxumaq, oxumaq, yenə də oxumaq" yazılmış məktəbdə qərib idik. O, nənəsi urus olduğuna, mənsə müharibənin içindən gəldiyimə görə..."* [10, s.43]. Amanisin, Həsənin simasında "Arzulardan sonrakı şəhər" romanının qəhrəmanları hərəsi bir cür məhkumdurlar. Əsərdə Amanislə, Misirlə bağlı hissələrin yaxşı işlənməməsi, dekor səciyyə daşıması [15] azadlıq konseptinin estetikasını zəiflədir.

“Cəhənnəm” romanında hadisələr məzmunsuz olaraq uzanır. Belə olduqda, əsərin əsas ideyasının estetik dəyəri azalır. Dantenin “İlahi komediya”sında insanlar saflaşaraq itirdikləri azadlıqlarını bərpa edirlər. Dante bütün insanları “Əraf”a və “Cənnət”ə aparmır. Günahının dərəcəsi yüksək olanlar “Cəhənnəm”də yanırlar. “Cəhənnəm” romanında günah aktı Danyetə nəzərən ümumbəşəridir. Müasir dünyanın problemləri eynilə Dantenin poemasındakı kimi qorxuncdur. Dünyanın müxtəlif köşələrində minlərlə insan müharibədən, terrordan, işsizlikdən, aclıqdan, susuzluqdan və s. əziyyət çəkir. Burada ən böyük səbəblərdən biri, təbii ki, kapitalizmdir. Dantenin “Cəhənnəm”ində olduğu kimi bu insanlar qıf formasında Yerdən qoparaq məhvə gedirlər. *“Bu naxışlı sümükdən çıxan işıq, divarda insan iztirablarını əks etdirən təsvirlər yaratmışdı – cəhənnəmin ayrı-ayrı qatlarında minlərlə insan zülmə məruz qalırdı. Yerin kəsilmiş bir hissəsi aşağıya doğru çarpazlaşan, bir növ, qıf formasında görüntülənirdi. Bu cəhənnəm qıfının aşağıya doğru azalan çıxıntıları cürbəcür günah törətdiyi üçün əzab çəkən insanlarla dolu idi”* [24, s.77].

Romanda bəşərin bu gününün və gələcəyinin postmodern dərkinin gerçəkliyin imitasiyası şəklində təqdimi postmodern oyun texnologiyasının komponentidir. Den Braun müasir insanın ifrat intellektuallığını məharətlə xaosun səbəblərinə bağlayır. Müəllif cənnəti bilgisizliklə ifrat intellektuallığın arasında axtarır. Robert Lənqdon mühazirə deyərkən “burda nə qədər yazıçı var?” – deyə auditoriyaya müraciət edir. Zalın 1/3 hissəsi əlini qaldırır. Lənqdon təəccüblənir. İstehza ilə autoriyanı dünyanın ən kamil auditoriyası adlandırır. Bununla da yetinməyərək interneti günahlandırır. *“Ya bu dünyanın ən kamil autoriyasıdır, ya da ki, internet sayəsində nəşriyyat öz yerini genişləndirib”* [24, s.106]. “Cəhənnəm” romanında pastiş bədii mətnin obrazlar sisteminə də təsirsiz ötüşmür. Obrazlar sisteminin alternativ tarix və gerçəklik kontekstində təhlili yazıçıda müəyyən zəruri ümumiləşdirmələr yaratmaq meyilləri də formalaşdırır [elmi nəticənin nəşri üçün bax: 33]. Romanda Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəhbəri Elizabet Sinskeyin timsalında böyük ideyaların müzakirəsi davam edir. Naməlum şəxsin – Siluetin ÜST rəhbəri ilə dialoqu maraqlı detaldır. Siluet ÜST rəhbərini mövcud təhlükə barədə xəbərdar etməyə çalışır.

*"Sözüm əhalinin artımının daha dramatik olmasındadır. Bizim kağızlarımız kimi dünya əhalisinin də artımı cüzi saydan başlasa da, potensial təhlükədir"* [24, s.127]. ÜST rəhbəri təşkilatın insanların səhiyyə problemlərinə biganə qalmadığını qeyd edir. Afrikada bioloji, cinsi sağlamlığı qorumaq üçün seminarlar təşkil etdiklərindən danışır. Bu seminarlardan əlavə ÜST-ün onlara qoruyucular paylandığını da əlavə edir. Afrikanın timsalında müəllif gerçəkliyi imitasiya etməklə polifonik və ironik bədii oyun qurur. Dünyanın iqtisadi və mədəni baxımdan geri qalan Afrika qitəsində qoruyucudan istifadə olunaraq nəticəyə əldə olunması uzun prosesdir. Siluet də cavabında bunun o qədər önəmli olmadığına diqqət çəkir. Bununla Den Braun zəif, elmsiz kütlənin daha tez məhv olacağına işarə edir. *"Daha nüfuzlu katolik missionerləri isə Afrikaya soxularaq qoruyucudan istifadə edənlərin cəhənnəmə düşəcəyini onların beyninə yeritdi. Afrikanın yeni bir ekoloji problemi yaranıb – zibilxanalar istifadə olunmamış qoruyucularla dolur"* [24, s.129]. Bu gün ÜST dünya dövlətlərini Covid-19 peyvəndlərinin ədaləti bölgüsünə səsləyir. Xüsusən, Afrika kimi yoxsul qitədə peyvəndlərin əlçatan olması olduqca vacibdir. Peyvənd millətçiliyinin pandemiyanın vaxtını uzatması və gələcək təhlükələrin davamlılığına təsir edəcəyi labüddür. "Cəhənnəm" romanında verilən proqnozların bu gün müəyyən mənada icra olunması mövcud təhlükələrinin böyüklüyünə və reallığına işarədir.

Müəllif tez-tez statistik məlumatlara da müraciət edir. Bu məlumatlar pastişin təsvir dairəsini böyüdür. Məsələn, 1800-cü ildə dünya əhalisinin sayı bir milyard idi. XX əsrdə kütləvi artımlar baş verdi. Sonrakı illərdə bu artım daha da çoxaldı. Birinci və İkinci Dünya müharibələri bu prosesi nisbətən ləngitsə də, ciddi dəyişiklik yarada bilmədi. 1970-80-ci illərdə isə dünya əhalisi təxminən dörd milyard idi. Həmin dövrün sosial-iqtisadi həyatı daha gözəl və təhlükəsiz idi. O illərdə əksər ölkələrdə ədəbiyyat, kino, incəsənət kimi sahələrdə yüksək inkişaf müşahidə olunurdu. Bu gün müasir texnologiyaların ifrat inkişafı dövrün mənzərəsini tamamilə dəyişdirib. *"Son olaraq postmodernizm, gerçəyin böyük ölçüdə virtuallaşdığı, bilginin oyunlaşdığı, dünyanın kiçik bir kəndə çevrildiyi "Media əsri" ortamında sürətlə təkmilləşib yayılmış olduğunu vurğulamaq istəyirik. Televiziya, video, faks, telefon, bilgisayar, internet, CD, DVD, VCD texnologiyasının baş döndürən sürətlə inkişafı və ən kiçik*

*vahidlərə qədər yayılması, modernizmin müxtəlif sahələrdəki bir çox tabusunu yıxmışdır"* [139, s.170]. Müasir dövrdə texnologiyanın yüksək inkişafı qarşısının alınması zərurətə çevrilmişdir. Eləcə də dünya dövlətlərinin alacağı ciddi tədbirlərlə insanların sayı dörd milyarda endirilməlidir. Belə olduqda, dünyada 1970-80-ci illərdəki nizam yenidən bərqərar ola bilər. *"İstənilən ekoloji bioloqist və ya statist bəşəriyyətin uzun müddət var olması üçün ideal rəqəmin dörd milyard olduğunu təsdiqləyər"* [24, s.132]. Romanda yaxın onilliklərdə dünya əhalisinin daha da artacağı istisna olunmur. Ciddi bioloji, iqtisadi, ekoloji problemlərin yaranacağı labüddür. Nəticədə, insan azadlığı daha da nisbiləşəcək.

Den Braun gerçəkliyin imitasiyasını şərhlər vasitəsilə gücləndirir. Bu izahlar sayəsində oxucu hadisələrə daha konstrukstiv yanaşır. Dünyada baş verən kəskin əhali artımı Den Braunun mövcud reallıqlarla mübarizə cəhdidir. Hər şeyin sürətlə dəyişdiyi indiki zamanda hadisələr öz-özünü şərh edir. Belə olduqda, həqiqəti tapmaq müşkülə çevrilir. Romanda pastiş bu elementi müəyyən etməyin postmodern üsuludur. Den Braunun həll kimi təqdim etdiklərinin icrası mümkünsüz görünür. Romanda hadisələrdən çıxış yolu proses olaraq gizli və ləng təəssüratdadır. Den Braunun şərhləri hadisələrin daxilindədir. Müəllifin xaosdan çıxış planı fiksiyanı xatırladır. *"Postmodernist nəsr şərh tələb edir və özü də intəhasız sayda şərhlər verir. Bunun əsas səbəbi nədir? Ümumi səbəb ondan ibarət ola bilər ki, şərhlərin çoxluğu əslində onların mümkünsüzlüyü, bir nöqtədə, sabit ideya mərkəzində birləşə bilməməsi halı ilə əlaqədar idi. Gerçəkliyə, onun dərin nəhrində baş alıb gedən hadisələrə verilən şərhlər yetərli deyil, çünki bu hadisələrin özləri fiksiyadır, onların arasında hansısa həqiqəti üzə çıxaracaq bir əlaqə yoxdur"* [7, s.68].

Den Brauna görə, əhalinin sürətli demoqrafiyası pandemiyalardan, eləcə də, iqlim dəyişikliyindən az önəmli deyil. İnsanların çoxu bu təhlükələrdən xəbərsizdirlər. İnsanlar bilərək və ya bilməyərək hadisələrin mahiyyətini operativ olaraq dərk edə bilmirlər. Qədim insanlar ehramlar, böyük abidələr tikməklə dünyanı dəyişdirdiklərini düşünürdülər. Bu günün insanı da texnoloji inqilabların arxasınca qaçaraq ölümsüzləşməyə çalışır. Bir neçə ildən sonra elektrikli avtomobillər avtomobil sənayenin böyük hissəsini təşkil edəcək. Belə olduqda, neft kəskin şəkildə

dəyərdən düşəcək. Dünya ciddi iqtisadi böhranla qarşı-qarşıya qalacaq. Belə getsə kommunizmin təklif etdiyi sinifsiz cəmiyyət real olaraq formalaşmağa başlayacaq. Məlumdur ki, kapitalizmdə ancaq aşağı və yuxarı təbəqələr mövcuddur. Kommunizmdə isə ancaq orta təbəqə var. *"Gözlərinizi açın! Bəşəriyyət məhvin astanasındadır, amma dünya liderləri hələ də öz iclas zalında oturub günəş enerjisi, təkrar istehsal və hibrid avtomobillərlə bağlı araşdırmalar aparırlar"* [24, s.175].

Den Braunun pastişi Maltus nəzəriyyəsini alt-üst edir. Romanda Bertrand Zobrist dünyada əhali artımının qarşısını almaq üçün xüsusi maddə hazırlayır. Onun hazırladığı bu maddə günahının dərəcəsindən asılı olmadan bütün insanların məhvinə hesablanıb. Zobrist Dantenin vurğunudur. Lakin tamamilə onun ideyalarına zidd hərəkət edir. *"Riyazi hesablamalara əsasən, dünya əhalisinin sayı artdıqca insanlar daha uzunömürlü olurlar və təbii sərvətlər də tükənir. Tarazlıq nəzəriyyəsinə görə artım cəmiyyətin faciəli çöküşünə gətirib çıxaracaq. Zobrist açıq şəkildə, kütləvi qırğın olmazsa, dünya əhalisinin xilas ola bilməyəcəyini elan etmişdi"* [24, s.223]. Sienna Bruks ilə Robert Lənqdon Zobristin esselərini müzakirə etdikcə dəhşətə gəlirlər. Zobristin hazırladığı virus insanları dərhal məhv etmir. İnsanlar əvvəlcə sonsuzluğa düçar olurlar. Zobristə görə, insanların xilası müxtəlif amillərlə bağlıdır. Bunlar müharibə, pandemiya, təbii fəlakətlər, aclıq, susuzluq və s. şəkildə ola bilər. Müharibə olsa, ordusu, texnikası güclü olan ölkə qalib gələcək. Pandemiya tüğyan etsə, dayanıqlı iqtisadiyyata malik dövlətlər daha tez xilas olacaq. Təbii fəlakətlərin baş verməsinin qeyri-müəyyən nəticələri ola bilər. Aclıq, susuzluq kimi amillər isə əsasən Afrikanın kasıb ölkələrini məhv edəcək. Nəticədə, bəşəriyyət bu ritorik sualla qarşı-qarşıya qalacaq: Bütün bunlar xilasdır, yoxsa antixilas?! *"Essedə deyilirdi ki, bəşəriyyət uçurum kənarında dayanıb. Qlobal artımın sürətini azaldacaq hansısa bir fəlakət baş verməsə, insan nəslinin ömrü yüz ildən də az qalıb"* [24, s.266].

"Cəhənnəm"də insan sonsuzluğa doğru addımlayır. Bu sonsuzluğun nəticəsinin xilas və ya məhv olması birbaşa insanın əlindədir. Dantenin fəlsəfəsi də bunu deyirdi. *"Yaxşılığın üçün arxamca gəl, izlə məni, rəhbərin olacağam, buradan alıb, əvvəli, sonrası olmayan bir yerə götürəcəyəm səni"* [45, s.35]. Zobristin təklif etdiyi sonsuzluq yaradan maddə ilk baxışda bəşəriyyətin xilasına, əhalinin sayca kəskin

azalmasına yönəlsə də, qeyri-müəyyəndir. Belə ki, insan orqanimzminin dəyişkənliyi, eləcə də dünya ölkələrinin kapital dəyərlərinin müxtəlif olması kimi amillər bu xilası asanlıqla antixilasa çevirə bilər. Dünyada əhali sayı çoxaldıqca problemlər də çoxalır. Təbii sərvətlər tükənir. Robot sənayesinin inkişafı insan kapitalına olan ehtiyacı azaldır. Belə olduqda, kütləvi işsizlik yaranır. *"Bertrandın virusunun imkanlarını nəzərə alsaq, dünya əhalisinin üçdəbir hissəsi artıq sonsuzdur və həmin üçdəbir hissə həmişə bu cür qalacaq. Ressesiv gen kimidir... yəni bu, nəsildən-nəslə keçir, amma bəzilərində özünü göstərir"* [24, s.540]. Misal olaraq, "Arzulardan sonrakı şəhər" romanında insan azadlığı probleminin daxilində də bu təbəddülatlar mövcuddur. Romanda müharibə səsləri böyüyür, qoz boyda, fındıq boyda olur. Bütün bunlar böyük xaosun kiçik işarələridir. Başqa bir nümunə. Amanis Yaşıl vadidən ayrı düşməklə ailəsindən, oğlundan da ayrı düşür. Amanis oğlu Asirusu xatırlayaraq etdiyi işin doğru olub-olmaması arasında var-gəl edir. İnsanın böyük fərdi həqiqətlərin tərkibində olması onun obyektiv reallığa olan köməyi ilə müqayisədə çox zəifdir. *"Asirus, sən hardasan, oğlum? Yəqin ki, böyümüsən. Mən burda, İterüyə yaxın səhrada ehram tikirəm. Bilirsən ehram nədir? Dünyanın ən nəhəng tikintisi!"* [10, s.116].

Dini kitablara görə, insanlar cəhənnəmə işlədikləri günahların dərəcəsinə görə [92; 126] düşürlər. Den Braunun pastişi qeyd olunan fikrin bazasında qurulur. Hazırda xaos dünyada ən böyük sistemsizlikdir. O, insanları xəbərsiz idarə edir. Xaosun məhvinin həll kimi verilməsi, demək olar ki, utopikdir. *"Əlini əlinin üstünə qoyub gözləmək Dantenin cəhənnəmini Salamlamaq deməkdir... o cəhənnəmi ki, hər birimiz orda ac-yalavac günah içində batacağıq. Və buna görə də mən hərəkətə keçmişəm. Bəziləri qorxudan aradan çıxacaqlar, amma qurtuluş qurban tələb edir. Bir gün dünya mənim bu qurbanımın gözəlliyini dəyərləndirəcəkdir"* [24, s.431]. Den Braun insanların sonsuzluğu məsələsini qabardaraq bu problemi Maltus nəzəriyyəsinin önünə keçirir. Sonsuzluq problemi insanlardan asılıdır. Müəllif sonsuzluq probleminin örnəyində insanların övlad sahibi olarkən diqqətli olmalarına eyham vurur. Hansısa bir fəlakətin baş verməsindənsə insanların uşaq sahibi olarkən ciddi düşünmələri absurd səslənsə də, məntiqlidir. Məsələn, Çin Xalq Respublikası

hökuməti tərəfindən 1979-cu ildə tətbiq olunmağa başlayan 2015-ci ildə mərhələli şəkildə ləğv olunan "Tək uşaq siyasəti" əhali artımını ciddi nəzarətdə saxlamışdı. Hazırda Hindistan əhalisinin sayına görə Çini keçərək birinci yerdə qərarlaşıb.

"Cəhənnəm" romanında gerçəkliyin imitasiyası keçmişin qalıqları üzərindən müasir dövrün postmodern ədəbi şərhinə çevrilir. Müəllif insanları keçmişdən ibrət alaraq mənəvi katarsisə dəvət edir. "Cəhənnəm" romanında pastişin təhlili ilə postmodern strukturunu tamamlayan sonuncu komponentin – postmodernizmin ilk istiqaməti aydınlaşdırılmış oldu.

### 3.2. "Cəhənnəm" romanında gerçəkliyin dekonstruksiyası

"Destrukiya" (dağıtma, sökmə) və "konstruksiya" (quraşdırma, tikmə) sözlərinin birləşməsindən yaranan dekonkstuksiya termini ilk dəfə Jak Derrida tərəfindən irəli sürülmüşdür. Dekonstruksiya Dekonstruksiya zamanı mətn dağıdılır, daha sonra yenidən qurulur. Dekonstruksiya destruksiya qədər konkret məzmunlu deyil. Dekonstruksiya nəticəsində nəyin yarana bildiyi önəmlidir [54]. Dekonstuksiya rekonstruksiyadan fərqli olaraq bərpa deyil, inşadır. Rekonstruksiyada əvvəlki mətnin çatışmayan hissələri bərpa edilir. Derridaya görə, insanların düşüncəsində müsbət və mənfilər dekonstruksiya vasitəsilə ikili ziddiyyətlərin arasındakı uçurumu aradan qaldırmağa [178] xidmət edir.

"Cəhənnəm" romanı Dante Aligyerinin "İlahi komediya" poemasının dekonstruksiyasıdır. Bu mənada romanda gerçəkliyin dekonstruksiyası gerçəklik və onun postmodernist strukturunun postmodernizm komponentinin ikinci istiqaməti kimi önə çıxır. Romanda postmodernizmin gerçəkliyə nəzərən xarakterizəsi dekonstruksiya vasitəsilə davam edir. Den Braun humanist sənətkar Dantenin "Cəhənnəm"i əsasında gerçəkliyi dekonstruksiya edərək insanlarını ayıq-sayıq olmağa səsləyir [31, s.177]. XIV əsr italyan ədəbiyyatının nümunəsi olan poemanın I hissəsinin – "Cəhənnəm"in mətni Den Braun tərəfindən sökülür və yenidən qurulur. "İlahi komediya"nın ideya-məzmun xətti daha çox nəsihətamiz səciyyə daşıyır. Bu xarakteri qoruyub saxlamağa çalışan Den Braun dekonstruksiyasının trayektoriyasını detektiv janr vasitəsilə postmodern gerçəkliyə çevirməyə cəhd edir. Postmodernizmə

trans-tarixi baxımdan yanaşdıqda "İlahi komediya" Tövratın, İncilin [137] və eləcə də Qurani-Kərimin [92] elementar dekonstruksiyası hesab oluna bilər. Hər üç müqəddəs kitabın cənnət və cəhənnəm anlayışları "İlahi komediya"dakı əzab-mükafat kodeksinə uyğundur. Dantenin gerçəklik anlayışına didaktik münasibəti bir sıra məşhur nümunələrin ideya-məzmun xətləri ilə ortaq ədəbi-estetik dəyərdədir. Hind ədəbiyyatının şah əsərlərindən olan "Kəlilə və Dimnə" [83] utopik və distopik gerçəkliyi nəsihətamiz və alleqorik məzmunda təqdim edir. Kəlilə doğruluğu və dürüstlüyü təbliğ edir. Dimnə isə yanlışlığı, yalanı simvolizə edən qəhrəmandır. Bu yanaşma fars ədəbiyyatında "Qabusnamə"nin [84] poetik-estetik məzmun və ideya xətti ilə davam edir. Ailə, məişət, evlilik, idarəçilik, davranış qaydaları və s. mövzuları özündə əks etdirən bu əsərə bu gün də tez-tez müraciət olunur. Əsərdə müxtəlif mövzular barədə verilən nəsihətamiz fikirlər "İlahi komediya" peomasında insanların saflaşması ideyası ilə birləşir. Ümumtürk ədəbi nümunəsi "Qutaqdu-biliy"in [21] alleqorik, didaktik məzmunu, eləcə də Nizami Gəncəvinin "Sirlər xəzinəsi" [61] əsərinin humanist, demokratik istiqamətləri ilə "İlahi komediya" poeması arasında ideya-bədii əlaqə olduqca güclüdür. Müxtəlif mövzulu hekayət və rəvayətlərdən ibarət olan "Sirlər xəzinəsi" poeması təkcə Xəmsənin deyil, eləcə də yüksək əxlaqi, didaktiv mövzuların açarı rolundadır.

Realist romançılardan fərqli olaraq Den Braun biliyə, sənədə material kimi müraciət edir. "Cəhənnəm" romanında elmə və sənətə aid informasiyalar birləşir. Bu birləşmə müəllif dekonstruksiyasının Dante ideyalarını gələcəyə yansıtmaq cəhdi ilə dəyər qazanır. Den Braun yaşadığı dövrün reallıqları daxilində absurdun dekonstruksiyasını da gücləndirir. *"Realist romanın nəhəngləri romanlarında tip yaratmaq və yaşadıqları dövrü gələcəyə yansıtmaq üçün yola düşmədilər. Sənəd deyil, bilik idi sahib çıxdıqları; üstəlik elmi informasiya ilə sənətə aid informasiyanı ayırd edərək. Roman sənətinin bənzərsiz nümunələrini yaradarkən, öz dövrlərinə də şahidlik etmiş oldular"* [131, s.27].

"Cəhənnəm" romanı "İlahi komediya"nı montaj edərək onun bədii, estetik xüsusiyyətlərini müasirləşdirir. Den Braunun postmodernizmə münasibəti bu mənada sadəliyi və dəqiqliyi ilə diqqət çəkir. ABŞ və İngiltərənin universitet mühitlərinin

təsvir etdiyi dekonstruktiv və təqdimat xarakterli postmodernizm Den Braun yaradıcılığına da xasdır. *"Amerikada və İngiltərədə universitet mühitlərinin təsvir etdiyi postmodern görüş hardasa təkcə dekonstruktivlik və təqdimat problemləri ilə bağlıdır. Bir tərəfdə ədəbiyyatın tənqidi və fəlsəfə, fəlsəfənin yazmaq və hər yazı performansının təkcə bir təsvir şəkli olması səbəbi ilə, həqiqət düşüncələrinin keçərlilik daşımadığı əsasların eroziyası problemi ilə maraqlanırlar"* [131, s.12-13]. "Cəhənnəm" romanı "İlahi komediya"dakı xilas modelinin müasir versiyasıdır. Den Braun Dante kimi insanların həqiqəti tapması üçün günahlardan təmizlənməsini vacib hesab edir. Məsələn, romanda Yeddi ölümcül günah məsələsinə toxunulur. Bu latın dilində yeddi ən böyük günahın baş hərflərindən ibarət olan "SALİGİYA"dır. "SALİGİYA" bəşərin keçmişinə və bu gününə nəzərən elmin gətirdiyi "bəla"nı xarakterizə edir. Məlum olduğu üzrə, orta əsrlər Avropasında din elmi üstələmişdi. Bunun mərkəzində Kilsə olduğu düşünülsə də, bu sadəcə, versiyadır. Ümumilikdə cəmiyyətdəki fəaliyyətsizlik, xaos bu səbəbin mərkəzi hesab olunmalıdır. Dini xurafat asanca elmi yenərək insanları əhatəsinə alırdı. Xurafat meyilləri insanların yaşam tərzinə, həyat fəlsəfəsinə çevrilirdi. *"Saligia insanlığın günahlarını özündə cəmləyir... və orta əsrlər dini qavrayışına əsasən elm..." "Allahın insanlara göndərdiyi Qara ölümün səbəbi idi", – Sienna onun fikrini tamamlayaraq dedi"* [24, s.74].

Modernizmdən və tradisionalizmdən fərqli olaraq postmodernizmin mahiyyətindəki yenilik demokratikdir. "Cəhənnəm" romanında gerçəkliyin dekonstruksiyası postmodern strukturun bazasında formalaşır. Dantenin fəlsəfəsi, absurdu bu günün qorxunc reallıqları ilə birləşir. Romanda ümumi mənada müharibənin, xaosun ümumbəşəri dəyərləri zədələməsi postmodern cəmiyyətin əlaməti olsa da, səbəbkar xaosdur. *"Postmodernistlər Qərbi ittiham etmir, modernizm ilə tradisionalizmi bir-birinə qarşı qoymur və universal ümumbəşəri dəyərlərin mövcudluğunu təkidlə sübut etməyə çalışırlar"* [89, s.424]. "Cəhənnəm" romanının postmodern gerçəklik daha realdır. Bu gerçəklik Cəhənnəm filmindəki səhnələrdəki [116] vizuallıqdan fərqli olaraq daha dinamik və operativdir. "Cəhənnəm" romanında dekonstruksiya tarix və alternativ tarix kontekstində obrazlar sisteminin sadəliyindən

formalaşır. Robert Lənqdon, Sienna Bruks, Dr. Makroni, Elibazet Sinskey və Bertand Zobrist kimi obrazlar müasir “Cəhənnəm”in sakinləridir. Onların yaşadıqları “Cəhənnəm” Dantenin “Cəhənnəm”i kimi qarışıq, əzablıdır. “İlahi komediya”da müşahidə olunan Tanrının, eləcə də onun düşmənlərinin sevmədiyi insanlar müasir dövrdə xaosa səbəb olan insanlardır. *“Dərhal başa düşdüm, inandım ki, Tanırının da, düşmənlərinin də sevmədikləri pislər sürüsü idi bunlar”* [45, s.50].

Dantenin sadə və estetik bədii dili Den Braunun metadili ilə müqayisədə daha canlıdır. Dante dövrünün universallığını keçmişə ötürmüşdü. Den Braun şairin ideyalarını Maltus nəzəriyyəsinin fonunda universal insan yaratma cəhdi ilə tamamlamağa çalışır. Dantenin universal dünya, universal insan anlayışları fikir, eləcə də səbəb-nəticə əlaqəsinin vəhdəti kimi diqqət çəkir. *“Dante Molyer və Şekspir kimi sadəcə “universal olaraq insan” anlayışından bəhs etmirdi, həmçinin bunu dil vasitəsilə, həmçinin dil və üslubca daha az lokallaşdırılmış şəffaflıq ilə edirdi. Onun ana dilində yazılmış poeması onun dövrünə kimi olan bütün Avropa mədəniyyətinin qavrayırdı və onun ardınca gələn Avropalılara o mədəniyyəti universal olaraq miras qoyurdu”* [176, s.69-70]. Robert Lənqdonun Dantenin mühazirələrinə müraciəti, gizli keçidlər və köhnə rəsmlər haqqında cəlbedici məlumatlarda [158] rekonstruksiya elementləri mövcuddur. Müəllif rəsm nümunələrinə fərqli prizmadan nəzər salaraq universal insanı bəşərin xilas modelinə tətbiq edir. Dantenin poemasında insanların yaşadıqları əzablar “Cəhənnəm”in sərhədlərindən kənara çıxmır. “Əraf”da və “Cənnət”də insanlar daha azaddır. “Cəhənnəm” romanında cəhənnəm-əraf-cənnət üçbucağı müasir dövr insanlarının yaşantılarında təşəkkül tapır. Dantenin insan azadlığı konsepsiyasının Den Braun gerçəkliyin dekonstruksiyasının tərkibində nümayişi detektiv və roman-tədqiqatın komponentlərini birləşdirir.

Postmodern romanlar klassik roman ənənəsinin sərhədlərindən kənara çıxa bilir. Əsas səbəbi öyrənmək olan insanların xəyal dünyasındakı fərqlilik bütün cərəyanlara və metodlara xasdır. Dekonstruksiya prosesi zamanı mətn yenidən işlənsə də, insanların xəyal dünyası və düşüncələri dəyişmir. “Cəhənnəm” romanında insanların subyektiv xəyal anlayışı xilasın həllini çətinləşdirir. Məlumat transferinin pərakəndiliyi öz növbəsində yanlış məlumatların əhatə dairəsini genişləndirir.

*"Ənənəvi (klassik) romanın öyrətmədiyini önə sürənlərlə bərabər, yenilikçi (modern) ya da postmodern üstünlüklər də vardır. Hər kəsin özünə xas bir xəyalı vardır qısacası... Yanlış məlumatlanmağa yol açan tabularla doludur insanın öyrənmə yolu"* [131, s.176].

Gerçəkliyin dekonstruksiyası yeniliyə xidmət edən, klassik ənənələr üzərindən formalaşan qavram kimi təqdim edilə bilər. Bu yanaşma öz-özlüyündə bədii həqiqət baxımından bütün ədəbi cərəyan və metodların komponentlərini birləşdirir. Dekonstruksiya zamanı mətn və hadisələr universal mifə çevrilir. Bunun da əsasında realist epoxanın bədii həqiqət yaratmaq iddiası dayanır. *"Müasir modernist cərəyanlar realizm epoxasında universal bədii həqiqət yaratmaq iddialarına düşürlər. Bu ədəbiyyatı yenidən universal mifə çevirir. Halbuki bu ədəbiyyatın tarixində keçilmiş mərhələdir"* [55, s.209]. Robert Lənqdonun amneziyası universal mif kimi onun xilası icra etməsinə mane olur. Den Braun baş qəhrəmanın keçmişini xilas etməklə dünyanın xilas modelinin icrasını tezləşdirməyə cəhd edir. *"Palatada bir çarpayı var idi. Heç bir gül dəstəsi və ya açıqca yox idi. Lənqdon çarpayının yanındakı masanın üzərində, plastik torbada qatlanmış paltarlarını gördü"* [24, s.15]. Universal mifin modernizmin daxilində vaxtı başa çatsa da, postmodern gerçəklik daxilində izləri qalmaqdadır.

Müasir dövrdə müharibələr, xaos və s. səbəblər sadə insanların həyatında dərin izlər buraxır. Bütün bu proseslərin gedişində dəyişməyən insanlar özləri ilə mübarizə aparmaqdan yorulmuş olanlardır. Romanda gerçəkliyin dekonstruksiyasının mərkəzində dayanan insan amili özgələşmənin mənbəyidir. "Cəhənnəm" və "Arzulardan sonrakı şəhər" romanlarında obrazlar sistemi özgələşmə probleminin həllində estetik dəyər qazanır. Den Braun Zobristin "həll yolu"nu Dantenin "Cəhənnəm"ində məhv olan insanların timsalında dekonstruksiya edir. Məsələn, "Arzulardan sonrakı şəhər" romanında dekonstruksiya ideya, məzmun və forma komponentlərində əks olunur. Şərif Ağayar müharibəni, azadlığı dekonstruksiya edir. "Arzulardan sonrakı şəhər" romanında əsas problemlər insanların reallıqları ilə xəyallarının mübarizəsindən təşkil olunur. Amanislə Həsən fərqli dövrlərin oxşar qəhrəmanlarıdırlar. Onların hər ikisi yanlış düşüncələrin populyar olduğu cəmiyyətin

nümayəndələridir. “Arzulardan sonrakı şəhər” romanında Həsənin nənəsinin timsalında özgələşmiş insanların ümumi mənzərəsini müşahidə etmək mümkündür. Həsənin nənəsi nəvəsi ilə təsəlli tapır. Müəllif bu obrazı ənənəvi azərbaycanlı nənə obrazı kimi təqdim edərək mətnin orijinallığına xələl gətirmir. Şərif Ağayarın hadisələrə obyektiv və dekonstruktiv münasibəti romanda özgələşmiş insanların ümumiləşmiş obrazı kimi önə çıxır. *“Nənəmə görə, qadının başıaçıq gəzməsi qəbahətdir. Yüngül cuna da olsa örtməlidir. Hətta yatanda da! Yuxuda da başıaçıq gəzmək olmazmış. Nədənsə, nənəmə elə gəlir ki, qadının geyim və davranış qaydalarını heç kim onun kimi dürüst bilmir”* [10, s.11]. Həsən, Amanis, Amanisin oğlu Asirus, Mirzəmməd kişi, Sərdar müəllim və başqa obrazlar da “Cəhənnəm” romanının qəhrəmanları kimi uzun səyahətə çıxıblar. Onların səyahəti özgələşmənin naməlumluğu ilə eyni səviyyədədir. Obrazların xarakterində itirilən arzular, gələcəyin sonsuzluğu mahiyyət və struktur olaraq birləşir. *“Mənə qalsa, Mirzəmməd öləndən sonra da nəslimizin ağsaqqalıydı. Bütün qohum-əqrəbamızı, xüsusən nənəmi onun qatil ruhu idarə edir, bizi adam balası kimi yaşamağa qoymurdu. Buna görə də Mirzəmməddən zəhləm gedirdi”* [10, s.28].

Den Braun “Cəhənnəm” romanının metatəhkiyəsinə macəra elementləri [159] daxil edir. Bu macəra böyük həqiqətlərin arxasında gedən uzun səyahəti xatırladır. Den Braun “İlahi komediya”nı Tövrat səviyyəsinə qaldırmağa cəhd edir. Müəllifin cəhdi insanın həqiqəti tapmaq anlayışının ilahi səviyyədə təsvirinin verilməsi ilə davam etdirilir. “Mələklər və şeytanlar” və “Da Vinçi şifrəsi” romanlarında olduğu kimi “Cəhənnəm” romanında da intellektual əlavələr intertekstuallıq və dekonstruksiya ilə güclənir. Dantenin “İlahi komediya”sının mətnaltı mənası müasir cəhənnəmin (dünyanın) xaotik mənzərəsi qədər mürəkkəbdir. Romanda Dantenin dini, siyasi və fəlsəfi görüşləri müasir reallıqların dekonstruktiv şərhidir. *“Dantenin bu alleqrik əsəri dini, siyasi və fəlsəfi təfsirlərlə o qədər zəngindir ki, Lənqdon tez-tez tələbələrinə italyan şairin külliyyatının, ən azı, Tövrat qədər tədqiq olunmasının gərəkliyini söyləyirdi. Sətirləri oxuyub altında yatan mənanı dərhal anlamaq da çətindir”* [24, s.343].

Dantenin qəhrəmanlarından fərqli olaraq müasir dövrün insanları başqalarının

cəzalarını da çəkirlər. Dantenin gerçəkliyi Robert Lənqdonun fəaliyyəti ilə müsbət, Bertrand Zobrist obrazı vasitəsilə mənfi planda verilir. Den Braun hər iki variantı xilas modelinin tərkibinə daxil edir. "İlahi komediya"da müqəddəs kitabların buyurduğu qənaət etmək sosial aktı xilas modelinin icrası kimi uğurla işlənmişdir. Den Braun romanda Dantenin dini, mənəvi təmizlənmə modelini rekonstruksiyaya çevirməyə çalışmır. Belə olduqda, bədii mətnin strukturu zəifləyir. Müəllif informasiya transferinə müraciət edərək mövcud həlli sadə və aktual nümunələrlə konkretləşdirir. *"Bir qədər mürəkkəbdir? Əslində yox! Bundan asan heç nə ola bilməz. Əgər adambaşına düşən təmiz suyun miqdarını artırmaq istəyirsinizsə, o zaman yer üzündə adamların sayını azaltmalısınız. Zəhərli qazların miqdarının azalması üçün sürücüləri ixtisar etmək lazımdır. Okeanda balıq ehtiyatının bərpa olmasını istəyirsinizsə, onunla qidalanan insanların sayının az olması gərəkdir!"* [24, s.175]. Misal olaraq, "Arzulardan sonrakı şəhər" romanında qəhrəmanlar daxilən reallıqlarla barışmamaları gerçəkliyin dekonstruksiyasının estetik olaraq daha uğurlu olduğuna nümunədir. Bu insanların reallıqlara olan nifrətindən qaynaqlanır. Arzular şəhəri mövcud sosial böhranların mərkəzidir. Müəllifin ağzıbağlı çəhrayı atlar vasitəsilə müharibəyə, xaosa cavabı polifonik utopiya yaradır. *"Kim bilir, bəlkə gecə hamı yatandan sonra qapının dalına söykədiyi süpürgəyə minib şəhərin səmasında dövrə vurur, yaşıl təpəliklərə edir, çəhrayı atları ürküdürdü. Bəlkə, o atların ağzının bağlanmasında nənəmin də əli vardı"* [10, s.63].

Gerçəkliyin dekonstruksiyası öz-özlüyündə yenilikçilik xüsusiyyəti daşısa da, pərakəndəlikdən yan qaçmır. "Cəhənnəm" romanında postmodern gerçəklik hadisələrin saf-çürük edilmədən ötürülməsidir. Məhz buna görə də Den Braun Dantenin ideyalarını dəyişməyə cəhd edərək onu mövcud prinsipdən uzaqlaşdırır. Postmodernizmin modernizmdən əvvəlki konsepsiyalarla sələf-xələf münasibəti bilinən prosesin əsasını təşkil edir. "Arzulardan sonrakı şəhər" romanında da bu münasibətin təqdimatı ön plandadır. *"Postmodernizm" anlayışı eyni zamanda birbaşa ifadə etməsə də, dolayısı ilə modernizmdən əvvəl mövcud olmuş konsepsiyalarla sələf-xələf münasibətində olduğunu ifadə edir. Yeri gəlmişkən, bəşər nəslinin bütün tarixi boyu yaratdığı dəyərləri saf-çürük etmədən həzm-rabedən*

*keçirmək istəyi ən yeni postmodernist konsepsiyaların aparıcı xüsusiyyəti kimi özünü büruzə verir"* [80, s.29].

Gerçəkliyin dekonstruksiyası prosesi sosial dəyərlərin fərqli şəkildə təqdim olunmasına şərait yaradır. Den Braunun bədii gedişləri dekonstruksiya elementi olaraq uğurludur. Müəllifin hadisələrə postmodern münasibəti ənənəvi görüşlərin də iştirakı ilə güclənir. Qatı Dante azarkeşi olan Zobrist yazdığı şeirlərdə belə ona müraciət edir. Zobrist Dantenin "Cəhənnəm"ini xilas modeli kimi görürdü. Buna görə də, hazırladığı virusu istifadə etməyə hazırlaşırdı. Den Braun Zobristin intiharını xilasın naməlumluğu şəklində simvolizə edir. Müəllifə görə, insanların xilası asan olmayacaq. Onlar bu xilası fərdi yox, ümumi olaraq icra etməsələr, problemin həlli mümkünsüz olacaq. *"Zobrist təkcə biotəbabət dünyasında uğurlu şəxsiyyət olması ilə deyil, həm də ötən həftə intihar etməklə baş xəbərə çevrilmişdi"* [24, s.230]. Zobristin apardığı mübarizədə uduzması xaosun fiziki məğlubiyyətidir. Bu mənada Konsorsiumun bəşəriyyətin xilası üçün həyata keçirdiyi tədbirlər qeyri-müəyyəndir. Təşkilatın təbliğ mexanizmi iftar kapitalist meyillərlə doludur. Bodlerin müasirlik konsepsiyasının yarısını təşkil edən ötərilik, davamsızlıq kimi xüsusiyyətlər hər iki mətnin məzmun və formasına təsir edir. *"Mən postmodernizm barədə ən təəccüblü fakt kimi görünən bir nüansla başlamaq istəyirəm: onun Bodlerin müasirlik konsepsiyasının yarısını formalaşdırmış ötərilik, hissəlilik, davamsızlıq və xaotikliyi tam qəbullanması. Lakin postmodernizm bu fakta çox müstəsna bir formada yanaşır"* [167, s.44].

Bertrand Zobristin hazırladığı sonsuzluq virusu Maltus nəzəriyyəsi ilə müqayisədə daha təhlükəsizdir. Bu problem Den Braun tərəfindən Dantenin "Cəhənnəm"i ilə birləşərək müasir dünyanın sosial-mənəvi böhranına çevrilir. Məsələn, "Arzulardan sonrakı şəhər" romanında azadlığa, müharibəyə, Tanrıya olan münasibət sosial gerçəkliyin postmodern gerçəkliklə üzvi bağlantısı kimi diqqəti cəlb edir. Firona xidməti Tanrıya xidmət kimi qəbul edən insanlar azadlıq qavramını nisbiləşdirirlər. Onlar özləri üçün yeni xaotik məkanlar inşa etməklə azadlıqlarını daha da məhdudlaşdırırdılar. *"Münəccim izah edirdi: tanrı firondan qorxmur, sadəcə, göylərə ox atmasın deyə onu səhralar qarışıq bütün yer üzünə hökmdar təyin edib.*

*Heç kəs firona etiraz etməməli, ona qarşı çıxmamalı, əmrlərinə könüllü tabe olmalıdır"* [10, s.70]. "Arzulardan sonrakı şəhər" romanında insanların əziyyət çəkdiyi ən böyük problemlərdən biri onların keçmiş və gələcəklərinin məhvidir. Romanda özgələşmənin, xaosun geniş vüsət alması müasir dövrün nisbiləşmiş ənənəsi kimi önə çıxır. *"Qocalığın ən axmaq tərəfi budur: keçmişdən başqa heç nəyin olmur. Nənəm sevinməli idi ki, mən varam. Onu bugünə bağlayan yeganə səbəb"* [10, s.104].

"Cəhənnəm" romanında özgələşmə Dantenin yaralı ruhlar deyə bəhs etdiyi varlıqların məhvə məhkum olmalarına bənzəyir. Den Braunun "Cəhənnəm"ində insanlar mahiyyət olaraq ruhən yaralıdırlar. Gözəl istəklərin, arzuların qurbanı olan bu insanlar saflaşmadan dünyadakı nizamsızlıq bitməyəcək. *"Bu yaralı ruhları dinləyərkən başımı önə əyib, o qədər uzun müddət saxladım ki, sonda ozan "Nə düşünürsən?" dedi. Cavab vermək üçün sözə başladım: "Təəssüf ki, gözəl arzuların, gözəl istəklərin qurbanı olmuşlar bunlar!"* [45, s.67].

Dante dünyanın xilasını Katolisizimlə əlaqələndirirdi. Təsadüfi deyil ki, müəllif Xristianlıq dinindəki müqəddəs üç rəqəmini "İlahi komediya"da istifadə edərək poemanı üç fəslə bölür. Əsərdə üç əsas qəhrəmanın iştirakı (Dante, Vergili, Beatriçe) üç rəqəminin tətbiqi ilə davam edir. "Den Braun bədii üçbucağı"nın hər üç xəttinin tətbiqi mövcud simvolik konseptuallığı müəyyən etmək baxımından önəmlidir. Müasir insanlar Dantenin dünyasından fərqli bir zamanda yaşasalar da, problemlər sadəcə mahiyyət olaraq fərqlidir. *"Dante böyük İblisin tüklü qarnı boyu aşağı düşməli olmuşdu. O, İblisin göbəyinə çatan zaman – dünyanın alleqorik mərkəzi – dünyanın cazibəsi birdən yerini dəyişir və Dante durulma mərhələsinə çatmaq üçün aşağı düşmək əvəzinə anidən yuxarı dırmanmalı olur"* [24, s.244]. Nümunə olaraq, insanların başqalarının günahlarına görə cəzalanmaları "Arzulardan sonrakı şəhər" romanında da davam edir. "Arzulardan sonrakı şəhər" romanında cənnət Amanisin Yaşıl vadisi, Həsənin "Arzulardan sonrakı şəhəri"dir. Sevgi adlanan bu şəhər xoşbəxtliyin, firavanlığın simvolik məkanıdır. *"Arzulardan sonrakı şəhərin adı Sevgi idi və mən ömrümün ən böyük səadətinə heç vaxt bu qədər yaxın olmamışdım. Hardan ağlıma gələrdi ki, həmin gün Gülsümü son dəfə görürəm"* [10,

s.117]. Vətən mühasibəsindən qabaq yazılan bu əsərdə yurd nisgili, müharibə, ölüm-itim [2] ön plandadır. Şərif Ağayarın arzuladığı şəhər müharibədən xilas olmuş, çiçəklənmiş bir məkandır. Romanda müharibənin müasir məkanı Qarabağdır. "Dolu" romanında döyüş səhnələrinin real təsviri bu romanda mənəvi kontekstdə [1] icra olunur. Romanda arzu konsepti Vətən müharibəsindəki qələbə nəticəsində reallığa çevrilir. "Arzulardan sonrakı şəhər" romanında hadisələr zamana buraxılır. Həsən öz arzulardan sonrakı şəhərində yaşayacaq adamları özü seçir. Kobud, yerini bilməyən, başqalarına pislik edən, çəhrayı atların ağızlarını bağlayan adamlara bu cənnətdə yer yoxdur. *"Namaz dayımı Arzulardan sonrakı şəhərə buraxmayacaqdım. Söyüşlü atalar sözlərini o rəngbərəng dünyaya layiq bilmirdim. Hələ yerə at ayağı kimi iz salan protezini demirəm"* [10, s.127]. Şərif Ağayarın gerçəkliyə dekonstruktiv münasibəti azad və sərbəstdir. Arzular şəhərində hadisələr bütün çılpaqlığı ilə təsvir olunur. Dövrün real mənzərəsinin təqdimatı konstruktiv həll yolunun tapılmasına hesablanıb.

Den Braun zamanı həll yolu kimi seçərək gerçəkliyə, yəni Maltus nəzəriyyəsinə qarşı dekonstruktiv plan hazırlayır. Dantenin ümumbəşəri ideyaları bu həllin açarıdır. *"Dantenin və dillərini çox da yaxşı bilmədiyim digər şairlərin əsərlərini oxuyarkən, aldığım bu kimi təəssüratların xəyali olmadığını, onların, əsərin yanlış başa düşülməsi ilə, əsərdə ifadə edilməyən şeylərin əlavə olunması ilə və ya öz keçmişimdən bəzi duyğuların təsadüfən xatırlanması ilə əlaqəsi olmadığını gördüm"* [126, s.79].

Robert Lənqdonun ÜST rəhbəri Elizabet Sinskeylə Xarici əlaqələr şurasında görüşü müəllifin bəşəriyyətə verdiyi ciddi mesajlarla yadda qalır. Onlar bəşəriyyətin gələcəyi barədə xeyli müzakirə aparırlar. Den Braun rəsmi nümayəndə Elizabet Sinskeylə qeyri-rəsmi nümayəndə Robert Lənqdonun timsalında problemlərin həllində təbəqələşmənin ləğvini təklif edir. Dünyada ən böyük təhlükələrdən biri nüvə silahlarının çoxalmasıdır. Lənqdon Sinskeyə "Hansı dövlət Vəbanın yayılmasına dəstək verə bilər ki?" – deyə müraciət edir. Sinskey onun sualına birmənalı cavab verir: *"Nüvə silahlarını qara bazara çıxarmağa çalışan dövlətlər. Unutma ki, effektli virus həm də vacib biokimyəvi silahdır və çox baha başa gəlir.*

*Zobrist asanlıqla öz tərəfdaşlaırna yalan deyər və onları virusun məhdud sayda olacağına inandıra bilərdi. Yaratdığının nəyə qadir olduğunu özündən başqa kimsənin bilməməsi də kifayət qədər mümkündür”* [24, s.365]. Bu gün Covid-19 pandemiyası nümunəsində ölümlər, xəstəliklər, iqtisadi tənəzzüllər baş verir. Böyük dövlətlər arasında soyuq müharibə xarakterli diplomatik təhdidlər də bəşəriyyəti narahat edən məqamlardandır. 2013-cü ildə qələmə alınan bu romanda utopik səslənən hadisələr 2019-cu ildən Covid-19 pandemiyası nümunəsində distopiyaya çevrilməyə başladı.

Den Braun ÜST-ün timsalında rəsmi qərarların icrasını sadə insanların məqsəd və hədəflərindən formalaşmasını vacib hesab edir. Elizabet Sinskeyin simasında müəllif bəşəriyyətin düşdüyü xaosu fərqli prizmada bədiiləşdirir. Bioloji müharibələrin tüğyan etdiyi bir zamanda səhiyyə məsələsini diqqətdə saxlamaq hər zamankından daha vacibdir. Dünya əhalisinin sayının kəskin artımı demoqrafik problem olduğu qədər də, xaotikdir. Bu xaos cəmiyyətdaxili təbəddülatların məcmusundan formalaşır. Müharibə, işsizlik, qida ehtiyatının azalması kimi faktorlar xaotik elementlər kimi insanları özgələşdirir.

Romanda Siennanın “sən dünyanı xilas edə bilməzsən” cümləsi Zobristin “hər şeyin sənin əlindədir” fikri ilə yerdəyişmə edir. Romanın sonunda Elizabet Sinkskey bəşəriyyətin gələcəyi ilə bağlı tədbirə getmək üçün Siennanı da özü ilə aparır. Robert Lendqon isə təyyarədən boylanaraq dünyanı seyr edir. *“Qədimdən qalma belə bir kəlam var... tez-tez Dantenin ayağına yazırlar...” – O dayandı. – “Bu gecəni yaddan çıxartma... çünki bu gecə əbədinin başlanğıcıdır”* [24, s.562]. Den Braun Dantenin yuxarıdakı ideyası vasitəsilə bəşəriyyətə göndərmə edir. Bu göndərmə həm də müəllifin insanları sadə həll yoluna səsləməyin oxşar yozumudur.

“Cəhənnəm” romanında gerçəkliyin dekonstruksiyası postmodernizmin və xaosunun elementlərini özündə əks etdirir. Pastiş vasitəsilə möhkəmlənən dekonstuksiya romanda təhkiyə aparatını mövcud problemlərlə paralelləşdirir. Den Braun Dantenin zəif insanlarını müasir dövrdə məqsədli insanlara çevirir. Den Braun zahiri olaraq poemanın “Cəhənnəm” hissəsini gerçəkliyin dekonstruksiyası kimi versə də, daxili olaraq poemanın “Əraf” və “Cənnət” hissələri də bu

dekonstruksiyanın daxilində əriyir. Romanda insanların "Cəhənnəm"dən xilası birinci hədəfdir. İnsanlar cəhənnəmdə problemlərini həll etdikdən sonra onların ərafda qalmalarına ehtiyac qalmayacaq. Bəşəriyyəti xilas edəcək olan bu insanlar rahat, təhlükəsiz bir dünya, başqa sözlə, cənnət yaradacaqlar. Gerçəkliyin dekonstruksiyasının bədii təyinatı və təqdimatı Robert Lənqdon və gerçəkliyin modernizasiyası üçün açar rolunu oynayır. Beləliklə, "Cəhənnəm" romanında gerçəkliyin dekonstruksiyası təhlil edilərək gerçəklik və onun postmodern strukturunu təşkil edən postmodern gerçəklik komponentinin ikinci istiqaməti kimi müəyyən edildi.

### 3.3. Robert Lənqdon və gerçəkliyin modernizasiyası

"Cəhənnəm" romanında gerçəkliyin modernizasiyası Robert Lənqdonun mübarizəsinin mahiyyətini müəyyən edən ədəbi düstur statusundadır. Bu konseptual mübarizəni aydınlaşdırmaq üçün gerçəkliyin modernizasiyası qavramının bədii-analitik şərhinə ehtiyac var. Robert Lənqdonun xilas ideyası gerçəkliyin modernizasiyasının komponenti kimi bəşəriyyət qarşısında duran əsas problemin həllini ehtiva edir. Mövcud həllin əksi, yəni antixilas isə bu mübarizədə qeyri-müəyyənliyinin qaçılmaz olmasıdır. Den Braun romana macəra motivi əlavə edərək məlum mübarizəni polifonik hadisəyə çevirir. Gerçəkliyin modernizasiyasının əsas struktur komponenti olan xilas-antixilas mübarizəsi amerikan ədəbiyyatında geniş işlənmiş mövzulardandır. Bir neçə nümunə əsasında bu mübarizənin şərhi haqqında təsəvvür yaratmağa ehtiyac var. Məsələn, Ceyms Fenimor Kuperin "Ləpirçi" [81], "Sonuncu Mogikan" [82] romanları hinduların xilas-antixilas mübarizəsindən bəhs edən bədii mətnlərdir. Gerçəkliyin modernizasiyasının başqa bir dəyərli nümunəsi Vilyam Folknerin "Avqust işığı" romanıdır. İnsan ümidinin ölümdən yüksəkdə dayanması fikri Lena Qruv, Qeyl Haytauer, Co Kristmas kimi obrazların timsalında əksini tapır. Eləcə də, Xalid Hüseynin romanlarında [68; 69; 70] qloballaşma, miqrasiya, vətəndaş müharibəsi kimi mövzular gerçəkliyin modernizasiyasının müxtəlif istiqamətlərini müəyyən edir. Bu mənada qeyd olunan nümunələrdə bəşəriyyətin xilası uğrunda mübarizə "Cəhənnəm" romanında da davam etdirilir.

“Cəhənnəm” romanında xilas-antixilas mübarizəsi həm də müharibə-azadlıq mübarizəsinin konseptual əvəzedicisidir. Nümunə olaraq “Arzulardan sonrakı şəhər” romanında haqqında söhbət gedən mübarizə gerçəkliyin tərkib hissəsi kimi iştirak edə bilir. Arzular şəhəri müharibədən, qeyri-müəyyənlikdən əziyyət çəkən insanların yaşadığı məkandır. Onların məqsədi arzulardan sonrakı şəhərə çatmaqdır. Sonsuz ümid içərisində olanlar xilas uğrunda mübarizə aparırlar. Yaşadıqları ilə barışanlar isə özlərindən asılı olmadan antixilasın içindədirlər. Şərif Ağayar xaosun mərkəzində insan amilini önə çəkir. Tarix boyu davam edən müharibə-azadlıq mübarizəsi xaosla insanın mübarizəsi kimi yadda qalmışdır. Bu yanaşma həqiqətin nisbiləşməsi amilini zəruriləşdirir. Müharibə insanları, onların həqiqətlərini nisbiləşdirir. Azadlıq isə onları birləşdirir. Müharibə harada, hansı formada olursa olsun, mahiyyəti dəyişmir. *“Əri gözünün qarşısında vurulan bütün qadınların səsi eyni cür çıxırmış. Üzüm yerə dəyəndə torpaqdan qadın saçının qoxusunu duydum”* [10, s.95].

“Cəhənnəm” romanında müəllifin sadə nümunələrlə böyük fikirlər ifadə etmək cəhdi tədqirəlayiqdir. Məsələn, suyun dəyərini bilməyən adam onu israf edər. Afrikanın susuzluqdan əziyyət çəkən bir ölkəsində suyun qədri daha yaxşı bilinər. *“Cinsi məsələləri bakir qalacağına and içmiş 80 yaşlı kişilərdən yaxşı kim izah edə bilər ki?”* [24, s.335]. Sadə nümunələrin verilməsi Robert Lənqdonun mübarizəsi haqqında əsaslı təsəvvür formalaşdırır. Den Braun sadə nümunələrdən təkcə detektiv janrın tələblərinə görə istifadə etmir. Onun məqsədi verdiyi informasiyaların əhatə dairəsini genişləndirməkdir. Çünki bu hamını maraqlandıran qlobal statuslu problemdir. Təhlilə cəlb olunmuş digər iki romanla müqayisədə “Cəhənnəm”in Robert Ləndqonu şəxsləndirilmiş intertekstual simvoldur. Romanda Robert Lənqdonun tədqiqatçılıq bacarığı gerçəkliyin ortaya çıxarılması ilə düz mütənasibdir. O, dünyanı gözləyən vacib təhlükələr barədə insanları xəbərdar edir. Misal olaraq, “Arzulardan sonrakı şəhər” romanında Amanis və Həsən obrazları bu mənada Robert Lənqdon obrazına bənzəyirlər. Robert Lənqdonun mübarizəsi ümumbəşəridir. Amanisin mübarizəsi isə daha çox fərdi azadlıqla məhdudlaşır. Onun mübarizəsi Nil çayından (İterü) o tərəfə keçmir. Həsənin mübarizəsi isə müharibənin ortasında təsvir olunur.

“Cəhənnəm” detektiv-trillerində gerçəkliyin modernizasiyası hadisələrin dinamik inkişafı ilə vəhdətdə verilir. Robert Lənqdon güllə yarası aldıqdan sonra Dantenin doğulduğu Florensiya şəhərində gözlərini açır. Den Braun Robert Lənqdonun timsalında Danteni yenidən həyata qaytarır. Lənqdonun aldığı travmadan yaddaşı pozulur. Gözünə müxtəlif xəyalatlar görünür. Den Braun Robert Lənqdonun amneziyasını onun intellektuallığı ilə birləşdirərək Dantenin “Cəhənnəm”ini vizuallaşdırır. Robert Lənqdonun gözlərini açması ilə “Dante sürgündən geri qayıdır”. Florensiya Dantenin doğma şəhəridir. Şair sürgünə getdikdən sonra bir daha doğma şəhərinə qayıda bilmir. Florensiya başqa sözlə, Dantenin mənəvi Beatriçesidir. *“Otaq parlaq idi. Lənqdon tək idi. Havadan kəskin dərman iyi gəlirdi. Yaxınlıqdakı kardioqram onun ürəyinin sakit ritminə uyğun səs salırdı. Lənqdon sağ qolunu tərpətməyə çalışsa da, kəskin ağrı buna imkan vermədi. Aşağı baxanda damarına taxılan iynəni gördü”* [24, s.14]. Florensiya şəhəri italyan mədəniyyətinin beşiyi hesab olunur. Burada bir çox dahi insan yetişmiş, öz zəngin yaradıcılıqları ilə nəinki italyan, bütövlükdə dünya mədəniyyətinin formalaşmasına ciddi ölçüdə təsir etmişlər. Den Braunun incəsənət nümunələrinə həssas münasibəti Robert Lənqdonun mübarizəsi ilə postmodern gerçəkliyə montaj olunur. *“Məndən aşağıda – baş gicəlləndirəcək qədər aşağıda alov dənizi xatırladan qırmızı damlar yeri görünəz edib. Bir vaxtalar dahilərin... Giottonun, Brunellesçinin, Mikolancelonun, Botiçellinin sərgərdan dolaşdığı torpağı örtür bu damlar”* [24, s.10].

Robert Lənqdonun xilas mübarizəsinin hədəfləri bəllidir. Romanın əvvəlindən sona kimi o, xilas-antixilas mübarizəsinin mərkəzindədir. Xəstəxanada olarkən onun səbri pik nöqtəyə çatır. Tezliklə yaddaşının geri qayıtmasını arzu edir. Başına gələnləri xatırlamağa çalışır, gərginləşir. Robert Lənqdonun qəza travması psixoloji travmaya çevrilir. Tibbi kitablar mütaliə edərək xəstəliyin çarəsini tapmağa çalışır. *“Polislərin «Niyə tibbi kitablar oxuyursan?» sualının cavabında isə o, öz beynindəki problemin nə olduğunu tapmaq istədiyini demişdi”* [24, s.4]. Robertin aldığı zərbə fizikidir. Bu zərbə sonradan mənəvi status qazanır.

Den Braun Dantenin “Cəhənnəm”ini müasirləşdirərək gerçəkliyin modernizasiyasını müasir dövr insanının yaşantılarına köçürür. İnsanların məhv

olacağı həqiqəti xilasın, aparılan mübarizənin mənasızlığı antixilasın strukturunu müəyyən edir. Robert Lənqdon müasir cəhənnəmdə sonsuzluq içində irəliləyir. Sözügedən sonsuzluğu formalaşdıran başlıca amil insan azadlığının itirilmək üzrə olmasıdır. Robert Lənqdon insanların kəskin say artımını qeyri-müəyyənliyin təsirindən çıxarmağa çalışır. Ona görə də Den Braun təqdim etdiyi gerçəkliyin modernizasiyası dünya əsaslıdır. Məsələn, Dantenin xilas-antixilas mübarizəsində əsas məkan kimi "Cəhənnəm" diqqət çəkir. *"Gün bitirdi, qaralan hava yer üzündəki canlıların yorğunluğunu alırdı; mən də təkcə, yaddaşımın yanılmadan axtaracağı istiqaməti, tanış olacağım kədərləri qarşılamağa hazırlanıram"* [45, s.37].

Den Braun Robert Lənqdon vasitəsilə gerçəkliyin modernizasiyasında mühit amilinə diqqət çəkir. Robert Lənqdon lokal "Cəhənnəm" çoxsaylı sakinlərindən sadəcə biridir. Onu yetişdirən mühit xaotik və qeyri-müəyyəndir. Robert Lənqdon biliyi, intellekti hesabına bu mühitin təsirindən çıxmağa çalışır. Məsələn, "Arzulardan sonrakı şəhər" romanında lokal mühitlər kimi Yaşıl vadi və "Arzular" şəhəri gerçəkliyin modernizasiyasının xəyali məkanıdır. Amanis Qədim Misirin Yaşıl vadi adlı ərazisinin sakini kimi ehram tikintisinə cəlb olunmuş çoxsaylı qullardan biridir. Mühit amili onun hiss və düşüncələrini dəyişmişdir. Həsən isə Qarabağ müharibəsində və postmüharibə dövründə yaşayır. Müharibənin ağrı-acısı onun fiziologiyasına ciddi təsir etmişdir. Şərif Ağayarın obrazları psixoloji olaraq daha həssasdırlar. *"Bəli, mənim içimdə üç fərqli insan var: birincisi kefcil, ikincisi mağmın, üçüncüsü əzazildir. Bu xasiyyətlərimdən hansının nə zaman işə düşəcəyini özüm də bilmirəm"* [10, s.10].

Den Braunun insanların xilasını subyektiv cəhdlərin icrasına bağlayır. Şərif Ağayarın metatəhkiyəsi təsvir səviyyəsindən icra səviyyəsinə qalxa bilmir. Müəllifin arzulardan sonrakı şəhəri rifah, sakitlik, sülh olduğu qədər, həm də ədəbiyyatdır, yaradıcılıqdır [13]. Həsən aldığı travma nəticəsində qarışıq yuxular görür. Robert Lənqdonun fiziki travması mənəvi mübarizənin əsasını qoysa da, Həsənin mənəvi travması xaosa çevrilir. Həsənin yuxuda gördüyü ağzıbağlı çəhrayı atlar Arzulardan sonrakı şəhərin utopikliyini simvolizə edir. Ağzı məftillə bağlanmış çəhrayı atlar və yaxınlaşıb-uzaqlaşan səslər romanda iki əsas leytmotiv kimi nəzərə çarpır [100].

Lakin yazıçı ümidini itirmir. Beləliklə, Vətən müharibəsindəki qələbə nəticəsində yazıçının ümidi utopiyaya qalib gələrək reallığa çevrilir.

Robert Lənqdon Dr. Sienna Bruksla xəstəxanada tanış olur. Vittoriya Vetra, Sofi Neve kimi Sienna Bruks da yazıçın seçdiyi əsas qadın obrazlarındandır. Hər üç romanda müəllif Robert Lənqdona bir qadın köməkçi verir. Bununla da gender bərabərliyinin vəhdətini ümumi insan amilinin vahidliyinə bağlayır. Lənqdonla Bruksun bir müddət sonra yolları ayrılsa da, müqəddəs mübarizə yenidən onları birləşdirir. *"Cənab Lənqdon, bu gecə siz buraya gələndə dayanmadan bir şey mızıldanırdınız". O, Dr. Makroniyə baxdı. Dr. Makroni aparatın düyməsini basdı"* [24, s.18].

Robert Lənqdonun intertekstual keçidlər daxilində vizual trayektoriyası informativ səviyyədədir. "Da Vinçi şifrəsi" romanından fərqli olaraq burada intellektuallıq detektivliyi üstələyə bilmir. Oxucunun mövcud problem haqqında əlavə məlumat almağa ehtiyacı yoxdur. Müəllif hər şeyi hazır şəkildə təqdim edir. Robert Lənqdon məkan olaraq Florensiyanın, zaman olaraq isə XIV əsrin mənəvi sakinidir. Lənqdon intellektuallığı sayəsində düşdüyü mühitə asanlıqla uyğunlaşır. Bu mühit başqa mühitlərə bənzəmir. Hələ Dantenin yaşadığı dövrdə italyan mədəniyyəti çiçəklənmə dövrünü yaşayırdı. Rəssamlıq, heykəltaraşlıq, ədəbiyyat və başqa sənət sahələri yüksək səviyyədə inkişaf edirdi. Den Braun romanda bu dövrün mənzərəsini məharətlə yaradır. Həmin dövrdə yaşamış sənət nümayəndələrindən tez-tez sitatlar gətirir. Onların yaradıcılıq nümunələrinə müraciət edir. *"O Mikelancelo ki, emalatxanasında italyan renessansı doğulub"* [24, s.43].

II Dünya müharibəsindən sonra postmodernizmin formalaşması ilə dünyanın yeni mərhələyə qədəm qoyduğu məlumdur. Postmüharibənin qalıcı izlərinin genişlənməsi ötən əsrin 50-ci illərindən etibarən davamedici zamandadır. Bu proses üzərindən təşəkkül tapan bədii mətnlərdən biri də "Cəhənnəm" romanıdır. Bu mənada Robert Ləqndonun xaotik və postmodern cəmiyyətin yetişdirməsi kimi xilas-antixilas mübarizəsini icra etməsi konseptualdır. Robert Lənqdon modern qəhrəman kimi həm də keçmişin izlərini daşıyır. *"Dəyişikliklər təbii ki, bir gecədə baş tutmadı; dəyişiklik üçün təməl 50-ci illərdə atılmışdı. İlk üsyankar bəyanatlar kimi ilk postmodern*

*romanlar 50-ci illərdə yazıldı"* [170, s.13].

Dantenin ətrafında qurulan bədii oyun vasitəsilə romanın postmodern strukturu möhkəmlənir. Den Braun Dantenin maskasını dünyanın xilas modelinin tərkib hissəsi kimi simvollaşdırır. Romana görə, Dante dövründə bəzi insanlar maskadan istifadə edərək üz cizgilərini saxlayırdılar. Dantenin də üz cizgiləri saxlayan bir maska var idi. Dantenin ölüm maskası romanın bədii açarlarından biridir. Ölüm maskası insanların xilası üçün bir çağırışdır. Başqa sözlə, Dantenin maskası onun ideyalarının əbədi olmasını simvolizə edir. *"Özünü məhvərindən qopmuş kimi hiss edirsən yəqin ki", - Ferris əlavə etdi, "amma bizə indi sənin beynini qorumaq lazımdır ki, irəli gedə bilək. Bu maskanın nə deməyə çalışdığını bilmək bizim üçün çox önəmlidir"* [24, s.340]. Dantenin "İlahi komediya"sı Robert Lənqdonun mübarizəsində roman boyu məzmun və formaca dəyişir. Danteyə istinadən Den Braun bu cəhdi dünyəvi xaosun arxasında müəyyən qaydalar sisteminin olduğuna inamdır, başqa sözlə paranoyadır [56]. Dantenin mifik detallardan istifadə edərək həqiqəti göstərməsini Den Braun reallığın akustik tərifinə çevirir.

Nümunə olaraq, "Arzulardan sonrakı şəhər" romanında insanların seçimləri yaşadıqları dövrün tələbləri ilə məhdudlaşır. Qədim Misir insanının məhdudlaşmış azadlıqları, Qarabağ müharibəsinin mənəvi qalıqları paranoya elementləridir. Romanda məkansızlıq, zamansızlıq geniş mənada, xaosun komponentləridir. Bədii mətndə paranoya nə qədər güclü olsa da, müəllifin ümidləri xilasın əsas elementi kimi qalır. Müəllifin fantastik bənzətmələri postmodern elementlərlə birlikdə polifoniklik yaradır.*"Eşitdiyimə görə, yerlə göyün birləşən yerinə çatan adamlar xoşbəxtliyi tapır, ölümsüzlük qazanırlar. Ancaq insan getdikcə göy də öz qübbəsini qaldırır, sirrini açmaq istəmir"* [10, s.20].

Romanın baş qəhrəmanı Robert Lənqdonun mübarizəsi örnəyində müasir insanların məlumat ehtiyacı zamanın nisbiliyi daxilində əriyir. Robert Lənqdon xaosla mübarizədə zamanın nisbiliyindən məharətlə istifadə edir. Robert Lənqdonun mübarizəsinin əsas düsturu belədir: zaman daralır, dünyanı xilas etmək üçün vaxtımız azdır. *"İndi Lənqdonun bu şəhərdə olduğu ötən bir neçə gün ərzində sevimli əsərinə baş çəkib-çəkmədiyin xatırlamağa çalışırdı. Lakin yadına gələn xəstəxanada ayılması*

*və gözləri önündə günahsız hakimin öldürülməsi idi”* [24, s.43]. Robert Lənqdonun mübarizəsi ümumi sosial akt kimi ona özünü belə unutdurur. Alternativ gerçəkliyin daxilində şəxsiyyət amilinin önəmi davam etdirilir. “Den Braun bədii üçbucağı”nın tətbiqi bu romanda da davamedici statusdadır. Robert Lənqdonun simasında hər üç xətt gerçəkliyin modernizasiyasının mahiyyətini müəyyən edir. Xilas modelinin qurulmasında bədii üçbucağın tətbiqi pastiş xarakterli olsa da, antixilas modelinin konstruksiyasında paranoya önə keçir. Hər iki yanaşma romanda keçmişin mücərrədliyi ilə gələcəyin intellektinin birləşməsinə hesablanıb. Pastiş və paranoya elementləri Robert Lənqdon və romanın digər obrazlarının xarakterik xüsusiyyətlərinin müəyyən olunması üçün önəmlidir. Simvolika üzrə mütəxxəssis olan Robert Lənqdonla İQ səviyyəsi yüksək olan Sienna Bruks Den Braunun həll üçbucağını formalaşdırır: yaxşı kişi, yaxşı qadın və pis hadisə. Dr. Sienna Bruksun Robert Leqdonun həyatını xilas edən həkimdən bəşəriyyəti xilas etməyə çalışan fenomenə çevrilməsi [188] subyektiv cəhddən obyektiv həqiqətə çoxsəsli keçiddir.

Den Braun qələmi vasitəsilə “İlahi komediyası” sakinləri keçmişin mücərrədliyindən müasir dövrün konkretliyinə vizual səyahət edirlər. Dantenin günahkar şəxslərinin qarşısına Den Braun intellektual insanlar çıxarır. Robert Lənqdon və Sienna Bruks müasir dövrün intellektini təmsil edirlər. *“Onun İQ səviyyəsini göstərən cədvəl də təsvir edilmişdi. Belə ki, o, bir gecədə tamaşadakı bütün obrazların sözlərini öyrənmiş və ilk məşqlərdə digər aktyorlara kömək etmişdi. Bu beş yaşlı uşağın sevimli məşğuliyyətləri arasında skripka, şahmat, biologiya və kimya da var idi”* [24, s.45]. Robert Lənqdonun xilas-antixilas mübarizəsi polifonik olduğu qədər də vizualdır. Den Braun hər iki obrazı xaosla mübarizədə paranoya elementinə çevirir. İnsanların kəskin artımı onların sayını azaldacaq formulların hazırlanması ilə eyni zamanda baş verir. Keçmişdə tüğyan edən xəstəliklər müasir dövrdə formaca dəyişirlər. Məsələn, Vəbanı Covid-19 əvəz edir. *“Bu üçbaşlı, adamyeyən şeytanı görürsən? Orta əsrlərə xas obrazdır – Qara ölümü əks etdirən ikonadır. Bədənləri çeynəyən üç ağız vəbanın əhali arasında sürətlə yayılmasını göstərən simvoldur”* [24, s.73].

Robert Lənqdonun mübarizəsi sosialdır. “Den Braun bədii üçbucağı” daxilində

digər iki xətt də bu mübarizədə önə çıxır. Dini xəttin bədii mətndə təsvirinin ən sadə nümunəsi romanın adıdır. Den Braun roman boyu dini xətti gerçəkliyə nəzərən dekonstuksiya edir. Elmi xətt də öz növbəsində romanın əsas nüvəsini təşkil edir. Başqa sözlə, dini xətt bədii mətnin əsas materialı kimi hər iki bədii mətnin montajıdır. Romanda Dantenin qatı katolik olması faktı dini xəttin subyektiv olmasına səbəb olur. Elmi xətt romanda nə qədər güclü olsa da, konseptual həllə çevrilə bilmir. Romanda sosial xəttin icrası müasir insanın xaos köləsi olmasını simvolizə edir. "Cəhənnəm" motivi nümunəsində xilas modelinin qurulması gələcək təhlükələrin simvolik reallığına çevrilir. Robert Lənqdonun və gerçəkliyin modernizasiyası Maltus nəzəriyyəsinin elmiliyinin nisbiləşdirilməsinə hesablanıb. *"Maltus hesablaması ilə gələcək bizə doğru irəlilədikcə, biz cəhənnəmin ilk mərtəbəsi üzərində yellənəcəyik... geriyə yol olmayan dəhşətli uçuruma yuvarlanmaq riski ilə"* [24, s.182].

Məsələn, "Arzulardan sonrakı şəhər" romanının təhkiyəsindəki üç mətn – Həsənin və Sərdar müəllimin misirli kölə haqqında yazdığı "Yaşıl vadi" əhvalatlarının bədii ümumiləşdirilmiş yekunu, başqa sözlə, xilas-antixilas [108] mübarizəsinin üçbucaq paranoyasıdır. Müharibənin yazılmamış qanunları, özgələşmiş insanların standart həyatları, sadə insanların yaşantılarında baş verən sürətli dəyişmələr xaosun daxili qaydalarıdır. *"Məzi dayı İsanı qanunsuz doğulmuş uşaq hesab edirdi. "Biz sevinirdik ki, qanuni doğulmuşuq. Mən Məzi dayıya çox da fikir vermirdim. Axı belə dərin söhbətlər edən adamın adı niyə Məzi olsun?"* [10, s.46].

Robert Lənqdonun Florensiya, Venesiya və İstanbul kimi möcüzəli şəhərlərə [171] vizual səyahəti gerçəkliyin modernizasiyasının fərqli formullarını müəyyən edir. Hər üç şəhərin dünya mədəniyyətində xüsusi yeri var. Florensiya və Venesiya şəhərləri italyan mədəniyyətinin beşiyi kimi keçmişdən bu günə ötürülən böyük mədəni irsin daşıyıcılarıdır. İstanbul şəhəri də qədim yunan, Bizans və Osmanlı mədəniyyətlərinin izlərini daşıyır. Robert Lənqdon, Sienna Bruks və Elizabet Sinksey dünyanı məhv edəcək virusu İstanbulda, Aya Sofiya muzeyində axtarırlar. Üç qitənin qovşağında yerləşən Türkiyənin mənəvi paytaxtı olan bu şəhər öz mədəni sərvətləri ilə öyünə bilər. *"İstanbul. Türkiyənin paytaxtı olmasa da, əsrlər boyu üç böyük*

*imperiyanın mərkəzi olmuşdur – Bizans, Roma və Osmanlı. Bu səbəbdən İstanbul qeyd-şərtsiz dünyanın ən rəngarəng tarixə malik şəhərlərindən biridir"* [24, s.466].

"Cəhənnəm" romanında vizuallıq həqiqət axtarışının müxtəlif tərəflərində mövcuddur. Robert Lənqdonun xəstəxanadan başlayan macərası onu Florensiyanın möcüzəli ab-havasına gətirir. Digər ifadə ilə, o, həqiqət axtarışına ölüm üzərindən çıxır. *"Kameranın çəkə bildiyi hissədən bir anlıq Dantenin ölü gözləri ilə eyni xəttə düşdü. Lənqdon beynini yoran cümləni xatırladı – həqiqəti yalnız ölümün gözləri ilə görmək mümkündür – və tükləri biz-biz oldu"* [24, s.225]. Romanda gerçəkliyin modernizasiyası xaotik cəmiyyət üzərində icra olunur. Sözügedən xaosun xüsusi bir qaydalar toplusu yoxdur. Xaosu paranoyaya çevirən qaydasızlıqdır. Den Braun da qaydasızlığı xaosun dəyişməz qaydası kimi təqdim edir. Romanda xaosun təsviri postmodern və simvolik metodların vəhdətində verilir. Postmodern və simvolik hibridləşmə [130] dövrün xaosu nümunəsində insanların vəziyyətini dəqiq müşahidə etməyə imkan verir. İronik parodiya "Cəhənnəm" romanının metatəhkiyəsində janr qarışıqlığı yaradır. *"Postmodern romanda janr qarışıqlığı mübaliğə edilmiş parodiya (istehza), daha doğrusu ironik parodiya (istehza) ilə bağlıdır"* [105, s.37].

Robert Lənqdon sonsuz ümid içində olsa da, daxilən məğlubdur. Baş qəhrəman antixilas uğrunda mübarizə apardığının fərqinə gec varır. Dünyanın mövcud problemdən böyük bir sosial partlayış (pandemiya, müharibə, inqilablar və s.) olmadan təmizlənməsi hardasa imkansızdır. Robert Lənqdonun daha təhlükəsiz həll yolu axtarması müasir dövrün standartlarına uyğun gəlmir. Misal olaraq, "Arzulardan sonrakı şəhər" romanında köləlik və müharibə problemlərinin insanların sayının məntiqi şəkildə azalması ilə müqayisədə həlli daha realdır. Müharibə probleminin həlli Vətən müharibəsindəki qələbə ilə təmin olundu. Köləlik probleminin həllini isə yeniləşən dünya, demokratik cəmiyyətlər müəyyən edəcək. Bu həllin mümkün olub-olmayacağını zaman göstərəcək. Təsadüfi deyil ki, Amanis azadlığını Yaşıl vadidən kənarda axtarmağa məcbur olur. Həsən isə Arzular şəhərində yaşamağa davam edir. Amanis tezliklə ailəsinə qovuşacağına, Həsən isə tezlikdə "Arzular" şəhərindən xilas olacağına, çəhrayı atların ağızlarının açılacağına inanır. *"Dünyadakı bütün təhlükələrə qarşı dözümlü olduğuna inanan insandan daha məğruru yoxdur"* [10, s.269].

Robert Lənqdon təkcə dini xurafatla yox, elmi xurafatla da mübarizə aparır. “Den Braun bədii üçbucağı” daxilində bu keçid vizual təsir bağışlayır. Dünyada əhali artımı probleminin birinci günahkarı insandırsa, ikinci günahkar elmdir. Robert Lənqdonun xilas-antixilas mübarizəsində din amili tez-tez elmi üstələyir. Bunu iki sadə nümunə ilə izah etmək olar. Birincisi, müəllif həll yolunu din motivli bir mövzuya müraciət edərək axtarır. İkincisi, romanda Tanrıya olan inam həqiqətin axtarışı ilə eyni statusda verilir. Tanrıdan uzaqlaşan insanlar bilərək və ya bilmədən ali həqiqətdən də uzaqlaşırlar. “Cəhənnəm” romanında Tanrı motivi insanın daxili əzmkarlığı ilə vəhdətdə ali həqiqətə çevrilir. Dantenin “İlahi komediya”sında insanlar saflaşaraq həqiqətə çatmağa cəhd edirlər. “Cəhənnəm” romanında isə insanların sayının kəskin artımı probleminin həlli naməlumdur. Ali həqiqət bu naməlumluğu qəbul etmək, məğlubiyyətin qələbəsinə inanmaqdır. *“Ölümcül iki zərbə bədənimi deşincə, Ölümcül iki vuruş vücudumu deşincə, səmimiyyətini kimsədən əsirgəməyənə təslim etdim özümü gözyaşları içində. Günahlarım qorxuncdu; amma sonsuz bağışlayanın qolları uzundu, baş vuran hər kəsi bağrına basırdı”* [45, s.118]. Örnək olaraq, “Arzulardan sonrakı şəhər” romanında elmlə din qarışaraq inamın strukturunu müəyyən edir. Eləcə də Amanisin və Həsənin qəlbində Tanrıya, həqiqətə inam onları ölməyə qoymur. *“Nə vaxtsa Yaşıl vadiyə qayıdacağıma əminəm. Axı necə ola bilər ki, onları bir daha görməyim? Tanrılar insanla bu qədər əzazil davranmaz. Həyat bu cür sona çata bilməz”* [10, s.34].

Romanda Lənqdonla Siennanın ziyarət etdikləri məkan – səkkizgüşəli (oktaqon) binası xristianlıqdakı yenidən doğulmaya işarədir. Məlumdur ki, Allahın dünyanı altı, yeddi, yoxsa səkkiz günə yaratması həmişə mübahisə mövzusu olub. Xristianlıqda səkkizinci gün anlayışı bu fərqliliyin nəticəsində yaranmışdır. Den Braun bu müqayisə vasitəsilə Xristianlıq üzərindən Danteyə göndərmə edir. *“Oktaqon Allahın cənnəti və yeri altı gündə yaratdığını, bir günün istirahət günü olduğunu, səkkizinci günün isə xristian aləmində “yenidəndoğulma” və ya “yenidən yaranma” günü olduğunu ifadə edir”* [24, s.292].

Bəşəriyyətin xilas və antixilas modeli postmodern gerçəkliyin rəngini və şəklini dəyişmək üçün mübarizə üsuludur. Elmin sürətli inkişafı nəticəsində məkan

və zaman anlayışları mahiyyətcə nisbiləşir. Belə olduqda insanlar arasında sosial bərabərsizlik güclənir. Azad insan, məhkum insan, adi insan və super-insan kimi anlayışlar Robert Lənqdonun xilas-antixilas mübarizəsində eyni statusa salınır. *"Bu o deməkdir ki, leqal dəyişiklik elə həmin andaca bunu etmək və etməmək kimi iki hissə yaradacaq. Onsuz da varlılar və kasıblar arasında dərinləşən bir uçurum var, amma genetik metodlar super-insanlar və... insancıqlar təbəqəsi yaradacaq. Sizcə, dünyanı idarə etmək gücündə olan həmin bir faiz super insanlar kimin üçünsə maraqlıdır?"* [24, s.368]. Sosial təbəqləşmənin mövcudluğu bu günün problemi deyil. Nümunə olaraq, "Arzulardan sonrakı şəhər" romanında Qədim Misirdə ehram tikintisinə cəlb edilənlər məhz adi və məhkum insanlar, dövrün super-insanı isə Firon idi. Əhali artımı probleminin həlli mümkün olmadıqda adi insanlar super-insanlara xidmət etməyə davam edəcəklər. Hərçənd ki, bu problem İbtidai icma quruluşundan bəri mövcud olmuş, quldarlıqdan fedoalizmə, daha sonra isə kapitalizmə keçərək yayğınlaşmışdır.

Postmodernizmin keçmişə münasibəti modernizmdən fərqli olaraq keçmişi inkar etmək deyil. Postmodernizm sadəcə keçmişi olduğu kimi qəbul etmir. "Cəhənnəm" romanının mövzusu Dantenin ideyasının məhvi yox, dəyişməsidir. Robert Lənqdon bu dəyişkənliyi icra edən əsas qüvvə kimi müasir dövrün mübariz insanını təcəssüm etdirir. Romanda müasir dövrün reallıqları insanların subyektiv istəkləri və obyektiv reallıqlara münasibətləri ilə müəyyənləşir. Den Braun azadlığın önəmini və müharibənin labüdlüyünü inkar etmir. Əsas məqsəd azadlığı qazanmaq və müharibənin yox olmasıdır. Postmodernizm mövcud qəlibləri məhv edib yenidən yaratdığı üçün onu parçalanma, pərakəndəlik kimi qəbul edirlər. *"Poststrukturalizm və dekonstruksiya kimi postmodernizm öncəki dövrün estetikasının tənqidi yazısıdır, lakin əhəmiyyətsiz tənqidi yazı ilə yanaşı postmodernizm parçalanma ənənəsinin bariz aktını tərif edir"* [163, s.160].

Məsələn, "Arzulardan sonrakı şəhər" romanında Amanisin, Həsənin və başqalarının daxili böhranları başqa insanların dərdləri ilə birgə onları incidir. Amanisin azadlıq eşqi Həsənin həyat sevgisi ilə intertekstual əlaqəyə girir. *"Gülsümü hardasa içindən aramsız səslər gələn müharibəyə oxşadırdım. Müharibə dünyanı*

*necə qarışdırmışdısa, Gülsüm də mənim həyatımı o cür eləmişdi. Qırılıb tükənənsə ümidlərim idi”* [10, s.153]. “Arzulardan sonrakı şəhər” romanında Amanisin Ehram tikintisindən qaçması, yolda başına gələnlər simvolik olaraq insanın öz-özündən uzaqlaşması kimi yozula bilər. Belə olduqda, qət edilən məsafənin heç bir anlamı qalmır. Amanis təkcə quldarlardan qaçmır. Köləliyi anadangəlmə xüsusiyyət kimi qəbul edən qullar da onu özündən ayrı salır. Azad olmağı qəbul etməyən bu insanlar Amanisin qarşısında ən böyük əngəldirlər. Şərif Ağayar xilası mübarizənin ən düzgün sosial həll olduğu qənaətinə gəlir. *“Səhraya gələndən başa düşmüşəm ki, köləlik qolların bağlanması deyil, xəyalların kəməndə salınmasıdır. Əgər xəyalın azad deyilsə, sağ-salamat qaçıb getməyi bacarsan da, azad ola bilməyəcəksən”* [10, s.130]. Şərif Ağayar məkan-zaman keçidini nisbiləşdirməklə həll yolu axtarır. Müəllif romanın sonunda Qədim Misirlə Qarabağ müharibəsini vizual olaraq birləşdirir. Nəticədə, insan azadlığının hər zaman eyni qaldığı qənaəti hasil olur. *“Deyəsən, sonuncu mərmi Sərdar müəllimin mənzilinə, hətta onun otağına düşdü. Səsi boğuldu, əşyaların içində itdi. Buna o qədər də üzülmədim. Çünki ordan mənə lazım olanı götürmüşdüm. Üstündə at başı işarəsinin fotosu olan və iri hərflərlə “Yaşıl vadi” yazılan qovluğa bir də baxdım, onu doğma adam kimi sinəmə sıxıb qoxladım”* [10, s.224].

Romanın epiloqunda Robert Lənqdon təyyarədə İlahi komediyanı mütaliə edir. Poemanı təkrar-təkrar oxuyan Lənqdon hər dəfə yeni kəşflər edir. Robert Lənqdon Dantenin ədalətli mühitini özünün xilas-antixilas mübarizənin sosial məkanına çevirir. Dantenin cəhənnəmə dini münasibəti Robert Lənqdonun dünyəvi şərhinə çevrilir. Cəhənnəm və Cənnət bir çox dində həyatın sonu kimi mənalandırılır. Xristianlıqdakı ölümdən sonrakı həyat [137], İslamın Qiyamət günü anlayışı [92] Dante absurdunun müasir elmi-teoloji yozumuna çevrilir. *“Əslində, Dantenin bu şeri cəhənnəmin əzab-əziyyətlərindən bəhs etdmirdi. Əsər həm də nə qədər çətin olursa olsun, insan ruhunun hər şeyi dəf etmək gücündə olduğunu aşılayırdı”* [24, s.567].

Robert Lənqdonun mübarizəsində dinamizm və ardıcıllıq postmodern gerçəkliyin imitasiyasına əsaslanır. Robert nLənqdonun mübarizəsi ilə gerçəkliyin modernizasiyası nəticə olaraq insan faktorunu aktuallaşdırır. Lənqdonun bu

mübarizədə qalib və ya məğlub olduğunu demək çətindir. Bir məsələ aydındır ki, o əlindən gələni edir. Növbəti mərhələ dünyanın gələcəyi ilə insanların hərəkətlərindən ibarətdir. Ədəbi metod və cərəyan mənsubiyyəti baxımından “Cəhənnəm” romanı müəllifin digər iki romanından sırf postmodern roman olması ilə fərqlənir. “Cəhənnəm” postmodern romanı gerçəkliyin postmodern strukturunun fərqli bədii şərhidir. Robert Lənqdon və gerçəkliyin modernizasiyası gerçəkliyin imitasiyasının və dekonstruksiyasının növbəti mərhələsi kimi müəyyən olunur. Beləliklə, “Cəhənnəm” romanında postmodern gerçəkliyi müəyyən edən sonuncu istiqamət də tamamlanır.

Nəticədə, üçüncü fəsildə “Cəhənnəm” romanında postmodern gerçəklik gerçəklik və onun postmodern strukturunun üçüncü, sonuncu komponenti kimi müəyyən edildi. Şərif Ağayarın “Arzulardan sonrakı şəhər” romanına əlavə material kimi müraciət olunması problemin bədii həllini möhkəmləndirir. Əldə edilən elmi və bədii qənaətlər bunlardır:

– “Cəhənnəm” romanı müasir dövrün xaosu haqqında əsaslı baza formalaşdırır;

– “Cəhənnəm” romanında gerçəkliyin imitasiyası gerçəklik və onun postmodern strukturunu müəyyən edən ilk istiqamət kimi önə çıxır;

– Gerçəkliyin dekonstruksiyası romanda postodernizmin növbəti mərhələsi kimi bədii mətnin strukturunu möhkəmləndirir;

– Robert Lənqdon və gerçəkliyin modernizasiyasının bədii şərhi ilə romanda postmodern gerçəklik komponenti tamamlanır;

– Əlavə material kimi “Arzulardan sonrakı şəhər” romanına müraciət edilməsi qaldırılan problemin bədii həllini gücləndirir;

– “Cəhənnəm” romanında postmodern gerçəkliyin şərhi ilə gerçəklik və onun postmodern strukturu problemi tamamlanır.

# NƏTİCƏ

Dissertasiyanın yekununda belə bir nəticəyə gəlmək olur ki, Den Braunun bədii mətnlərində gerçəklik və onun postmodernist strukturu komponent və istiqamətləri ilə onu digər ABŞ, Avropa, eləcə də Azərbaycan müəlliflərindən fərqləndirir. Müəllifin çoxjanrlı və çoxşaxəli yaradıcılığı bu mənada maraq kəsb edir. Den Braunun mətnlərində sosial, alternativ və postmodern gerçəkliyin tətbiqi detektiv, intellektual və postmodern komponentlərin işlənməsi, eləcə də memarlıq, heykəltaraşlıq, rəssamlıq və s. sahələrə aid zəngin informasiyaların verilməsi çoxsəslilik yaradır. Den Braunun bədii mətnlərində gerçəklik və onun postmodern strukturu sosial, alternativ və postmodern gerçəkliyin birləşməsi ilə müəyyən olunur. Dissertasiyada əldə edilən nəticələri aşağıdakı kimi qruplaşdırmaq olar:

– Den Braunun bədii mətnlərində gerçəklik və onun postmodernist strukturu müasir dövrdə xaosun, həqiqətin nisbiləşməsinin real elementlərini müəyyən edir. Gerçəklik məfhumunun məzmun və formaca dəyişməsi postmodernizm və xaosun komponenti kimi önə çıxır. Bu problem müasir dünyanın qloballaşmaqda olan qeyri-müəyyənliyinin köklərini araşdırmaq baxımından faydalıdır;

– Den Braunun tədqiqata cəlb olunan "Mələklər və şeytanlar", "Da Vinçi şifrəsi" və "Cəhənnəm" romanlarının şərhi zamanı əlavə ədəbiyyat kimi Dantenin "İlahi komediya" poeması, Kitabi-Dədə Qorqud" dastanı, həmçinin çağdaş Azərbaycan ədəbiyyatından müvafiq olaraq Anarın "Ağ qoç, qara qoç", Kamal Abdullanın "Yarımçıq əlyazma" və Şərif Ağayarın "Arzulardan sonrakı şəhər" romanlarına müraciət olunmuş, gerçəklik və onun postmodernist strukturunun konseptual həlli möhkəmləndirilmişdir;

– Dissertasiyada gerçəklik və onun postmodern srukturunu müəyyən etmək üçün "Den Braun bədii üçbucağı" adlı ədəbi düstur müəyyən olunmuşdur. "Den Braun bədii üçbucağı"nın elmi, dini və sosial xətləri hər üç romanda tətbiq olunmuşdur. "Mələklər və şeytanlar" romanında sosial xətt Robert Lənqdonun əsas obraz kimi iştirakı ilə icra olunan həqiqət axtarışıdır. Dini xətt Kilsə-İllüminati mübarizəsi yolu ilə fanatizmin tənqid hədəfinə çevrilməsidir. Elmi xətt isə bu

mübarizədə əldə olunmuş müsbət qənaətlərin toplusudur. "Da Vinçi şifrəsi" romanında sosial xətt Robert Lənqdonla Jak Sonyerin nəvəsi Sofinin macəralarıdır. Dini xətt İsa Məsih haqqında məlumatların gerçəklik-absurd keçidində davam etməsidir. Elmi xətt vasitəsilə isə Den Braun Leonardo da Vinçinin rəsmlərindəki sirləri gerçəklik kimi təqdim etməyə çalışır. "Cəhənnəm" romanında "Den Braun bədii üçbucağı"nın sosial xəttini insanların sayının sürətlə çoxalması problemi izləyir. Dini xətt Dantenin "İlahi komediya"sının bazasında "Cəhənnəm" anlayışının dekonstruksiya edilməsidir. Elmi xətt isə bəşəriyyətin xilas-antixilas mübarizəsinin real imkanlarının müəyyən edilməsinə hesablanmışdır;

– Den Braunun bədii mətnlərində gerçəklik və onun postmodernist strukturunu formalaşdıran üç komponent müəyyən edilmişdir. "Sosial gerçəklik" adlanan ilk qənaət müəllifin "Mələklər və şeytanlar" romanının bazasında təşəkkül tapır. Sosial gerçəklik "Mələklər və şeytanlar" romanında gerçəkliyin bədii strukturunun şərhi ilə başlayır. Daha sonra "Mələklər və şeytanlar" romanında zaman konsepti təhlil olunmuşdur. Romanda Robert Lənqdonun həqiqət axtarışları prosesində sosial gerçəklik yekunu statusundadır. Bununla da gerçəklik və onun postmodern strukturunun sosial gerçəklik komponenti tamamlanır;

– "Mələklər və şeytanlar" romanında sosial gerçəklik probleminin həllini gücləndirmək məqsədilə Anarın "Ağ qoç, qara qoç" romanına müraciət edilmişdir. "Ağ qoç, qara qoç" romanında sosial gerçəklik utopiya-distopiya mübarizəsində təşəkkül tapır. Robert Lənqdonla Məlik Məmmədli surətlərinin həqiqət axtarışlarındakı bənzərliyin real və nəticəyönlü səciyyə daşıması müəyyən edilir;

– Den Braunun bədii mətnlərində gerçəklik və onun postmodern strukturunun ikinci komponenti kimi alternativ gerçəklik diqqət çəkir. Den Braunun alternativ gerçəklik konsepsiyası romanda absurdun bədii transformasiyası ilə başlayır. Romandakı hadisələrin gerçəkliklə xəyal arasında var-gəl etməsi absurdun transformasiyası üçün baza rolunu oynayır. Den Braunun İsa Məsih, Mariya Maqdalina, Müqəddəs Qraal və s. haqqında mülahizələri fakt səviyyəsinə qalxa bilməsə də, bütləri dağıtmaq ideyası kimi maraqlıdır. Alternativ gerçəkliyin absurdun bədii transformasiyası ilə başlayan izahı növbəti mərhələdə öz yerini "Da Vinçi

şifrəsi” romanında intellektuallıq və əyləncəviliyin təhlilinə verir. “Mələklər və şeytanlar” romanından fərqli olaraq bu romanda məlumatlar daha innovativ və konseptualdır. Oxucudan hazırlıq tələb edən intellektual nəsrdə hadisələr mövcud biliklə aydınlaşır. Den Braunun bu romana informasiya və əyləncə ədəbiyyatının komponentlərini əlavə etməsi çoxsəslilik yaradır. Robert Lənqdonun alternativ gerçəkliyin individual modeli kimi təqdimatı ilə gerçəklik və onun postmodern strukturunun alternativ gerçəklik komponenti tamamlanır;

– “Da Vinçi şifrəsi” romanında alternativ gerçəkliyin həllini qüvvətləndirmək məqsədilə Kamal Abdullanın “Yarımçıq əlyazma” romanından əlavə bədii material qisminə istifadə olunmuşdur. “Da Vinçi şifrəsi”ndə olduğu kimi burada da absurdun alternativ gerçəkliyin istiqaməti kimi iştirakı diqqətdən qaçmır. “Yarımçıq əlyazma” romanında “Kitabi-Dədə Qorqud” dastanına və Şah İsmayıl Xətaiyə yeni yanaşma alternativ gerçəkliyin təyinatı üçün əsaslı informativ və analitik baza formalaşdırır;

– “Cəhənnəm” romanı gerçəklik və onun postmodern strukturunun postmodern gerçəklik komponentini tamamlayan sonuncu bədii mətndir. Bədii mətndə postmodern gerçəkliyin təsbiti gerçəkliyin imitasiyasının müəyyənləşdirilməsi ilə başlayır. Keçmişə konseptual ironiya olan pastiş romanda gerçəkliyin imitasiyasının əsas modulu kimi analiz olunur. Dantenin insanların mənən təmizlənməsi ideyasından Den Braun xilas motivinin materialı kimi istifadə edir. Gerçəklik və onun postmodern strukturunun gerçəkliyin imitasiyası ilə başlayan bədii şərhi növbəti mərhələdə yerini gerçəkliyin dekonstruksiyasına verir. Tədqiqat işində “Cəhənnəm” romanının təkcə “İlahi komediya”nın “Cəhənnəm” hissəsinin deyil, peomanın digər iki bölməsini də əsas götürdüyü müəyyən olunmuşdur. Dantenin katarsis təklifini müasir dövrə proyeksiya edən Den Braun gerçəkliyin dekonstruksiyasını müasirləşdirir. Roman əsasında Robert Lənqdon və gerçəkliyin modernizasiyasının müəyyən olunması ilə postmodern gerçəklik komponenti tamamlanır;

– Romanda postmodern gerçəkliyin gerçəklik və onun postmodern strukturunun daxilində şərhi zamanı Şərif Ağayarın “Arzulardan sonrakı şəhər” romanına əlavə ədəbiyyat kimi müraciət edilmişdir. “Arzulardan sonrakı şəhər” romanında azadlıq və müharibə mövzularının bədii strukturu ilə “Cəhənnəm”

romanında gerçəkliyin modernizasiyasının bədii strukturu ortaq ədəbi-sosial məkanı bölüşür;

– Yekun olaraq, Den Braunun bədii mətnlərində gerçəklik və onun postmodern strukturunu müəyyən etmək üçün “Sosial gerçəklik”, “Alternativ gerçəklik” və “Postmodern gerçəklik”dən ibarət üç hissəli konseptual mexanizm müəyyən edilmişdir. Mövcud problemin əlavə ədəbi nümunələr vasitəsilə şərhi ədəbiyyatşünaslıq elmi, eləcə də komparativistika üçün əlavə mənbələr formalaşdırır.

Den Braunun yaradıcılığında gerçəklik və onun postmodern strukturu probleminin araşdırılması nəticəsində konkret ədəbi və elmi nəticələr əldə edildi. Bu problemin, eləcə də onu formalaşdıran üç komponent və onların istiqamətləri ümumi olaraq ədəbiyyatşünaslıq, kulturologiya, memarlıq, rəssamlıq və başqa sahələr üçün əsaslı informativ və intellektual mənbələrdən biri kimi tövsiyə edilə bilər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

Azərbaycan dilində:


1. Abbas, A. Dolu / A.Abbas. – Bakı: Təhsil, – 2008. – 254 s.
2. Abbas, A. Şərif Ağayarın arzularından sonrakı şəhər haradı?!: [Elektron resurs] / – 11 aprel, – 2017. URL: https://www.adalet.az/az/writers/detail/aqil-abbas-sherif-agayarin-arzularindan-sonraki-sheher-haradi!-124784
3. Abdulla, K. Sehrbazlar dərəsi / K.Abdulla. – Bakı: Mütərcim, – 2006. – 224 s.
4. Abdulla, K. Unutmağa kimsə yox / K.Abdulla. – Bakı: Qanun, – 2011. – 527 s.
5. Abdulla, K. Yarımçıq əlyazma / K.Abdulla. – Bakı: "XXI" – YNE, – 2004. –288 s.
6. Abdullayev, Ç.A. Hammurapi qanunu / Ç.A.Abdullayev. Tərcümə edən: Mahir N.Qarayev. – Bakı: Qanun, – 2012. – 296 s.
7. Abdullayeva, Y. Böyük Britaniya postmodernist romanının təşəkkülü // – Bakı: Azərbaycan Universiteti, "İpək yolu" jurnalı, – 2019. № 1, – s.63-70.
8. Ağammədov, M.Ə. Dünya şöhrətli yazıçı Den Braunun əsərlərinin nəşri, yayımı və tənqidi // – Bakı: Elmi inkişaf: nəzəri və təcrübi jurnal. – 2019. №1. – s.42-48.
9. Ağaoğlu, M. Küləyi dişləyən / M.Ağaoğlu. – Bakı: Qanun, – 2012. – 140 s.
10. Ağayar, Ş. Arzulardan sonrakı şəhər / Ş.Ağayar. –Bakı: Qanun, – 2017. – 232 s.
11. Ağayar, Ş. Haramı / Ş.Ağayar. – Bakı: Qanun, – 2014. – 304 s.
12. Ağayar, Ş. Kərpickəsən kişinin dastanı / Ş.Ağayar. – Bakı: Əli və Nino, – 2010. – 95 s.
13. Ağayar, Ş. On il sonra əllərimi öpəcəklər: [Elektron resurs] / Müsahibə. – 8 fevral, – 2018. URL: https://publika.az/projects/xususi/230514.html
14. Akimova, E. "Yeni dünya" həqiqətləri - postmodernizm // Ədəbiyyat qəzeti. – 2015, 5 dekabr, – s. 9.
15. Akimova, E. Yuxu ilə reallığın qovuşduğu məkan: Arzulardan sonrakı şəhər // Ədəbiyyat qəzeti. – 2017, 5 avqust. – s. 10-11.
16. Anar. Göz muncuğu / Anar. – Bakı: Yazıçı, – 2014. – 162 s.
17. Anar. Seçilmiş əsərləri / Anar. – Bakı: Lider nəşriyyatı, – 2004. – 416 s.

18. Ayvaz, A. İntellektual nəsr nədir?: [Elektron resurs] / – 27 sentyabr, – 2016. URL: https://kulis.az/xeber/edebi-tenqid/xeber-16105
19. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Genişləndirilmiş və yenidən işlənmiş 7-ci nəşr / – Bakı: "Elm", – 2021. – 756 s.
20. Babayev, Ü.A. Türkiyə və Azərbaycan postmodernist nəsrində sosial funksiya probleminin bədii ifadəsi: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2021. – 40 s.
21. Balasaqunlu, Y. Qutadqu bilik / Y.Balasaqunlu. Tərcümə edənlər: Kamil Vəliyev, Ramiz Əskər. – Bakı: Bakı Kitab Klubu, – 2017. – 402 s.
22. Böyükçöl, K. Çöl / K.Böyükçöl. – Bakı: Qanun, – 2010. – 288 s.
23. Braun, D. Başlanğıc / D.Braun. Tərcümə edənlər: Rəfiqə Məmmədova, Xalid Kazımlı. – Bakı: Qanun, – 2018. – 528 s.
24. Braun, D. Cəhənnəm / D.Braun. Tərcümə edən: Əfsanə Nurəli Həmzəyeva. – Bakı: Qanun, – 2013. – 576 s.
25. Braun, D. Da Vinçi şifrəsi / D.Braun. Tərcümə edən: Samir Bulut. – Bakı: Qanun, – 2012. – 519 s.
26. Braun, D. İtirilmiş simvol / D.Braun. Tərcümə edən: Yaşar Əsədov. – Bakı: Qanun, – 2009. – 500 s.
27. Braun, D. Mələklər və iblislər / D.Braun. Tərcümə edən: Yaşar Əsədov. – Bakı: Qanun, – 2015. – 728 s.
28. Braun, D. Rəqəmsal qala / D.Braun. Tərcümə edən: Yaşar Əsədov. – Bakı: Qanun, – 2012. – 544 s.
29. Braun, D. Yalan nöqtəsi / D.Braun. Tərcümə edən: Yaşar Əsədov. – Bakı: Qanun, – 2012. – 544 s.
30. Cahangir, Ə. Ağ saç, qara saç / Ə.Cahangir. – Bakı: Nurlan, – 2006. – 173 s.
31. Cəfərli, Y., Cəfərli, X. "Mələklər və İblislər" və "Heyvanıstan" romanlarında zamanın bədii strukturu // Professor Hamlet İsaxanlının anadan olmasının 75 illiyinə həsr olunan "Humanitar elmlər yeni paradiqmalar kontekstində" adlı Gənc Tədqiqatçıların Beynəlxalq Elmi Konfransının materialları. – Bakı: Xəzər Universiteti, – 29 mart, – 2023, – s.185-189.

32. Cəfərli, Y., Cəfərli, X. Robert Lenqdon və Vinston Smit surətlərinin həqiqət uğrunda mübarizəsi bədii kontekstdə // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların VII Beynəlxalq Elmi Konfransının materialları. – Bakı: Bakı Mühəndislik Universiteti, – 28-29 aprel,– 2023, – s. 1878-1880.
33. Cəfərli, Y. "Cəhənnəm" romanında obrazlar sisteminin gerçəklik və alternativ tarix kontekstində təhlili // – Bakı: Journal of Baku Enginering University, – 2017. № 2, – s.174-181.
34. Cəfərli, Y. "Cəhənnəm" romanında pastiş // Bakı Mühəndislik Universiteti. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların VII Beynəlxalq Elmi Konfransının materialları. Bakı, BMU, Azərbaycan, – 28-29 aprel, – 2023,– s. 1880-1882.
35. Cəfərli, Y. "Da Vinçi şifrəsi" romanı postmodern bədii mətn kimi: Romanda intertekstuallıq və dekonstruksiya // – Bakı: Azərbaycan Universiteti, "İpək yolu", – 2017. № 3, – s.159-168.
36. Cəfərli, Y. "Da Vinçi şifrəsi"romanında postmodern struktur və simvolizm // Bakı Mühəndislik Universiteti, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların II Beynəlxalq elmi konfransının materialları. – Bakı: BMU, Azərbaycan, – 27-28 aprel, – 2018, – s. 1319-1321.
37. Cəfərli, Y. "Da Vinçi şifrəsi" və "Den Braun bədii üçbucağı" // Xəzər Universiteti. Professor Hamlet İsaxanlının anadan olmasının 75 illiyinə həsr olunan "Humanitar elmlər yeni paradiqmalar kontekstində" adlı Gənc Tədqiqatçıların Beynəlxalq Elmi Konfransının materialları. – Bakı: Xəzər Universiteti, Azərbaycan, – 29 mart, – 2023, – s. 181-184.
38. Cəfərli, Y. Den Braunun "Da Vinçi kodu" romanında kilsə-priorat qarşıdurması postmodernist baxış kontekstində // – Bakı: AMEA Əlyazmalar İnstitutu, Filologiya Məsələləri, – 2017. № 4, – s.383-394.

39. Cəfərli, Y. Den Braunun “Mələklər və Şeytanlar” romanında postmodern oyun texnologiyası // – Sumqayıt: Sumqayıt Dövlət Universiteti, Elmi xəbərlər, sosial və humanitar elmlər bölməsi, – 2017. № 3, – s.25-30.
40. Cəfərli, Y. İntellektual nəsr və “Da Vinçi şifrəsi” romanı // Bakı Mühəndislik Universiteti. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların VI Beynəlxalq Elmi Konfransının materialları. – Bakı: Bakı Mühəndislik Universiteti, – 29-30 aprel, – 2022, –s.1312- 1314.
41. Cəfərli, Y. Mələklər və şeytanlar” romanında ehkam-antiehkam konsepti // – Bakı: Azərbaycan Universiteti, “İpək yolu”, – 2020. № 2, – s. 140-143.
42. Cəfərli, Y.İ. “Mələklər və iblislər” və “Ağ qoç, qara qoç” romanlarında postmodern oyun texnologiyası // “Azərbaycan və Türkiyə Universitetləri: təhsil, elm, texnologiya” adlı I Beynəlxalq elmi-praktiki konfransının materialları. – Bakı: Azərbaycan Texniki Universiteti, – 18-20 dekabr, – 2019, – s. 331-336.
43. Cəfərov, N. Oyanmış ruhun özünüdərki – Əsəd Cahangirin 55 illiyinə // Ədəbiyyat qəzeti, – 2021, 26 iyun, – s 12-14.
44. Cəmşidov, C. Dante Aligyeri və İslam: bir əsrlik polemika haqqında // Ədəbiyyat qəzeti, – 2014, 28 noyabr, – s.11
45. Dante, A. İlahi komediya / A.Dante. Tərcümə edən. Əliağa Kürçaylı. – Bakı: Öndər nəşriyyatı, – 2004. – 232 s.
46. Den Braunun son romanı dünyaya təqdim edilir // Ədəbiyyat qəzeti, – 2017, 24 iyun, – s. 32.
47. Drayzer, T. Cenni Herhardt / T.Drayzer. Tərcümə edən: Cəfər Bağır. – Bakı: Şərq-Qərb, – 2006. – 360 s.
48. Drayzer, T. Dahi / T.Drayzer. Tərcümə edən: Cəfər Bağır. – Bakı: TEAS Press, – 2020. – 850 s.
49. Drayzer, T. Kerri bacı / T.Drayzer. Tərcümə edən: Cəfər Bağır. – Bakı: Qanun, – 2014. – 540 s.
50. Elatlı, E. Qan ləkəsi / E.Elatlı. – Bakı: Qanun, – 2015. – 672 s.

51. Elaydi, A.S. Müstəqillik dövrü Azərbaycan romanı. Mövzu, problematika və sənətkarlıq məsələləri (1991-2005) / A.S.Elaydi. – Bakı: "Nurlar" nəşriyyatı, – 2017. – 192 s.
52. Elaydi, A.S. Utopik xəyallar, acı reallıqlar // – Bakı: Bakı Dövlət Universiteti, Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, – 2009. №4, – s. 158-162.
53. Əlişanoğlu, T. XX əsrin Azərbaycan nəsrinin poetikası / T.Əlişanoğlu. – Bakı: Elm, – 2006. – 312 s.
54. Əliyev, Ə. Dekonstruksiya fələfəsi: [Elektron resurs] / – 5 may, – 2021. URL: https://azlogos.eu/dekonstruksiya-f%C9%99ls%C9%99f%C9%99si/
55. Əliyev, R. Ədəbiyyat nəzəriyyəsi / R.Əliyev. – Bakı: Mütərcim, – 2008. – 360 s.
56. Əmirova, N. Postmodernizmin tarixinə və mahiyyətinə bir nəzər: [Elektron resurs] / – 18 may, – 2018. URL: https://kulis.az/xeber/edebi-tenqid/xeber-22774
57. Ənvəroğlu (Qasımov), H. Azərbaycan romanının inkişaf problemləri / H.Ənvəroğlu (Qasımov). – Bakı: Nurlan, – 2008. – 335 s.
58. Fəhmi, İ. Akvarium: teatral roman / İ.Fəhmi. – Bakı: Xan, – 2017. – 197 s.
59. Fəhmi, İ. "Da Vinçinin kodu" yaxud Den Braunun "Feminist" marşı // Ədəbiyyat qəzeti. – 2015. 25 aprel. – s.22-23.
60. Folkner, V. Avqust işığı / V.Folkner. Tərcümə edən: Tehran Vəliyev. – Bakı: Qanun, – 2018. – 463 s.
61. Gəncəvi, N. Sirlər xəzinəsi / N.Gəncəvi. Tərcümə edənlər: Süleyman Rüstəm, Abbasəli Sarovlu. – Bakı: Azərbaycan Mədəniyyətinin Dostları Fondu, – 2004. – 192 s.
62. Gülxani, P. Anarın "Ağ qoç, qara qoç" əsəri: [Elektron resurs]. URL: http://gulxani.net/ag_qoc_qara_qoc.htm
63. Hacılı, A. Kamal Abdulla: seçimin morfologiyası / A.Hacılı. – Bakı: Mütərcim, – 2010. – 132 s.
64. Heminquey, E. Qoca və dəniz / E.Heminquey. Tərcümə edən: Manaf Süleymanov. – Bakı: Altun kitab, – 2012. – 127 s.

65. Həbibbəyli, İ.Ə. Ədəbiyyat nəzəriyyəsi: inkişaf mərhələləri və problemləri: [2 cilddə] / İ.Həbibbəyli. – Bakı: Elmin İnkişafı Fondu, – c. 2. – 2018. – 399 s.
66. Homer. İliada / Homer. – Bakı: “Öndər nəşriyyat”, – 2004. – 264 s.
67. Homer. Odisseya / Homer. – Bakı: “Öndər nəşriyyat”, – 2004. – 209 s.
68. Hüseyni, X. Çərpələng uçuran / X.Hüseyni. Tərcümə edən: Xədicə İsmayıl. – Bakı: Qanun və Əli və Nino, – 2011. – 447 s.
69. Hüseyni, X. Və dağlardan səda gəldi / X.Hüseyni. Tərcümə edən: Səbinə Mütəllimova. – Bakı: Qanun və Əli və Nino, – 2013. – 504 s.
70. Hüseyni, X. Min möhtəşəm günəş / X.Hüseyni. Tərcümə edən: Firidun Ağazadə. – Bakı: Qanun və Əli və Nino – 2013. – 455 s.
71. Hüseynli, G. Çağdaş Amerika bədii ədəbiyyatında postmodernizmin inikas xüsusiyyətləri (Don Delillo və Pol Oster yaradıcılığı əsasında): / filologiya üzrə fəlsəfə doktoru diss. avtoreferatı. / – Bakı, 2017. – 27 s.
72. Hüseynov, A. Həyat və sənət həqiqəti. / A.Hüseynov. – Bakı: “TS”, – 2001. – 204 s.
73. İsmayılov, R. Ədəbiyyatşünaslıq terminləri lüğəti. / R.İsmayılov, E.Nəcəfov – Bakı: Altun kitab, – 2017. – 225 s.
74. İsmayilova, Y. “Dədə Qorqud” eposu postmodernist roman düşüncəsində // – Bakı: Bakı Dövlət Univerisiteti, Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, – 2012. №1, – s. 29-42.
75. Kamal, N. Aç mənəm / N.Kamal. – Bakı: Qanun, – 2010. – 244 s.
76. Kamal, N. Umberto Eko və postmodernizm fəlsəfəsi / N.Kamal. – Bakı: Qanun, – 2012. – 204 s.
77. Kitabi-Dədə Qorqud dastanı. Əsil və sadələşdirilmiş mətnlər: / Tərt. Ed. S.Əlizadə, red. T.Hacıyev. – Bakı: Öndər, – 2004. – 376 s.
78. “Kitabi-Dədə Qorqud”un üçüncü əlyazması olmayıb – Seyfəddin Rzasoy: [Elektron resurs] / – 1 iyul, – 2019. URL: https://hafta.az/-kitabi-dede-qorqud-un-ucuncu-elyazmasi-olmayib-%E2%80%93-seyfeddin-rzasoy-282-xeber.html
79. “Kitabi Dədə Qorqud”un 3-cü nüsxəsi tapılıb – itirilmiş 13-cü boy ortaya çıxıb: [Elektron resurs] / – 27 aprel, – 2019. URL:

https://www.yeniavaz.com/az/newscontent/znewscontent/105482/kitabi-dede-qorqudun-3-cu-nusxesi-tapilib-itirilmis-13-cu-boy-ortaya-cixib-foto

80. Kulturologiya. “Postmodernizm” elmi-kulturoloji, ədəbi-tənqidi yazılar toplusu: [Elektron resurs] / Tərt. Ed: A.Əbilov; “e-Dalğa” Şəbəkə dərgisi. – Bakı, – 2009. URL: https://kitabxana.net/book.php?id=646
81. Kuper, C.F. Ləpirçi / C.F.Kuper. Tərcümə edən: Əsəd Zeynalov. – Bakı: Çaşıoğlu, – 2004. – 336 s.
82. Kuper, C.F. Sonuncu magikan / C.F.Kuper. Tərcümə edən: Əsəd Zeynalov. – Bakı: Qanun, – 2014. – 416 s.
83. Kəlilə və Dimnə: / Tərcümə edən: Rəhim Sultanov. – Bakı: Azərnəşr, – 1982. – 316
84. Qabusnamə: / Tərcümə edən: Rəhim Sultanov. – Bakı: Altun Kitab, – 2006. – 223 s.
85. Qan Turalı. Doqquz hekayə / Qan Turalı. – Bakı: Elgün, – 2015. – 130 s.
86. Qan Turalı. Fələk qırmancı. / Qan Turalı. – Bakı: Mütərcim, – 2016. – 220 s.
87. Qarayev, S. Kamal Abdullanın “Yarımçıq Əlyazma” Romanı: tarix müasirlik konteksində // – Bakı: Azərbaycan Universiteti, “İpək yolu” jurnalı, – 2019. № 3, – s.146-153.
88. Qismət, A. Den Braun mistikası // Ədəbiyyat qəzeti. – 2017, 14 yanvar, – s.6-7.
89. Qocatürk, N.S. Postmodernizm: zamanın yeni fəlsəfi axını // – Bakı: Bakı Dövlət Universiteti, İlahiyyat fakültəsinin elmi məcmuəsi, – 2016. № 26, – s.423-433.
90. Quliyev, Q. XX əsr Amerikan ədəbiyyatşünaslığında aparıcı cərəyanlar. Dərs vəsaiti. / Q.Quliyev. – Bakı: Çaşıoğlu, – 2011. – 207 s.
91. Quliyeva, A. Anar yaradıcılığında mənəvi-əxlaqi problemlər / A.Quliyeva, tərt. ed. S.Xəyal. – Bakı: MBM, – 2013. – 96 s.
92. Qurani-Kərim və açıqlamalı məali: / Tərcümə edən: Fazil Qaraoğlu. – Ankara: Baskı-Cild, – 2003. – 604 s.
93. Mehdi, N. Postmodernizmin “kodu”: Postmodernizmin tarixə gəlişindən // Ədəbiyyat qəzeti, – 2017, 4 fevral, – s. 14.
94. Məqsəd, N. Şəhər meri / N.Məqsəd. – Bakı: Əli və Nino, – 2011. – 112 s.

95. Mövlud, M. Niyə "Yarımçıq əlyazma?" // 525-ci qəzet, – 2009, 26 dekabr. – s.19.
96. Nargis. Kamal Abdulla: Postmodernizmdən milli özünəməxsusluğa: II yazı // Ədəbiyyat qəzeti, – 2019, 3 avqust. – s. 18-19.
97. Paşayeva, A. Anarın "Ağ qoç, qara qoç" romanı haqqında: [Elektron resurs] / – 9 Aprel, – 2012. / URL: http://yarpaq.az/az/agla-qaranin-ziddiyyeti/
98. Postmodernist olmaq xülyadır. Cavanşir Yusiflinin müsahibəsi: [Elektron resurs]. / – Bakı, – 2018. URL: https://www.aznews.az/news/medeniyyet/186775.html
99. Rəhimova, F.C. Çağdaş Amerikan detektiv janrının ədəbi-bədii xüsusiyyətləri (Dən Braun yaradıcılığı əsasında): / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2018. – 25 s.
100. Rüstəmov, Q. Atlar niyə çəhrayıdır?: [Elektron resurs] / – 26 dekabr, – 2018. URL: https://www.aznews.az/news/writers/202741.html
101. Sabitova, A. XVIII əsr Amerika ədəbiyyatı / A.Sabitova. – Bakı: Mütərcim, – 2017. – 111 s.
102. Selincer, C.D. Çovdarlıqda uçurumdan qoruyan. / C.D.Selincer. Tərcümə edən: Tehran Vəliyev. – Bakı: Qanun, – 2011. – 227 s.
103. Servantes, M.S. Don Kixot / M.Servantes. Tərcümə edən: Pənah Xəlilov. – Bakı: Öndər, – 2004. – 576 s.
104. Steynbek, C. Qəzəb salxımları / C.Steynbek. Tərcümə edən: Ülfət Kürçaylı. – Bakı: Qanun, – 2017. – 471 s.
105. Şərifova, S. Çağdaş Azərbaycan postmodern romanı / S.Şərifova. – Bakı: Elm və təhsil, – 2015. – 104 s.
106. Şükürlü, M. XX əsrin ilk yarısındakı ədəbi-mədəni prosesdə roman faktoru və ya Azərbaycanda romançılıq ənənəsinin formalaşma dövrünə müasir baxış // 525-ci qəzet, – 2016, 8 sentyabr, – s. 4.
107. Tağısoy, N.T. Postmodernizmin bəzi xüsusiyyətlərinə fraqmentar baxış // – Bakı: Azərbaycan Yazıçılar Birliyi, Ulduz jurnalı, – 2018. № 05, – s.44-50.
108. Tanhu, M. Arzulardan Sonrakı Şəhərdə arzular varmı?: [Elektron resurs] / – 25

aprel, – 2020. URL: https://kulis.az/xeber/senet/Arzulardan-Sonraki-Shrd-arzular-varmi-colorredMhmmd-Tanhu-yazir...color-30191

109. Varis. Bir ovuc toroaq / Varis. – Bakı: “Vektor” nəşrlər evi, – 2009. – 318 s.
110. “Yarımçıq əlyazma”nın öz həyatı: [Elektron resurs] / – 27 yanvar, – 2015. URL: https://musavat.com/news/medeniyyet/yarimchiq-elyazmanin-oz-heyati_242819.html
111. “Yarımçıq əlyazma”ya son söz: [Elektron resurs] / – 30 yanvar, – 2018. URL: http://senet.az/yarimciq-%C9%99lyazmaya-son-soz/
112. Yusifli, C. Mətn, işarə, məna / C.Yusifli. – Bakı: Mütərcim, – 2019. – 178 s.
113. Zeynalova, D. Modernizm. Postmodernizm (Terminoloji lüğət) Dərs vəsaiti. / D.Zeynalova. – Bakı: “Elm və təhsil”, – 2015. – 96 s.

Türk dilində:

114. Adorno, T. Edebiyat yazıları / T. Adorno. Çevirenler: Orhan Koçak, Sabir Yücesoy. – İstanbul: İletişim Yayınları, – 2014. – 355 s.
115. Aktulum, Y. Metinlerarasılık. Göstergelerarasılık / Y.Aktulum. – Ankara: Kanguru Yayınları, – 2011. – 496 s.
116. Cehennem: [Elektron resurs] / – 14 oktyabr, – 2016. URL: https://www.beyazperde.com/filmler/film-222798/
117. Cevizci, A. Felsefe Tarihi; Thales’ten Baudrillard’a / A.Cevizci. – İstanbul: Say Yayınları, – 2009. – 1344 s.
118. Çabuklu, Y. Postmodern Toplumdan Kesitler / Y.Çabuklu. – İstanbul: Paloma yayınevi, – 2010. – 174 s.
119. Çeşitli, İ. Batı edebiyyatında edebi akımlar / İ.Çeşitli. – Ankara: Akçağ Yayınları, – 2019. – 315 s.
120. Da Vinci şifres: [Elektron resurs] / – 19 mayıs, – 2006. URL: https://www.beyazperde.com/filmler/film-54226/
121. Da Vinci şifresi’ni çözen türk: [Elektron resurs] / – 16 ağustos, – 2016. URL: https://www.timeturk.com/tr/makale/erhan-basyurt/da-vinci-sifresi-ni-cozen-turk.html

122. Da Vinci şifresini çözmek: [Elektron resurs]. URL: https://www.kutsalkitap.org/da-vinci-sifresini-cozmek/
123. Da Vinci şifresi'nin Yazarı Dan Brown Hakkında 10 Şaşırtıcı Bilgi: [Elektron resurs] / – 24 ekim, – 2018. URL:https://www.mynet.com/da-vinci-sifresinin-yazari-dan-brown-hakkinda-10-sasirtici-bilgi-190101055949
124. Derrida, J. Edebiyyat edimleri / J.Derrida. Çevirmenler: Mukadder Erkan, Ali Utku. – İstanbul: Otonom Yayıncılık, – 2010. – 498 s.
125. Doren, C.V. Kısa amerikan edebiyatı tarihi / C.V.Doren. Çeviren: Orhan Azizoğlu. – İstanbul: Varlık yayınevi, – 1961. – 112 s.
126. Eliot, T. Edebiyat üzerine düşünceler / T.Eliot. Çeviren: Doç.Dr. Sevim Kantarcıoğlu. – İstanbul: Paradigma Yayıncılık, – 2007. – 267 s.
127. Ellis, J.M. Postmodernizme hayır / J.M.Ellis. Çeviren: Halide Aral Bakırer. – Ankara: Emel Matbaası, – 1997. – 184 s.
128. Freud, S. Dinin kökenleri / S.Freud. Çeviren: Ayşen Tekşen Kapkın. – İstanbul: Payel Yayınları, – 2002. – 406 s.
129. Gombrich. E.H. Sanatın öyküsü / E.H.Gombrich. Çevirenler: Erol Erduran, Ömer Erduran. – İstanbul: Remzi kitabevi AŞ, – 2020. – 688 s.
130. Gottdiener, M. Postmodern göstergeler / M.Gottdiener. Çevirenler: Erdal Cengiz, Hakan Gür, Arhan Nur. – İstanbul: İmge kitabevi. – 2005. – 389 s.
131. Gümüş. S. Roman kitabı / S.Gümüş. – İstanbul: Can Yayınları, – 2011. – 224 s.
132. Hacızade, L. Postmodern edebiyatta estetik anlayışı // – İstanbul: Selçuk Üniversitesi, Edebiyat fakültesi, – 2011, № 26, – s. 59-70.
133. İhsan, D. Robert Langdon geri dönüyör: [Elektron resurs] / – 18 haziran, – 2017. URL:https://www.milliyet.com.tr/pembenar/ihsan-dindar/robert-langdon-geri-donuyor-2470757
134. Karadeniz, M. Sahi roman nedir? Sadece bir edebî tür müdür? // – Ankara: Yeni Türk Edebiyatı Araşdırmaları Dergisi, – 2019, Cilt: 1, Sayı: 38, s. – 242-249.
135. Keith, B. Amerikan edebiyatı 101 / B.Keith. Çeviren: Özlem Özarpacı. – Ankara: Say Yayınları, – 2022. – 240 s.

136. Kundera M. Roman sanatı / M.Kundera. Çevirmen: Aysel Bora. – İstanbul: Can yayınları, – 2012. – 155 s.
137. Kutsal kitap: (Eski ve Yeni Antlaşma: Tevrat, Zebur, İncil) – İstanbul: Yeni Yaşam Yayınları, – 2001. – 1370 s.
138. Lucy N. Postmodern edebiyat kuramı / N.Lucy. Çeviren: Aslıhan Aksoy. – İstanbul: Ayrıntı yayınları, – 2003. – 370 s.
139. Lyotard, J. Postmodern durum / J.Lyotard. Çeviren: İsmet Birkan. – Ankara: Bilgesu yayıncılık., – 2013. – 128 s.
140. Melekler ve şeytanlar: [Elektron resurs] / – 15 mayıs, – 2009. URL: https://www.beyazperde.com/filmler/film-124371/
141. Nabokov, V. Edebiyat dersleri / V.Nabokov. Çevirenler: Fatih Özgüven, Ayşe Batur. – İstanbul: Metis Yayınları, – 2015. – 514 s.
142. National Geographic: Efsane mi? Gerçek mi? Da Vinci'nin Şifresi: [Elektron resurs] / – 15 mayıs, – 2015. URL: https://www.youtube.com/watch?v=fx1_sfyfyGY
143. Pastiş Nedir? Nasıl Yapılır? Edebiyatda Pastiş Ne Anlama Gelir?: [Elektron resurs] / – 25 ağustos, – 2021. URL:https://www.hurriyet.com.tr/egitim/pastis-nedir-nasil-yapilir-edebiyatta-pastis-ne-anlama-gelir-41880906
144. Royot, D. Amerikan edebiyatı / D.Royot. Çeviren: Rıfat Madenci. – İstanbul: İletişim Yayınları, – 2007, – 132 s.
145. Sakioğlu, M. Da Vinçinin kutsal kasesi. Tapınak şövalyeleleri'nin deşifresi / M.Sakioğlu. – İstanbul: Karakutu Yayınları, – 2006. – 177 s.
146. Sartre, J.P. Edebiyat nedir? / J.P.Sartre. Çeviren: Bertan Onaran. – İstanbul: Can Yayınları., – 2008. – 172 s.
147. Tekin, M. Postmodernizmin "Din" Sorunu // İstanbul: Milel ve Nihal inanç, kültür ve mitoloji araştırmaları dergisi, – 2015. Cilt: 12, Sayı: 2, – s.7-24.
148. Yaman, H. Postmodern kelimeler sözlüğü / H.Yaman. – İstanbul: Ofset Yapımevi, – 2006. – 495 s.

İngilis dilində:

149. Art/Architecture; Does 'The Da Vinci Code' Crack Leonardo: [Electronic resource] / – 3 august, 2003. URL: https://www.nytimes.com/2003/08/03/books/art-architecture-does-the-da-vinci-code-crack-leonardo.html

150. Barth, J. Chimera / J.Barth. – New York: Penguin Random House, – 1972. – 307 p.

151. Benett, A. An introduction to literature, criticism and theory. Fourth edition / A.Benett, N.Royle – New York: Routledge, – 2009. – 392 p.

152. Bowen, E. The Hotel / E.Bowen. – New York: Penguin Random House, – 2020. – 256 p.

153. Bowen, E. The House in Paris / E.Bowen. – New York: Penguin Random House, – 2002, – 288 p.

154. Brown, D. Inferno / D.Brown. – New York: Penguin Random House, – 2013, – 642 p.

155. Butler, C. Postmodernism: A Very Short Introduction / C.Butler. – Oxford: Oxford University Press, – 2003. – 141 p.

156. Cox, S. Illuminating Angels and demons. – New York: Barnes and Noble, – 2004. – 160 p.

157. Cisneros, S. Caramelo / S.Cisneros. – New York: Penguin Random House, – 2002. – 449 p.

158. Dan Brown's Inferno: a tell writer offers his historic review: [Electronic resource] / – 14 may, – 2013. URL: https://www.theguardian.com/books/2013/may/14/dan-brown-inferno-first-look

159. Dan Brown's Inferno – More Heaven Than Hell. – 18 june, – 2013: [Electronic resource] / URL: https://harvardpolitics.com/dan-browns-inferno-more-heaven-than-hell/

160. Dice, M. The Illuminati Facts & Fiction / M.Dice. NSW: The Resistance, – 2009. – 462 p.

161. Greene, G. The Heart of the Matter / G.Greene. – New York: Penguin Random House, – 2004. – 288 p.

162. Greene, G. The Power and the Glory / G.Greene. – New York: Penguin Random House, – 1991. – 216 p.
163. Guerin, W.L. A handbook of critical approaches. W.L.Guerin, E.Labor, L.Morgan, J.R.Willingham. – New York: Oxford University Press, – 2005. – 228 p.
164. Guessoum, N. Science and religion in Dan Brown's 'Angels and Demons. Nidhal: [Electronic resource] / – 3 september, – 2011. URL: http://nidhalguessoum.org/science-and-religion-in-dan-browns-angels-and-demons/
165. Haag, M. Inferno Decoded. – New York: Gallery Books, – 2013. –272 p.
166. Hartono M. Sacred feminine symbol described in Dan Brown's the Da Vinci code: / Submitted in partial fulfillment of the requirements for the completion for the Degree of Sarjana Sastra (S.S) in English Language specialized in Literature. / – Semarang, 2013. – 100 p.
167. Harvey, D. The condition of postmodernity / D.Harvey. – Cambridge: Blackwell Publishers, – 1992. – 379 p.
168. Hassan, I. The dismemberment of Orpheus: Toward a postmodern literature / I.Hassan. – USA: University of Winconsin-Madison Press, – 2010. – 366 p.
169. Helfers, J. The Unauthorized Dan Brown Companion. / J.Helfers.– New York: Citadel, –2006. –256 p.
170. Hoffman, G. From modernism to postmodernism. Concepts and strategies of postmodern American Fiction / G.Hoffman. – Amsterdam-New York: Blackwell Publishers, – 2005. – 751 p.
171. Inferno by Dan Brown: [Electronic resource] / – 13 June, – 2016. URL: https://www.florenceinferno.com/dan-brown-novel/
172. Jafarli, Y. The Novel "Da Vinci code" as a Symbolic-semiotic Model of Alternative History // – India: The Achievers Journal. Journal of English Language, Literature and Culture, – 2020. № 1, – p. 18-30.
173. Jafarli, Y. Intertextuality in the novel "Angels and Demons" and the character Robert Langdon // II. Uluslararası Türk-Rus Dünyası Akademik Araştırmalar

Kongresi. Siyasi, Sosyal ve Kültürel yönleriyle Türkiye ve Rusya. –Turkey, – 15-17 November, –2019, – p.625-630.

174. Lahey, E. Remember and forget in Dan Brown's Angels and Demons: A corpus-informed account // – New York: Language and Literature: International Journal of Stylistics. – 2015. Volume: 24, Issue 4, – p.292-306.
175. Leitch, V.B. American Literary Criticism since the 1930s / V.B.Leitch. – London and New York: Routledge, – 2009. – 539 p.
176. Lummus, D. Dante's Inferno: Critical Reception and Influence / D.Lummus. – California: Salem Press, – 2011. – p.63-81.
177. Malpas, S. The Postmodern. The critical idiom. / S.Malpas. – New York: Routledge, – 2005. – 159 p.
178. Mambrol, N. Deconstruction: [Electronic resource] / – 22 march, – 2016. URL: https://literariness.org/2016/03/22/deconstruction/
179. Mchale, B. Postmodernist Fiction / B. McHale. – UK: Taylor & Francis, – 2004. – 279 p.
180. Morrison, T. Beloved / T.Morrison. – New York: Penguin Random House, – 1987, – 324 p.
181. Pastiche: [Electronic resource]. URL: https://dictionary.cambridge.org/tr/s%C3%B6zl%C3%BCk/ingilizce/pastiche
182. Pynchon, T. Gravity's Rainbow / T.Pynchon. – New York: Penguin Random House, – 1987, – 760 p.
183. Robert Langdon: [Electronic resource]. URL: https://danbrown.fandom.com/wiki/Robert_Langdon
184. Roth, P. The Ghost Writer / P.Roth. – New York: Farrar, Straus and Giroux (FSG), – 1979. – 180 p.
185. Sarkar, S. Different Types of Novel. Types of Fiction: [Electronic resource] / – 3 January, – 2016. URL: https://www.eng-literature.com/2016/01/different-types-of-novel.html
186. Sarup, M. An introductory guide to post-structuralism and postmodernism / S.Malpas. – Georgia: University of Georgia Press, – 1993. – 240 p.

187. Seal, A. Rethinking the Novel of Ideas and Intellectual History: [Electronic resource]. – 23 April, – 2018. URL: https://s-usih.org/2018/04/rethinking-the-novel-of-ideas-and-intellectual-history/
188. Sheikh, Sheheryar. B. Rewiev of Dan Brown's Inferno: [Electronic resource] / – 28 July, – 2013. URL: https://www.dawn.com/news/1032302
189. Sinclair, L. Arowsmith / L.Sinclair. – New York: Signet publishing, – 2008. – 480 p.
190. Springmeier, F. Bloodlines of Illüminati / F. Springmeier. – Colorado Bl: Independently Published, – 2019. – 299 p.
191. Tan, A. The Kitchen God's Wife / – New York: G.P.Putnam's Sons, – 1991. – 415 p.
192. The Divine Comedy work by Dante: [Electronic resource] / – 3 december, – 2021. URL: https://www.britannica.com/topic/The-Divine-Comedy
193. The Notebooks of Leonardo da Vinci, Complete by Leonardo da Vinci: / tərc. ed. J.P.Richter – California: CreateSpace Publishing, – 2005. – 360 p.
194. The Official Website of Dan Brown: [Electronic resource] / – 30 june, – 2020. URL: https://danbrown.com
195. Updike, J. Rabbit at Rest / J.Updike. – New York: Penguin Random House, – 1990. – 512 p.
196. Updike, J. Rabbit is Rich / J.Updike. – New York: Penguin Classics, – 2006. – 448 p.
197. Updike, J. Rabbit Redux / J.Updike. – New York: Penguin Classics, – 2006. – 384 p.
198. Updike, J. Rabbit, Run / J.Updike. – New York: Penguin Classics, – 2006. – 288 p.
199. Vonnegut, K. Cat's Cradle / K.Vonnegut. – New York: Dell publishing, – 1998. – 304 p.
200. Yousef, T. Modernism, Postmodernism, and Metamodernism: A Critique // – Madison, USA: American Research Institute for Policy Development. International Journal of Language and Literature, – 2017. №1, – p. 33-43.